FEYRUZ BAĞIROV

BURSA · 1999



TARİX · MƏNƏVİYYAT · NAXÇIVAN

# NUH YURDU NAXÇIVAN

*Naxçıvan Muxtar Respublikasının 75-ci ildönümünə tövhə olunur (1924-1999). Sifarişlə yeni əlifbada təkmilləşdirilmiş üçüncü nəşr.*

BURSA — 1999

Üçüncü nəşr

FEYRUZ BAĞIROV

# Nuh yurdu Naxçıvan

**Naxçıvan Muxtar Respublikasının 75-ci ildönümünə tövhə olunur (1924-1999)**

*(Sifarişlə yeni əlifbada təkmilləşdirilmiş üçüncü nəşr)*

> *"Naxçıvanın xüsusiyyətlərindən biri də burada milli ruhun, milli şüurun, azərbaycançılığın çox yüksək səviyyədə olmasıdır".*
>
> HEYDƏR ƏLİYEV — AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ

> *"Nə qədər ki, cəmiyyətdə bərabər hüquqlu insanlar yoxdursa, o zaman əzən və əzilən, hakim və məhkum, aqil və cahıllar olacaq və Allahın ədaləti də aradan götürüləcəkdir."*
>
> (FEYRUZ ABDULLAOĞLU)

**Ön söz:** C. Mirzəyev (tarix elmləri namizədi, dossent, NDU-in müəllimi)

**Məsləhətçilər:** F. Cəfərov (tarix elmləri namizədi, Naxçıvan Dövlət Arxivinin müdiri); Q. Həsənov (Naxçıvan MR Tarixi Abidələri Mühafizə Cəmiyyətinin sədri); C. İmanov (Naxçıvan MR Nazirlər Kabineti yanında Dini İşlər üzrə müvəkkili)

**Redaktorlar:** R. Qasımov və H. Oğuz · **Texniki redaktor:** H. Bağırov

Kitabdakı xəritə və şəkillər müəllifindir.

*Müəllifin Web saytı: www.nuhyurdu.com · E-mail: info@nuhyurdu.com*

Bursa — 1999

# Mündəricat


1 Ön söz 004

2 Giriş 006

3 Birinci bölmə 009

4 İkinci bölmə 013

5 Üçüncü bölmə 015

6 Dördüncü bölmə 016

7 Tarixi müqəddimə 018

8 Tarixi epiloq 066

9 Ədəbiyyat siyahısı 075

10 Xəritə və şəkillər 077

BÖLMƏ

# Ön söz

**Nəvəm İkinə ithaf edirəm.**

Azərbaycan Respublikasının müstəqilliyinin bərqərar olunduğu və möhkəmləndiyi, özəlləşdirmə siyasətinin həyata keçirildiyi vicdan azadlığının həqiqi mənada bərqərar olduğu, dünyanın bir çox ölkələri ilə, xüsusən qonşu müsəlman xalqları ilə sosial-iqtisadi, siyasi, mədəni və i.a. sahələrdə əlaqələrimizin durmadan genişləndiyi müasir dövrdə dini mövzulara müraciət edilməsi, müəyyən dini problemlərin daha dərindən araşdırılması son dərəcə təqdirəlayiq və əhəmiyyətli bir təşəbbüsdür. Çünki on illər boyu vicdan azadlığının tapdalandığını, ateizm tərbiyəsi şüarı altında dini adət və ənənələrimizin yasaq edildiyini, İslam dini əleyhinə cildlərlə kitab nəşr olunduğunu, dini kitabların isə demək olar ki, yazılmadığını və s. nəzərə alsaq, bu təşəbbüsün nə qədər yüksək mənəvi dəyərlərə malik olduğunu sübut etməyə ehtiyac qalmır.

Dəfələrlə düçar olduğumuz faciələrin əsas səbəblərindən biri tarixi yaddaşsızlığımızdan ibarətdir. Yaddaşımız oyanıb hərəkətə gəldikcə, keçmişimizin öz əlimizlə daşqalaq edildiyini anladıqca sanballı tarixi qaynaqları öyrənməyə marağımız da artır.

Məscidlərin və mədrəsələrin sayının sürətlə artdığı indiki şəraitdə dini ədəbiyyatlara, dərsliklərə ehtiyac da getdikcə çoxalır. Doğrudur, son dövrlərdə İslam dininə, şəriətə, hədislərə, iman prinsiplərinə və digər mühüm dini məsələlərə dair çoxsaylı kitablar yazılmışdır. Lakin həmin əsərlər ümumi səpgidə yazılmış, yerli dini adət və ənənələri, müqəddəs ibadət yerlərinin meydana gəlməsi tarixini və digər bir sıra maraq doğuran məsələləri lazımi səviyyədə işıqlandırmamış.

Bu baxımdan Feyruz Bağırovun "Ziyarətnamə"sindən sonra (bax, F.Bafırov, "Ziyarətnamə", 48 vərəq, Bursa-1996). "Nuh yurdu-Naxçıvan" adlı kitab yazmağa təşəbbüs göstərməsi yüksək qiymətləndirilməli və səmimi-qəlbdən alqışlanmalıdır.

Müəllif kitabın bölmələrində Allah, Adəm və Həvva, Ruh, Cənnət və Cəhənnəm, Yer kürəsi və ətrafındakı planetlər və s. haqqında ümumi məlumat verir. Oruc tutmaqla namaz qılmağın əhəmiyyəti, həm sağlamlıq cəhətdən həm də ki, dini nöqteyi-nəzərindən ətraflı səciyyələndirilir.

Kainat və canlı aləm, axirət dünyası və onun olması və bu kimi məsələlər kitabda öz yerini tapmışdır. Feyruz müəllim kitabında Naxçıvan şəhərinin qədimliyindən söz salaraq, ərazidəki qədim Tərsus haqqındakı Qurani-Kərim kitabında da məlumat verildiyi bildirilr.

Kitabda Həzrət Nuh (ə) haqqında, Dünya tufanından sonra gəmisi ilə üzərək Naxçıvandakı Qapıcıq (Cudi) dağında məskunlaşması, sonradan arvadı İlə özünün qəbirlərinin Naxçıvan şəhərində olması və i.a. bu kimi iddialar oxucuda maraq yaradır.

Kitabdakı müqəddimə bölməsində diqqəti cəlb edən cəhətlərdən biri də orta əsrlərdən başlayaraq bu günədək Azərbaycanın ayrılmaz cənnət guşələrindən biri olan Naxçıvanın, tarixi və mədəni inkişafını xülasə şəklində ardıcıl şərhi ilə göstərməsidir.

Bütün bunlar şübhəsiz ki, kitab haqqındakı xoş təəssüratların yaranmasına səbəb olaraq oxucunu düşündürməyə vadar edir. Müqəddəs Quran ayələri ilə başlayan kitab, oxucunu paklığa, inama və mənəvi baxımdan İslama çağırır.

“Nuh yurdu Naxçıvan” kitabı girişlə başlayaraq, dini-fəlsəfi, tarixi-coğrafi anlayışlarla dörd bölmə, tarixi müqəddimə və tarixi epiloqdan ibarətdir. Kitabdakı biblioqrafiya ilə tarixi xəritə və şəkillər oxucunu əyani zənginləşdirir.

Qədim Naxçıvan diyarının tarixi keçmişi və bu günündən məlumat verən kitab, tarixi-fəlsəfi mənəviyyatla maraqlanan oxucular üçün dəyərli vəsaitdir.

Cəfərqulu Mirzəyev (tarix elmləri namizədi, Haxçıvan Dövlət Universiteti,

28 fevral 1997-ci il).

*Nəvəm İkinə ithaf edirəm.*

FƏSİL 2

# Giriş

*Bismillahir-rəhmanir-rəhim!*

İnsan yer üzünün Əşrəfidir. Bu sözlərdə böyük həqiqət vardır. Bəs nə üçün belədir? İnsanla digər məxluqatın fərqi nədədir?

Bütün bu kimi suallara yalnız bir cavab tapmaq mümkündür. O da ki, zahiri və daxili gözəlliyi özündə cəmləşdirən amil insanın Ruhudur.

Allah-təala insan və heyvanlara öz Ruhundan bəxş etsə də, yalnız insanlara digər məxluqatdan fərqli olaraq ağıl (əql), təfəkkür və yaddaş da vermişdir.

Ruh elə bir varlıqdır ki, nə çəkisi nə də ki, ölçüsü vardır.

Allah Yer üzərindəki bütün məxluqata Ruh vermişdir ki, canlı olsunlar.

Allahın özü isə elə bir varlıqdır ki, görür, eşidir, nizamlayır, məxluqatı yedirir, içirdir, çoxaldır, öldürür və yenidən dirildir. O, bütün kainatdakı mürəkkəb işləri nizamlayaraq səhmana salır və zamanla məkan yaradır. Bir sözlə Allah hər şeyə qadirdir və qüdrətlidir.

İnsanlara bəxş olunan ilahi kitabda (Quranda) Allah, özü haqqında belə məlumat verir;

*“Bismillahir rəhmanir rəhim!*

*Əlhəmdu lillahi rəbbil aləmin,*

*Ərrəhmanir rəhim.*

*Maliki yəvmiddin,*

*İyyakə nəəbudu və iyyakə nəstəin.*

*İhdinəs siratəlmustəqim,*

*Siratəlləzinə ənnəmtə ələyhim.*

*Ğəyril-məğzubi,*

Ələyhim vəlazzallin”. (Fatihə surəsi, 1-7).

Mənası belədir;

*“Mərhəmətli, rəhimli Allahın adı ilə!*

*Həmd olsun Allaha-aləmlərin Rəbbinə,*

*Mərhəmətli, rəhimli olana,*

*Haqq-hesab gününün sahibinə.*

*Biz yalnız Sənə ibadət edirik,*

*Və yalnızSəndən kömək diləyirik.*

*Bizi doğru yola yönəlt,*

*Nemət verdiyin kəslərin yoluna.*

*Qəzəbə düçar olmuşların və azmışların yox”.*

Allah öz zatı və sifətləri barəsində daha sonra belə deyir;

*“Qul huvallahu əhəd,*

*Allahussəməd.*

*Ləm yəlid və ləm yuləd,*

Və ləm yəkun llahu kufuvən əhəd”. (Quran).

Mənası belədir;

*“O, Allah təkdir,*

*Allah möhtac deyildir.*

*O, nə doğur, nə də doğulmuşdur,*

*Onun heç bir tayı-bərabəri də yoxdur”.*

Allah, nə cismdir, nə maddə, nə ölçüsü var, nə də ki, çəkisi. Pak və mehriban olan varlıqdır O!

*Allah-təala, aləmlərin nurudur.*

> *Allah göylərin və yerin nurudur. Onun nuru, içində çıraq olan bir taxçaya bənzər; taxçadakı o çıraq bir qəndilin işindədir, o qəndil isə, sanki parlaq bir ulduzdur. O çıraq nə şərqdə, nə də qərbdə olan mübarək bir zeytun ağacından yandırılır. Onun yağı özünə od toxunmasa da, sanki işıq saçır. O, nur üstündə nurdur. Allah dilədiyini öz nuruna qovuşdurar. Allah insanlar üçün misallar çəkir. Allah hər şeyi biləndir!"*
>
> **(Nur surəsi, 35)**

Bəs O, haradadır?

Allah-təala yalnız imanı olan, Ona itaət edən, Ondan bağışlanmasını diləyən təqvalı mömin bəndələrin Ruhundadır.

İmanla Ruh bir-birindən ayrılmayan vəhdətdir.

İmansız insan bu dünyada sanki bir qurumuş ağaca bənzər.

> *"(Ya Peyqəmbər!) Sənin əzəmət və kərəm sahibi olan Rəbbinin adı nə qədər ucadır (nə qədər uludur)!"*
>
> **(Ər-Rəhman surəsi, 78)**

FƏSİL 3

# Birinci bölmə

Sonsuz kainatı nizamlayan Allah-təala yaşadığımız dünyamızda təmiz hava, su, torpaq, bitki və heyvanat aləmi ilə bərabər şüurlu insan da yaratmışdır.

Dini kitab olan Quranda bildirilir ki, Allah-təala 6 günə Günəşi və dövrəsində müəyyən məsafələrdə fırlanan ulduzları (qalaktikanı) yaratmışdır. (Bax, Quran," Həcc" surəsi, ayə 47).

Bizə məlum olan qalaktikadan başqa digər Günəş və kəhkəşanlar da vardır. Onlar yalnız Allahın mözüzələridir.

Bizim Yer kürəmiz özünün xəyali oxu üzərində fəzada fırlanır. Yer il ərzində Günəş ətrafında fırlandıqca yuxarı (şimal) və aşağı (cənub) tərəfləri Günəşə tərəf meyillənir və Yer üzərindəki fəsilləri yaradır ki, bu da canlı aləmin yaşayışı üçün zəruridir. Yerin bu cür hərəkəti onun üzərindəki coğrafi iqlim qurşaqlarının yaranmasına səbəb olur.

Yerin Günəş ətrafındakı bir tam dövrəsi Yer zamanı ilə 365 gün, 6 saat, 30 dəqiqə və 30 saniyəyə başa çatır.

Allah-təala Yerin və digər planetlərin ətrafında fırlanan peyk ulduzlar da yaratmışdır. Yerin ətrafında fırlanan kütlə Aydır. Ay, Günəşlə Yer arasında olanda Yerə kölgəsi düşür və öz işıqlanma görünüşü hilal şəklini alır. Ayın daim olaraq bir tərəfi Yer istiqamətində fırlanır. Ayın Yerdən görünən hilal forması islam ölkələrində "qəməri" (ay) təqvimini bildirir ki, bu da Miladi təqvimindən fərqlənərək, hər il 9-10 gün irəliləyir.

Allah-təala Yerdə mikroskopik və ali canlı aləm yaratmış. Belə ki, bütün canlılara özünə məxsus tərzi-hərəkət, rəng və çoxalma qanuna uyğunluqları vermişdir. Havada, torpaqda, suda və suda-quruda (amfibilər) yaşayan heyvan, həşərat və quşlarla bərabər soyuqda və istidə, suda və quruda yaşayan bitki aləmini də yaratmışdır.

Allah-təala bütün bunlarla yanaşı ən gözəl, səfalı iqlimi, zərif bitksi və gözəl heyvanları, saf və şirin sulu çayları olan bir aləm də yaratmışdır ki, bu adı Quranda çəkilən Cənnətdir. (Bax, Quran, "Tur" surəsi 20-27).

Allah-təala Yer torpağından insan fiquru düzəlmiş. Sonra ona öz Ruhundan verərək canlandırmış və adını (Ədim-yer torpağı) Adəm deyərək Cənnətə qoymuşdur.

Adəmin Cənnətdə təklikdən darıxdığını görən Allah, onun qabırğasından birini çıxarıb və (Həyy-oyaq) Həvva deyərək ona zövcə yaratmışdır. (Bax, "Peyqəmbərə 40 sual," Bakı-1993, səh. 40).

Adəm və Həvva ilk xoşbəxt insanlar idi ki, Cənnətdə məkan tapmışlar. Onların yedikləri qida və içdikləri "Səlsəbil çeşməsi"nin suyu, bədənlərində nura çevrilirdi ki, bütün bunlara şükr edirdilər.

Dini kitabların yazdığına görə Allah-təala insandan əvvəl Ona itaət edən məxluqatı mələklərlə cinləri də yaratmışdır. Kainatdakı bütün canlılar Allaha ehtiram olaraq səcdə edirlər. (Bax, Quran, 13, 16, 17, 19, 22, 25, 27, 32, 38, 41, 53, 84 və 96-cı surələrdə səcdə ayələri vardır).

Cənnətdəki müxtəlif nəbatət növləri ilə bərabər Quranda adı çəkilməyən "qadağan olunmuş meyvə" də var idi ki, Allah-təala Adəmə həmin meyvədən yeyilməsini qadağan etmişdir.

Allah, Cənnətdəki mələklərə, cınlərə və digər canlılara əmr edir ki, Adəmlə Həvvaya səcdə etsinlər. Bütün məxluqat Allahın əmrinə tabe olsa da mələk İblis, təkkəbbür edərək Adəmlə Həvvanın qarşısında əyilmir. İblis vücudunun tüstüsüz oddan olduğu və Adəmlə Həvvanın isə qara torpaqdan yarandığına inad göstərərək, Allahın əmrini pozur. (Quran).

Daha sonra isə fürsət taparaq Həvvanın qəlbinə girib onu yoldan çıxarır. Adəm, Həvvanın sözü ilə qadağan olunmuş meyvədən yeyərək, Allahın əmrini pozur. Tezliklə onların üstündəki Cənnət paltarları tökülərək ayıb yerləri görünür. Onlar bir-birlərinə baxaraq şəhvətin gücündən damarlarındakı qan istinir və üzlərindəki həya (ismət) pərdəsi aradan götürülür...

Adəmlə Həvva çılpaq bədənlərini Cənnət bitkilərinin yarpaqları ilə örtərək, Allah qarşısında səcdəyə düşüb və günahlarının bağışlanmasını istəyirlər. Allah-təala onların hər ikisini mələklər vasitəsi ilə Yer üzərinə qovdurur. Adəm indiki Seylon (Sərəndib) adasına, Həvva isə Ərəbistan yarımadasındakı indiki Ciddə ərazilərinə düşür. Adəm elədiyi günahına görə, Həvva isə təklikdən darıxdığına görə Allaha yalvarır. (Bax, A.Ə.Axundzadə "Müqəddəs peyqəmbərlər tarixi", Bakı-1993, səh. 16).

Mehriban və bağışlayan Allah, onların tövbələrini qəbul edərək hər ikisini bağışlayıb və bir-birlərinə qovuşdurur. (Bax, Quran "Tövbə" surəsi, ayə 9).

Allah-təala mələk İblisi də Cənnətdən Yerə qovaraq və qiyamətdə Cəhənnəmə sürklənəcəyini bildirir... (Bax,"Peyqəmbərə 40 sual", Bakı-1993, səh. 23).

Yer üzərində Allahın qanunlarına əməl etmək üçün bəşər cəmiyyətində 124 min sayda peyqəmbərlər seçilmişdir. Onların əvvəlincisi Həzrət Adəm (ə), sonuncusu isə Həzrət Məhəmməd (s.ə.s.) olmuş. Ona salam və həmd olsun! Amin!

**"Məhəmməd aranızdakı kişilərdən heç birinin atası deyildir. Lakin o, Allahın Rəsulu və peyqəmbərlərin sonuncusudur. Allah hər şeyi biləndir!"**

> *"Həqiqətən, Allah və Onun mələkləri Pryqəmbərə salavat göndərirlər. Ey iman gətirənlər! Siz də ona salavat göndərib layiqincə salamlayın!"*
>
> (Quran)

Adəmlə Həvvadan Allahın istəyi ilə uşaqlar törənərək, onlardan da bəşər övladı artıb çoxalır. İnsanlar ilk vaxtlarda təbiətdə çətinliklərlə qarşılaşır. Yerdə, suda və havadakı nəhəng heyvanlar onları məhv eləyir. (Bu belə də olmalı idi, çünki 7 nəsil törəmələr eyni ananın uşaqları olmuşlar).

Allah-təalanın əmri ilə mələklər, yer üzərindəki insanlara kömək məqsədi ilə nəhəng canlıları (donozavr, ixtiozavr və s.) məhv eləyirlər. Bundan sonra insanlar artıb-coxalır və yer üzərində yaşayırlar. Lakin yerdəki mələk İblis (Dəccal) bəşər övladını düz yolundan azdırmağa başlayır.

*"Əuzu billahi minəş şəytanir rəcim!"*

Allaha sığınaraq Şeytanın şərrindən uzaq olaq! Amin!

Şeytan, hər an çalışır ki, insanları düz yoldan çıxarsın. Lakin mələk İblis etiqadlı möminlərə yaxın düşə bilmir. Belə ki, Həzrət Adəm (ə) peyqəmbər övladlarına demişdir ki, Allaha itaət etmək Ona şükr-səna etməklə yaxşı əməl sahibi kimi savab işləri də görmək lazımdır.

Lakin Həzrət Adəm (ə) peyqəmbərdən sonra insanlar yolunu azdılar. Həmin azğın tayfalara isə zaman-zaman peyqəmbərlər göndərilmişdir...

Allah-təala insanlara düz yola gəlmək üçün seçilmiş peyqəmbərlərə müqəddəs kitabla bərabər İslam təlimlərini də göndərmişdir. (Bəşər tarixində Allahdan insanlara dörd sayda müqəddəs kitablar gəlmişdir. Onlar, "Tövrat" Hz.Musa(ə)-a, "Zəbur" Hz. Davud (ə)-

a, “İncil” Hz.İsa (ə)-a və “Quran” isə Hz.Məhəmməd(s.ə.s.)-a verilmişdir).(Bax, “Peyqəmbərə 40 sual”, Bakı-1993, səh.36).

Həmin kitablarda Allah-təala yoluny azmiş insanlara tövbə “qapılarını” açaraq, Şeytanın hiyləsindən uzaq olmağı bildirmiş. Qiyam-qiyamət günündə ölmüş insanların dirilməsi, dünyadakı əməllərinə görə insanların əbədi Cənnnət və ya Cəhənnəmə getmələri vəd edilmişdir.

İnsanlar zaman-zaman azğınlaşmış, peyqəmbərlərə verilən müqəddəs kitablara əməl etməmiş və Qurandan başqa digər səmavi kitablar da qeybə çəkilmişdir. Müqəddəs Quran kitabı isə əvvəlki kitabları təsdiqləyərək, qiyamətə kimi insanlar arasında qalacaqdır.

FƏSİL 4

# İkinci bölmə

Allah-təala insanı gözəl və mürəkkəb quruluşda bir varlıq kimi yaratmışdır. Belə ki, insan bədəni sanki canlı bir "cihaz" kimi olub, bədəndəki icraedici "mexanizmlər" baş beyindəki Ruha öz "siqnallarını" ötürürlər.

İnsan beyni üç hissədən olaraq sağ və sol yarım kürəciklər və düz (onurğa) beynlərindən ibarətdir. İnsan beyni digər canlıların beynindən həcm və çəki etibarı ilə fərqlənir.

İnsan Ruhu kəllə sümüyünün arxa hissəsindəki ənsə adlanan qaranlıq yerdə ağ rəngli noxuda bənzər formadadır. Oradakı Şüur və yaddaşa əzalardan gələn "xəbərlər" nazik limfa vəzləri ilə ötürülür. Ruh digər canlılarda olsa belə onlarda Şüur və yaddaş vəzləri olmadığından, heyvanlar yalnız şərti refleks (instik) yolu ilə bədən üzvlərini hərəkətə gətirirlər.

Onurğa beyin insana bədənindəki sümüklərin müvazinatını tarazlayaraq hərəkətə gətirir.

Baş beyin qırışlardan və üzərində milyonlarla nöqtələrdən ibarətdir. Həmin nöqtələr Ruhun icra edici "mexanizmləri"dir. Nöqtələrin əksəriyyəti fəaliyyətsiz qalaraq "işləmir"lər.

Normal və yetkin insanlarda beyin yarımkürələrinin üçdə bir hissəsi işləsə də, qalan hissələri fəaliyyətsiz olur. Əgər təsadüf nəticəsində (qəza zamanı) beyin nahiyyəsinə güclü zərbə dəyərsə, işləyən nöqtələr fəaliyyətini dayandıraraq, insan yaddaşdan məhrum olur. Bəzən də hənin işləməyən nöqtələr fəaliyyətə başlayaraq, insanda qeyri-normal "möcüzəvi" fizioloji proses yaranır. (İnsanın bədənini əhatə edən dərisində də bu cür "möcüzəvi" nöqtələr vardır ki, qədim Şərq təbabətində müxtəlif xəstəlikləri dəriyə iynə batırmaqla sağaldırlar).

Allah-təala normal insan ömrünü 300-500 il etmiş. Belə ki, həmin zaman ərzində beyindəki fəaliyyətsiz nöqtələr də işləməlidir. Lakin düzgün qidalanma və gigiyenik qaydalara əməl edilmədikdə, ətraf mühitin zərərli təsiri, saglamlığın qorunmaması və spirtlı-narkotiklərdən istifadə etdikdə insan, vaxtından əvvəl "qocalaraq" gücdən düşür.

Elə buna gorə də Allah-təala insanların sağlamlığı üçün, gündəlik beş vaxt namazla bir ay müddətində orucu (pəhrizi) vacib bilmişdir.

İnsanlar qidalanarkən bəzən uzun müddət ət məhsullarından istifadə etdikdə vaxtından əvvəl dişləri tökülür, tüklər codlaşır, ağarır, gözlər zəifləyir, yaddaş pozulur və s. mənfi hallar yaranır. Hətta insan uzun müddət eyni heyvan ətindən qidalandıqda fizioloji dəyişikliklərə uğrayaraq qəddarlaşır, bədbinləşir və heyvani xasiyyətə düçar olur. (İnsanlar qidalanarkən yağlardan da düzgün istifadə etmədikdə həmin mənfi amilər özünü biruza verir). Təcrübə göstərir ki, insanlar uzun müddət sağlam və cavan qalmaq üçün Allah-təalanın İslam təlimlərinə əməl etməli, bitki və ağartı məhsullarından daha çox istifadə etməlidir. Tərkibində onlarca vitaminlər olan arı balı insan orqanizmini möhkəmlədirən qidadır.

İnsan taleyin hökmünə qarşı çıxca bilməsə də, belə bir ata sözünü də unutmamalıdır; -“İnsan yüz il yaşamasa, günah onun özündədir”.

FƏSİL 3

# Üçüncü bölmə

İnsan həyatda daimi qalmır, bu dünya onun əməl dünyasıdır. İnsanlar əbədi yaşayışa axirət dünyasından sonra başlayacaqlar. (Bax, Quran, "Vaqiə"surəsi, ayə1-6). Axirət dünyası daimi ölməzlik dünyasıdır. Ölməzlik əbədiyyat dünyası da Cənnət (Behişt) və Cəhənnəmdən ibarətdir.

İnsan öləndə Ruhu bədənindən çıxarılaraq cəsədi qalır. Ruhlar kainatdakı Bərzəx deyilən bir yerdə saxlanılar. Ruh daimidir, əbədi və Allahın ixtiyarındadır. (Alah tərəfindən insanlara verilmiş Ruh, mələk, yırtıcı heyvan və şeytan xasiyyətlidir).

Həyatda müxtəlif ölümlər baş verir. İnsan çağa ikən öləndə, ruhu Cənətə gedər. İnsandan fərqli olan heyvanların da ruhları qiyamətədək Yerin dərin quyusunda saxlanılar. Uşaq doğulanda ana bətnində ikən Ruh, Allah tərəfindən iki qoryucu mələk vasitəsi ilə verilər. Doğulmuş uşaqlar böyüdükcə ata-ana və bəzi hallarda isə baba-nənə xasiyyətli olarlar. (Bax, Q.İ. Mendel (1822-1884) "İrsiyyət qanunları", (Bitki hibridləri üzərində təcrübələr), (rusca) Moskva-1965).

Oğlanlar 9 və qızlar isə 7 yaşından sonra Allahı dərk etməli və İslam təlimlərini öyrənməlidir. Qiyam-qiyamətdən sonra hər kəsin ruhları torpağa çevrilmiş sümüklərinə veriləcək və ölülər yenidən diriləcəklər. Onların dünyadakı əməlləri əllərinə verilib, Mizan-tərəzidəki sorğu-sualdan sonra Sirat körpüsündən keçərək və Allahın vəd etdiyi Cənnətlə-Cəhhənnəmə gedəcəklər. Dünyadakı yaxşı əməl sahibləri Cənnətə dəvət olunacaq, pis əməl sahibləri isə Cəhənnəmə sürüklənəcəklər.

> *"Həqiqətən, ölüləri dürüldən, onların nə etmiş olduqlarını və qoyub getdiklərini yazan Bizik. Biz hər şeyi hesaba alıb lövhi-məhfuzda təsbit etmişik".*
>
> (Quran)

FƏSİL 3

# Dördüncü bölmə

Bir çox materialist alimlər kainatın və canlı aləmin öz-özünə yarandığını subut etməyə çalışaraq, Allahın varlığını inkar etməyə cəhd ediblər. Lakin belə insanlar can verərkən Allahdan bağışlanmalarını istərlər. (Materialist alimlərdən Darvin, Linney, Lamark, Laplas, Cins, Şmidit, Vavilov, Lıssenko, Pavlov, Lomonosov və başqaları ölməzdən əvvəl tövbə edərək, Allahın varlığına və qüdrətinə inam gətirmişlər).

Yer üzərində həmişə Allah-təalanın mözüzələri olmuş və indi də olur. Onlardan biri də Həzrət Nuh (ə) peyqəmbərin zamanındakı "Dünya tufanı"dır. Həmin hadisəni müasir geologiya elmi də təsdiqləyir.

Azərbaycanlı materialist alimlərdən R.H.Sultanovun elmi əsərindən biri də Nuhun tufanı haqqındadır. (Bax, R.H.Sultanov "Nuhun tufanı haqqında həqiqət", Bakı-1971).

Müəllif kitabında göstərir ki, həmin hadisə tarixdə real olmamış. Adi təbiət hadisəsi kimi dəniz və okeanlardakı "Sunami" tipli zəlzələ nəticəsində qurunun bir hissəsi su altında qalmışdır.

Maraqlıdır ki, həmin tarixi hadisə Həzrət Nuh (ə)-ın dövründə, Ərəbistan yarımadasının şimal-qərbində baş vermişdir. Müəllif isə kitabındakı hadisənin İran körfəzində, Mesopatomiya çökəyində baş vrdiyini iddia edir. (Müqəddəs kitabların bildirdiyinə görə həmin hadisənin baş verməsi səbəbi, Hz. Nuh (ə) peyqəmbərin dövründə azğınlaşmış insanların Allahın təlimlərindən üz çevirmələri nəticəsindən yaranmışdır).

Allahdan peyqəmbərə vəhy gəlir ki, quruda böyük gəmi düzəltsin və möminlərlə bərabər bütün canlılardan da gəmiyə mindirsinki, böyük bəla gələcəkdir...

Peyqəmbər oğlanları və cinlərin yardımı ilə quruda Allahın dediyi sükansız və yelkənsiz böyük bir gəmi-qayıq düzəldir. Tezliklə bütün canlılardan cüt-cüt gəlib gəmiyə qalxırlar. Əvvəlcədən gəmiyə ehtiyat ərzaqla ot-əlaf və şirin su götürülərək, peyqəmbərin ailəsi də gəmiyə minir. Bundan sonra Allahın hökmü ilə göy üzünə qalın buludlar gəlir. Yerdən su qalxır, leysan yağmuru olduğundan gəmi-qayıq suyun üzünə qalxır. Sonra yağışlar kəsilir, göy üzü dumandan təmizlənir və gəmi, şimal-şərq istiqamətində 6 ay üzməli olur.

Möcüzəvi şəkildə yer üzünü bürüyən su çəkilməyə başlayır və Həzrət Nuh(ə)-ın gəmisi Cudi dağında dayanır... (Bax, Quran "Hud" surəsi, ayə 44). (Quranda adı çəkilən Cudi adlı

dağ, Türküyə ilə İraq arasında 2100 m. yüksəklikdə də vardır).

Maraqlıdır ki, Naxçıvan ərazilərində Həzrət Nuh (ə) peyqəmbərlə bağlı olan coğrafi toponimlər yaranmışdır. Onlardan qədim Nəx (Naxçıvan) şəhəri, Gəmiqaya, Nuh dabanı, Nuh əcir, Nu(h) vədi, Peyqəmbər ayağı və başqalarını göstərmək olar.

Bundan başqa Naxçıvan şəhərinin cənub ərazisindəki köhnə qəbiristanlıqda Həzrət Nun (ə)-ın səkkizguşəli məzarüstü sərdabəsi də olmuşdur ki, 50-ci illərdə ateist rəhbərlər tərəfindən buldozerlə sökdürülmüşdür. Həmin məzarüstü türbəni keçən əsrin 20-ci illərində naturadan Naxçıvanlı realist rəssam Bəhruz Şirəlibəy oğlu (1892-1922) iki dəfə çəkmişdir.

Həzrət Nuh (ə)-ın gəmisi dağda dayanandan sonra gəmidəkilər torpağa düşərək, Allaha səcdə və şükürlər edirlər. Heyvanlar ətrafa dağılışaraq, ərazilərdə məskunlaşır və zaman keçdikcə insanlar da artıb-çoxalırlar...

Naxşıvandakı Duzdağ mədənindəki mağarada duz qatları arasından tapılan müxtəlif okean heyvanlarının daşlaşmış qalıqları bir daha sübut edir ki, Dünya tufanı olmuş və dağlar da su altında qalmışdır. Bu hadisə eramızdan çox-çox əvvəl olduğundan ərazilərdəki coğrafi adlar da dəfələrlə dəyişdirilmişdir. 950 il ömr yaşayan Həzrət Nuh (ə) peyqəmbərin ruhuna Allah rəhmət etsin! Amin!

FƏSİL 7

# Tarixi müqəddimə

Nuh yurdu-Naxçıvan ölkəsi qədim insanların yaşadıqları ərazilərdən biridir. Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan bölməsinin alimləri ərazilərdə qazıntılar aparmış və tapılan qədim əşyalara görə sübut etmişlər ki, Naxçınanda qədim dövrlərdə mədəni yaşayış olmuşdur. Belə ki, Kültəpə kurqanlarından enolit və tunc dövrlərinə aid çoxlu maddi-mədəniyyət abidələri, neolit dövrlərinə aid isə bir sıra maraqlı tapıntılar əldə olunmuşdur.

Naxçıvan təkcə Azərbaycan və Qafqazda deyil, həmçinən dünyanın ən qədim şəhərlərindən biri olmuşdur. (Bax, S.Babayev "Qədim diyarın təbiəti", Bakı-1970). Qədim yunan, ərəb, iran və türk tarixçi-səyyahları şəhərin əsasının qoyulmasını bizim eradan əvvəl II minilliyə aid edirlər. Diyarın qədim şəhərlərindən biri də Rəqimlə Tərsus olmuşdur. (Bax, Quran, "Kəhf" surəsi, ayə 19-21). (Həmin şəhərlər Araz çayının sol sahilindəki "Qızılburun" dəmir yolu dayanacağı yaxınlığındakı qədim "Ölən şəhər"lə, Naxçıvan çayının sol sahilindəki Kültəpə kəndi yaxınlığındakı qədim "Ocaqtəpə" adlanan xaraba qalmış yerlərdir).

Ərazinin bütpərəst və zalim hökmdarı Diqyanus Qay Vallerianın (Dağyunusun) yaxın adamları (coban sadiq iti ilə birlikdə), Allaha pənah apararaq Culus dağındakı mağarada 309 il yatıb durduqdan sonra orada da qeyb olmuşlar. (Bax, Quran, "Kəhf" surəsi, ayə14).

Tarixi məlumata görə Naxçıvan şəhəri Həzrət Nuh (ə) peyqəmbərin dövründə Naxçıvan çayının sağ sahılində, indiki Qoçüstü məhəlləsindəki "Yeni Naxçıvan" yaşayış sahəsində salınmışdır.

Bizim eranın I əsrində həmin ölkə tərəqqi edir. Yunanlar əraziyə gəldikdən sonra bu torpaqlara Vospurkan (Müqəddəs məkan) adını vermişlər. (Bax, S.Babayev "Qədim diyarın təbiəti", Bakı-1970, səh. 4).

Eranın II minilliyində ərazidə yadellilərə qarşı istehkam tipli qalalar da tikilir. Onlardan Oğlanqala, Duzqala, Qızılvəngqala, I və II Kültəpə və s. dövrümüzədək xarabalıqları qalmış.

Naxçıvan toponiminin maraqlı mənşəyi vardır. Naxçıvanda çıxan qəzetlərdən birində Həzrət Nuh (ə) peyqəmbərin Naxçıvanda yaşaması barəsində qədim şifahi ədəbi folklor

nümunəsindən söz salınmışdır. Həmin bayatı bu sözlərlə başlayır;

*“Bu yurda azan ağlar,*

*Dərd-qəmi yazan ağlar.*

*Burda Nuhum ölübdür,*

Qəbrini qazan ağlar”. (Bax, “Nuh yurdy” qəzeti, 1996-cı il, №1).

(Qətiyyətlə demək olar ki, ərazilərin coğrafi adlarının mənşəyi Həzrət Nuh (ə) peyqəmbərlə bağlı olaraq, onun və ailsinin burada Naxçıvanda yaşaması ehtimalı vardır).

Tarix boyu bu ərazilərdə gedən müharibələr nəticəsində, yadelli işğalçılar bir çox mədəniyyət abidələrini də uçurub dağıtmışlar. Buna görə də Peyqəmbərin məskənləşdiyi tarixi abidələr insanların yaddaşından silinmişdir. Tiflisdə saxlanılan bir tarixi sənəddə şərqşünas V.Qriqoryev bildirir ki, Naxçıvanda Həzrət Noy (Nuh) peyqəmbərin qəbiri şəhərin cənubundakı qəbiristanlıqda, arvadı Namanın (Əminənin) ki, isə şəhərin şimal-qərb hissəsində köhnə qəbiristanlıq ərazisindədir.

XX əsrin əvvəllərində Naxçıvanda olmuş tarixçi və etnoqrqf K.Nikitin yazıb göstərmişdir ki, Həzrət Nuh (ə) peyqənbərin qəbiri Naxçıvandakı “köhnə qala” Yezdabad adlanan ərazidədir. Maraqlıdır ki həmin ərazidə orta əsr tikilisi (imamzada) ilə yanaşı soğana bənzər formalı bir türbə də vardır. Son illərdə türbədə təmir-bərpa işləri aparılmış və binadan “yaşıl aptek” kimi istifadə olunur.

Dünya tufanından sonar Hz. Nuh (ə)-ın gəmisində gələn insanlar dünyanın müxtəlif yerlərinə dağılışırlar.

Zaman dəyişir peyqəmbər törəmələri cənuba doğru indiki Mesopatomiya ərazilərinə də gedirlər. Onlar ərazidəki Fərat və Dəclə caylarının sahillərindəki münbit torpaqlarda məskunlaşırlar. Orada pryqəmbərin oğlu Xam (Ham) nəslindən olan Kənanın boyük oğlu Nəmrud, ərazinin hakimi kimi dindən azır. O, uca bir qüllə tikdirir ki, dünyanı su basanda ora çıxıb xilas olsun. Lakin tezliklə Allahın hokumü ilə qüllə ucur və bütpərəst hökmdar da əzabla ölür. Sonra isə eyni dildə danışan insanlar bir-birlərini anlamayaraq, müxtəlif ərazilərə dağılışırlar. Həzrət Nuh (ə) peyqəmbərin İslam dini unudularaq, müxtəlif uydurma dinlər yaranır. (Bax, “Bibliya” (rusca), 11:1-9, Stokholm-1990, A.Axundzadə “Müqəddəs peyqəmbərlər tarixi”, Bakı-1993, səh.16).

Cəmiyyət arasındakı insanlar, Şeytanın vəsvəsəsinə uyub və torpaqlar üstündə qanlı müharibələr törədrlər.

Qafqazdakı millətlərdən biri də, türkdilli oğuzlar olublar ki, onlar oda, günəşə, ulduzlara, və heyvanla bitkilərə sitayiş etmişlər. Tezliklə atəşpərəstlik dini ərazilərdə güclənərək, Zərdüşt "peyqəmbərin" "Avesta" təlimləri insanlara təbliğ olunur.

(Nuh-yurdu Naxçıvan ölkəsində yaşayan atəşpərəstlər, qədim Şumer tayfalarının şifahi ədəbi dastanı "Bilqamış"ın igidliyindən, Həzrət Nuh (ə) peyqəmbərin gəmisinin Cudi (Gəmiqaya) dağında dayanmasından danışırlar).

Ordubad rayonunun Tivi kəndi yaxınlığında Qapıcıq dağına (3917m.) el arasında Gəmiqaya da deyirlər. Oradakı qaya rəsmləri bir daha sübut edir ki, Nuh-yurdu Naxçıvan, qədim insanların yaşayış məskənləri olmuş.

III əsrin ortalarında Naxçıvan ərazilərini Sasani şahı I Şapur Ərdəşir oğlu (239-272) ələ keçirərək, tarixi memarlıq abidələrini də uçurdub dağıdır.

IV əsrdə Nuh yurdu Naxçıvan ölkəsi tərəqqi edərək inkif edir. Naxçıvan şəhərindəki zərbxanada üzərində "Nəx" yazıları olan gümüş sikkələr kəsdirilir. (Sonrakı illərdə Naxçıvanda Ərəblər tərəfindən də gümüş sikkələr kəsmişlər).

VII-VIII əsrlərdə Naxçıvan ölkəsində Ərəblər tərəfindən gətirilmiş İslam dini geniş yayılır. Lakin yerli adamlar gizlində əvvəlki kimi atəşpərəstliklə də məşğul olurlar.

Naxşıvana İslam dini gələnədək yüzlərcə atəşpərəstlik məbədləri və bütpərəstlik ziyarətgahları olmuşdur. Onların bir qismini Roma sərkərdəsi İsgəndər Zülqərneynin (356-323) qoşunları və qalanlarını isə 654-cü ildə Ərəb xilafətinin əsgərləri tərəfindən uçurulub dağıdılmışdır. (Bax, Quran, "Kəhf" surəsi, ayə 91-98 və Plutarx, "İsgəndər Zülqərneyn", Bakı-1993).

Hər yerdə olduğu kimi Nuh yurdu Naxçıvanda da Ərəblər İslam bayrağı altında millətə haqsızlıqlar etmişlər. Belə ki, 705-ci ildə ərəb sərkərdəsi Əmir Qasim tərəfindən Naxçıvan şəhərindən yüzlərcə adam diri-diri qala divarına hördürərək məhv edilmiş. (Bax, S.Babayev, "Qədim diyarın təbiəti", Bakı-1970, səh.5).

Ərəb xilafəti Həzrət Məhəmməd ibn Abdullah (571-632) (s.ə.s.) peyqəmbərin də varislərinə divanlar tutmuş. Buna misal olaraq Kərbibəla düzündəki İmam Hüseynlə qardaşı Abbasın qəddarlıqla öldürülməsini göstərmək olar. Xilafətin haqsızlıqlarından Azərbaycana pənah aparan peyqəmbər övladları səyyidlər, Nuh yurdu Naxçıvanı

özlərinə ikinci vətən seçmişlər. (Səyyidlər tarixi faktlara əsasən İrandan fərqli olaraq Naxçıvanda çox hörmətlə yaşamış və indi də yaşayırlar).

IX əsrdə Nuh yurdu Naxçıvanda Ərəb sərkərdələri xalqa haqsızlıqlar etdiyindən Xürrəmi Babək Abdulla oğlunun (798-838) başçılığı ilə xalq üsyanları baş verir. 10 il Azərbaycanın müstəqilliyini qorub saxlayan Babəki, erməni Səhl Sumbatın xainliyi ilə ələ keçirib və xilafəin hökmü ilə öldürürlər.

X əsrdə Nuh yurdu Naxçıvanda əmin-amanlıq dövrü başlayaraq, xalq İslam dinini qəbul edir. Naxçınan şəhəri ticarət yolları üstündə olduğundan Yaxın Şərqdə məhşurlaşaraq, Avropa ilə Asiya arasındakı "İpək yolu"na çevrilir. (Avropalı tacirlər Çinlə Hindistana getmək üçün Naxçıvandan keçməli olurlar)...

XI əsrdə Naxçıvan ərazilərini Səlcuq türkləri tuturlar. Onlar Naxçıvan şəhərini Türk sultanı Alp Arslanın (1029-1072) iqamətgahına çevirirlər. (Ərazilərdəki müsəlman olmayanlara ağır dini vergilər tətbiq olunur).

XII əsrdə Nuh yurdu Naxçıvanı İraq-Səlcuq hakimləri ələ kecirərək, tezliklə Azərbaycan atabəyləri (Eldəgizlər (1136-1225) tərəfindən idarə olunur. Həmin dövrlərdə Naxçıvan şəhəri paytaxt olaraq, İslam dini inkişaf etdirilir. Şəhərdə məscid və türbələr, zorxana və buzxanalar tikilir, kəhrizlər qazılır, çaylar üzərindən körpülər salınır, karvan yolları təminatlandırılır və s.

Naxçıvanda memarlıq sənəti inkişaf etdirilir. Naxçıvanlı memar Əcəmi Əbubəkr oğlu (1220-1292), 1162-ci ildə Yusif ibn Kuseyirin məzarı üzərində və 1186-cı ildə isə Atabəy Məhəmməd Cahan Pəhləvanın (1175-1186) arvadı Möminə Xatunun qəbiri üzərində möhtəşəm məqbərələr tikir. Hər iki tarixi abidə dövrümüzədək əzəmətini itirməmişdir.

Naxçıvan çəhəri şimal-qərb istiqamətində böyüməyə başlayır. Həmin illərdə Naxçıvan çayından çəhərə su arxı çəkirlər. (Sudan şəhərin məhəllələrinə də arxlar çəkilir ki, onlardan ən uzunu Şahab (Söyüdlü) su arxı olmuşdur). Şəhər ətafı əkinləri suvarmaq üçün kəhrizlər də qazılır. Kəhrizləri şəhərdəki mömin şəxslər öz vəsaiti hesabına tikdirmişlər.

XIII əsrdə Nuh yurdu adlanan Naxçıvan çuxuru tərəqqi etdiyi bir vaxtda Xarəzmşahı Cəlaləddin Məhəmməd oğlu (1151-1220) tərəfindən tutulur. 1320-ci ildə Nuh yurdu Naxçıvan monqol Çingiz Teymurçinin (1167-1227) qoşunları tərəfindən dağıdılır.

XIV əsrin axırlarında isə Nuh yurdu Naxçıvanı Orta Asiya hakimi özbək Əmir Teymur (Tamerlan) (1336-1405) tərəfindən tutularaq yenidən dağıdılır. Naxçıvan xalqı həmin döyüşlərdə mərdliklə yadellilərə qarşı vuruşurlar. 1386-cı ildə Naxçıvan qalası teymurilərin daşatan mancanaqları ilə dağıdıldıqdan sonra, şəhər təslim olur. Əmir Teymur Naxçıvanın kişi sənətkarları ilə qız-gəlinlərini at döşündə Səmərqəndə aparır. İstər monqollar və istərsə də özbəklər Naxçıvandakı məscidlərdən başqa tarixi memarlıq abidələrini uçurub dağıdırlar.

Əmir Teymurun 40 minlik qoşunlarına qarşı mərdliklə vuruşann Naxçıvan xalqı, (sərkərdə Altunbəyin başçılığı ilə) Əlincə qalasını əllərində saxlayaraq düşmənə təslim etmirlər. Belə vuruşmalar Oğlanqala ilə Çalxanqalada da olmuşdur. Lakin hər iki qala gərgin döyüşlərdə düşmən əlinə keçərək dağıdılmışdır.

(Əmir Teymurun oğlu Miranşah bütün Azərbaycanı viran qoyduğu illərdə Naxçıvandakı Əlincə qalasını tuta bilmir. 10 il qala təslim olmasa da daxili çəkişmələr nəticəsində, igid sərkərdə Əhməd Oğulşay ələ verilir)

XV əsrdə Nuh yurdu Naxçıvan əraziləri Qaraqoyunlu və Ağqoyunlu kürd feodallarının əlinə keçir. 1380-cı ildə Qaraqoyunlu tayfaları güclənərək mövqelərini kenişlətmək istəyirlər. Həmin ildə Qara Məmməd Bayramxoca oğlu, öldükdən sonra onun yerinə oğlu Qara Yusif (hicri 809-823) keçir. 1389-cu ildə Qara Yusif öldükdən sonra hakimiyyətə oğlanları İsgəndərlə Cahanşah gəlir. (Sonra isə Cahanşahın oğlu Həsənəli hakim olur). 1410-cu ildən 1468-ci ilədək Nuh yurdu Naxçıvan əraziləri Qaraqoyunlu hakimiyyətinin ixtiyarında qalmışdır.

1467-ci ildə İraq Ağqoyunlu kürd tayfa başçısı Uzun Həsən Cahanğir oğlunun (Bayandurun) (1423-1478) dəstəsi ilə Qaraqoyunluıar arasında savaş olur. Muş yaxınlığındakı savaşlarda əsir düşmüş Cahanşahla oğlu Məhəmməd Mirzəni Uzun Həsən öldürərək, Ağqoyunlu hakimiyyətini ələ keçirir. (1468-ci ildən 1501-ci ilədək Nuh yurdu Naxçıvan Ağqoyunlu hakimiyyətinə tabe etdirilmiş).

Uzun Həsənin hakimiyyəti dövründə Avropa və Yaxın Şərq ölkələri ilə diplomatik əlaqələr də yaradılır. Bütün bu əlaqələrin yaradılmasında Uzun Həsənin cavan-göyçək anası Sara Xatunun rolu olmuşdur. (Həmin illərdə Avropadakı ölkələrdən Naxçıvana səyyah-tacirlər də gəlirlər).

Uzun Həsənin hakimiyyətinə yalnız Osmanlı türk sultanı II Fateh Mehmet Osman (1432-1481) rəqib sayılırdı. (Uzun Həsənin üçüncü arvadı Feodora (Dəspinəxatun) Trabzon imperatoru IV İohan Komenokosun kiçik qızı olmuşdur. Uzun Həsən arvadı Feodoradan

olan qızı Martanı (Aləmşahbəyimi) Ərdəbil valisi Şeyx Heydərə ərə verir. Şeyx Heydərin arvadı Martadan doğulan oğlu sonrakı illərdə Səfəvi hökmdarı I İsmayıl hakimiyyəti ələ keçirəcək).

1478-ci (hicri 882) ildə Ağqoyunlu hakimiyyətini yıxmaq istəyən Sultanxəlil Həsən oğlunu, qardaşı Sultanyaqub öldürür. Sultanyaqub Həsən oğlu, Ərdəbil valisi Şeyx Heydərə müstəqillik yaradaraq müsəlmanlar arasında şiə təriqətini yayır. (Şiələrin risaləsində sünnələrdən fərqli olaraq, İslam dinində 12 imam (əhlibeyt) fəzilətləri əsas götürülmüşdür).

1488-ci ildə Şeyx Heydərin "qızılbaş" dəstəsi Şirvanda şiə təriqətini yaymaq istərkən öldürülür. Daha sonra isə Şirvanşah qoşun dəstəsi Ərdəbilə gedərək şeyxin yaxın adamlarını tutdurub və İstəxər qalasındakı zindana salır.

1492-ci ildə (hicri 896) ildə Sultanyaqub Naxçıvandan keçərək Qarabağa gedəndə yolda qəflətən ölür. Elə həmin vaxtda Uzun Həsənin varisi Baysunqar Sultanyaqub oğlu, hakimiyyəti ələ almaq istəyir. Lakin saray məmurları Baysunqarın qardaşı Məsihmirzəni hakim etmək istəyirlər.

1492-ci ildə Qarabağda Ağqoyunlu hakimiyyətinə qarşı qiyam qalxır. Hadisə yerinə gedən Baysunqarın qoşun dəstələri, orada qiyamçılarla bərabər Məsihmirzəni də öldürürlər. Uğurlu Məhəmmədin oğlu Mahmudbəy qorxaraq İraq ərazilərinə qaçır. Ələ keçən Maqsudbəyin oğlu Rüstəmmirzəni isə gətirib Əlincə qalasında zindana salırlar.

1493-cü ildə Əlincə qalasının valisi Seyyid Əli, qala gözətçisi Əhmədbəyin vasitəsi ilə Rüstəmmirzəni qaladan buraxdırır və Baysunqar Şirvana getdüyindən qəflətən Ağqoyunlu hakimiyyətini ələ keçirirlər. (Şirvanda Baysunqarı öldürürlər və Təbrizdə də Rüstəmmirzə, asanlıqla taxt-taca sahıb olur). Qarabağdakı qiyamçılara divan tutulanda fürsətdən istifadə edən Gödək Əhməd, Osmanlı imperiyasına qaçır və sultanın qızını alaraq qoşun dəstəsi ilə Naxçıvana gəlir.

1496-cı ildə başlanan savaşda Rüstəmmirzə öldürülərək hakimiyyətə Gödək Əhmədbəy keçir.

1497-ci ilin 13 dekabr tarixində Şirvan valisi Qasımbəylə Kirman valisi Əbyəsultanın müttəfiq qoşun dəstələri tərəfindən Gödək Əhmədbəy də öldürülür. Elə həmin ilin son günlərindən Ağqoyunlu hakimi Sultan Murad Sultanyaqub oğlu olur. (Bundan sonra isə Məhəmmədmirzə Yəzd şəhərinə, Muradbəy Bəyanduriyənin, və Əlvəndmirzə isə Diyarbəkrdəki Qasımbəyin yanına qaçırlar).

1498-ci ilin əvvəllərində Məhəmmədmirzə qoşun gətirərək Təbrizi ələ keçirir. Bunu görən Əlvəndmirzə də qoşun çəkib Məhəmmədmirzə ilə savaşa girir. Savaşda gücsüz görünən Məhəmmədmirzə hakimiyyəti buraxaraq gizlincə Sultaniyyə şəhərinə qaçır. Həmin ildən də Ağqoyunlu hakimi Əlvəndmirzə Təbrizdə taxta oturur. Saray əyanlarının arasındakı çəkişmələrə görə, Ağqoyunlu hakimiyyəti iki yerə parçalanır. Qızılüzən çayı sərhəd olmaqla Diyarbəkir, Kür çayı ətrafları, Qarabağla Naxçıvan torpaqlqrı Əlvəndmirzənin, İraq, İran və Kirman əraziləri isə Sultanmuradın ixtiyarında qalır. (Azərbaycan torpaq əraziləri uşaq oyuncağı kimi əldən-ələ ötürülür).

XIV əsrin ortaları və XV əsrin əvvəllərində Nuh yurdu Naxçıvan xalqı, yadelli işğalçıların zorakılığından və islam dinindəki təriqətlərdən usanaraq, sosial vəziyyət zəifləyir.

> *"Biz kafir olanlara mütləq şiddətli bir əzab daddıracaq, etdikləri əməllərin ən şiddətli cəzasını verəcəyik!"*
>
> **(Fusillət surəsi, 27)**

1499-cu ilin avqust ayında Uzun Həsənin qız nəvəsi İsmayıl, atası Şeyx Heydərin dostları tərəfindən Lahıcan qalasındakı ev dustağından azad olaraq, Ərdəbil şəhərinə aparılır. İsmayıl hələ uşaqlıq illərində ağ paltarda, ağ at üstündə özünü 12-ci imam Həzrət Mehdi (ə)-ma oxşadardı. (Fanatik İsmayılın məqsədi yalnız avam kütləni xürafat zəminində ondan qorxmasını istərdi).

Şah I İsmayıl Xətayi (1487-1524), 14 yaşında olanda atasının mürüdi Hüseyn Lələbəyin köməkliyi ilə Təbrizdə hakimiyyəti ələ keçirir.

XVI əsrdə Şah I ismayıl Xətayi, Uzun Həsənin nəvəsi Əlvəndmirzəni məğlub edərək, Azərbaycana hakim olur. Əsasən qılınc gücünə şiə təriqətini yayan Şah İsmayıl Nuh yurdu Naxçıvanı Azərbaycanın tərkibinə daxil edərək, paytaxtı Təbrizə köçürür. (Ondan əvvəl Azərbaycanın paytaxt şəhərləri Bərdə, Şamaxı və Beyləqan olmuş). Həmin illərdə Naxçıvanda mədəniyyətlə elm tərəqqi edərək, iqtisadiyyat inkişaf etdirilir. Məscidlərdəki İslam təlimləri 12 imam (əhlibeyt) əsasında qurularaq, Həzrət Məhəmməd (s.ə.s.) peyqəmbərin sələfləri tərifləlnir.

Şah I İsmayıl Xətayinin başçılğı ilə Azərbaycanın sərhəd hüdudları genişləndirilir. Belə ki, şimalda Dərbənd, cənubda Bağdad, şərqdə Tus və Mərv (Xorasan), qərbdə isə Sürəməli və Xoy şəhərləri səfəvilərə tabe etdirilir. Şah I İsmayıl hakimiyyəti dövründə elmə və sənətə qiymət vermiş və haqsızlığa qarşı amansız olmuşdur. Öz ata-baba

yurdlarını ataraq qaçıb Təbrizə gələn Sürəməli valisinə, şah ədalətli cəza verərək şəhərin darvaza qapısından asdırmışdır.

Şah I İsmayıl şəhərlərə valiləri özü seçib qoyanda, onları düşmənə qarşı birliyə və mübarizəyə həvəsləndirmiş. Lakin çox keçmir ki, Dərbənd, Bərdə, Şamaxı, Bağdad, Lənkəran və başqa valilər onu eşitməyərək bir-birləri arasında çəkişirlər.

Bütün bunlardn məharətlə istifadə edən Osmanlı türk sultanı ata qatil Sultan I Səlim Yavuz (1470-1520), 1514-cü (hicri 920) ilin 23 avqust tarixində Xoy şəhəri yaxınlığındakı Çaldıran düzündə, 200 min nəfərlik qoşun ilə qızılbaş səfəvilərə qarşı savaşa başlayır. (Tarixdə ilk dəfə olaraq sünnə və şiə təriqətli müsəlmanlar bir-biri ilə müharibə edirlər). Həmin savaşlarda I Sultan Səlim Avropadan qızıl pulla aldığı odlu silahların hesabına Şah İsmayıla qələbə çalır. Beləliklə, sünnə-şiə müsəlmanları arasındakı savaşlardan sonra Xoy, Maku, Mərənd, İrəvan, Naxçıvan, Culfa, Təbriz şəhərləri, Osmanlı türklərinin əlinə keçir. Ərzurumla Şimali Mesopatomiya əraziləri isə, Səfəvi hakimiyyətindən ayrı düşür. (Tüküyə ərazilərindən gələn ermənilər Naxçıvan və təbriz şəhərlərində şərab dükanları ilə meyxanələr açaraq, gənclərin əxlaqını pozurlar). Tarixi Çaldıran döyüşlərində Şirvan valisi Bürhanəlibəy, səfəvilərlə müttəfiq olsa da, türklərin tərəfini saxlamış. (1519-cu ildə Şirvana yürüş edən səfəvi qızılbaşları, şahın fərmanı ilə Bürhanbəyi tutub öldürürlər).

1516-cı ildə Osmanlı Türkləri ilə səfəvi dövləti arasında uzin müddətli barış əhdnaməsi bağlanılır. Bundan sonra Şah I İsmayıl ömrünün axırınadək xarici dövlətlərlə savaşa girmir.

Şah I İsmayıl xəttatları, şair və nəqqaşları, aşıq və münəccimləri sarayına dəvət edərək, onlara aylıq məvacib təyin edir. Ədəbi yaradıcılıqla məşğul olan İsmayıl özünə "xətayi" təxəllüsnü seçərək lirik səpkili şeirlər də yazmışdır.

Şah I İsmayıl Xətayi misralarında özünü belə vəsv etmişdir:

*"-Xətayiyəm, ağ atlıyam,*

*Sö şəkkərdən dadlıyam.*

*Mürtəza Əli zatlıyam,*

*Qazilər, deyin şah mənəm".*

Xətayinin yaradıcılığında qəzəl janrı əsas yer tutsa da, "Nəsihətnamə" ilə "Dəhnamə" əsərləri, klassik ədəbiyyatda özünəməxsus yer tutmuşdur. 1524-cü ildə şair və dövlət

başçısı Şah I İsmayıl Xətayi, 37 yaşında qəflətən vəfat etmiş.

1555-ci ilin 29 may tarixində Osmanlı türk sultanı I Süleyman Qanuni (1495-1566), Qarabağda olarkən Səfəvi şahı I Təhmasiblə (1513-1576) danışıqlar apararaq, (Amasiyada) barışıq əhdnaməsi bağlayır. Tarixi Amasiya müqaviləsinin şərtlərinə görə Çuxur Səəd (İrəvan), Göçə, Vedibasar və Uluxanlı əraziləri ) və Zəngəzurun Dərələyəz dağ silsiləsindən Araz çayınadək ərazilər, Naxçıvan bəylərbəyliyinə verilir. Həmin müqavilədən sonra Nuh yurdu Naxçıvan diyarı, səfəvi hakimiyyətində müstəqillik qazanır. (Türk sultanının fərmanı ilə, Naxçıvana gələn ermənilərə islam mənəviyyatına zidd olan işlərə qadağa qoyularaq,onlar yüksək vergilərə cəlb edilirlər) Tarixi Amasiya sazişindən sonra şah I Təhmasibin fərmanı ilə Səfəvi dövlətinin paytavtını Təbrizdən Qəzvinə köçürürlər.

Türk sultanı I Süleyman Qanuni ömrünün 10 il 3 ayını döyüş meydanlarında keçirsə də 45 il 11 ayını isə, məmləkətinin inkişafına sərf etmişdir. Sultanın bədii yaradıcılığı da olaraq "Mühibbi"təxəllüsü ilə şeirlər yazmışdır;

*"Xalq içində mötəbər bir mənsəb yox dövlət kimi,*

Olmaya dövlət cahanda bir nəfəs, səhhət kimi". (Bax, "100 böyük türk",Bakı-1991, səh.20). Həmin şeir əsnasında xalqımızın qədim folklor deyimi də vardır ki;-"Neynəyirəm altun camı ki, hər gün ora qan qusuram". (Səfəvi hakimləri, Nuh yurdu Naxçıvan diyarının idarə edilməsi hüquqlarını özlərinin ən güclü tərəfdarlarından olan Mərkəzi Asiyadan gəlmiş Kanqlı (arabaçı) tayfa başçısı Rizaəddinə tapşırmışlar)...

XVI əsrin ikinci yarısında Azərbaycan kəndliləri arasında natural təsərrüfat forması yaradılır. Həmin vaxtlarda səfəvi hakimi şah I Təhmasib, Şirvan bəylərbəyliyindən olan elçilərini Moskva knyazlığına göndərir ki, slavyan Rus gəmiləri Abeskun (Xəzər) dənizi ilə üzüb və ticarət əlaqələrini inkişaf etdirsinlər.

XVI əsrin 60-cı illərində Azərbaycana İngilis tacirləri də gələrək, ipək və qənovuz parçalara, o cümlədən də yer altından çıxan "yanar yağa" da maraq göstərmişlər. Həmin dövrlərdə Nuh yurdu Naxçıvan diyarının əhalisi sənətkarlıq və toxuculuqla da məşğul olurdu. Naxçıvan zərbxanasında üzərində səfəvi şahlarının təsviri olan mis və gümüş sikkələr kəsdirilmiş. Ticarətdə yerli sikkə pullarla yanaşı Qərbi Avropanın taleri, türk lirəsi, əfqan tanqası, hind rupisi, rus kopeykası, ərəb dirhəmi və başqa pul vahidləri də alış-verişdə işlədilirdi.

Azərbaycanda Səfəvilər dövründə Naxşıvanda memarlıq və quruculuq işləri inkişaf etdirilmiş. Belə ki, Əlincə çayı üzərində Xanəgah körpüsü, hamamlar, məscid və mədrsələr inşa edilmuşdur. Həmin dövrdə türk sufi qrafikalı əlifbada islahat aparılaraq, 32 hərfdən ibarət yeni əlifba yaradılmlş ə, i, e, ö, hərfləri də əlavə edilmişdir. (Həmin yazı əlfbası xalqımız tərəfindən 20-ci əsrin ortalarınadək işlədilmişdir).

> *"Yoxsa Biz iman gətirib yaxşı işlər görənləri yer üzündə fitnə-fəsad törədənlərlə eyni tutacağıq?! Yaxud Allahdan qorxub pis əməllərdən çəkinənləri günahkarla tay edəcəyik?!"*
>
> (Quran)

1576-cı ildə səfəvi hökmdarı I Təhmasibin ölümündən sonra, oğlanları II İsmayıl və Məhəmməd Xudabəndə hakimiyyətə gəlirlər. 1578-87-cu illərdə Səfəvi dövlətində hakimiyyət uğrunda çəkişmələr başlayır. 1578-ci ildə həmin özbaşınalıqları görən Osmanlı türk sultanı III Murad (1574-1595), Amasiya müqaviləsini pozaraq 100 min nəfərlik qoşunla əvvəl Gürcüstanı sonra isə Nuh yurdu Naxçıvanı tutur. (Həmin illərdə Naxçıvan hakimi Şərifxan Kəngərli idi).

1585-ci ildə Təbrizə gedən türk qoşunları Sofyan yaxınlığında səfəvilərlə vuruşmalı olurlar. Həmin döyüşlərdə səfəvilərdən 16 mindən artıq döyüşçü öldürülür. (Türklər bu savaşlarda səfəvilərə qalib çıxaraq, Azərbaycanın İrəvan, Naxçıvan, Təbriz, Gəncə, Şamaxı və Bakı şəhərlərini də ələ keçirirlər). Qəzvində səfəvi hakimiyyətində dəyişiklik olaraq, Məhəmməd Xudabəndənin oğlu I Abbas Mirzə (1579-1629) şahlıq tacını başına qoyur. Nuh yurdu Naxçıvan xalqı həmin illərdə çətinliklərlə qarşılaşır. Türklər əraziləri paşalıq idarəçiliyinə bölərək, əhalinin vergilərini iki qat artırırlar. Məscidlərdə şiə məzhəbli təriqət sünnə ilə əvəz olur.

Səfəvi hökmdarı şah I Abbas türklərlə danışıqlar aparmaq üçün vəziri Qasımbəyi, Sultan III Muradın sarayına göndərir. Lakin sultan vəziri qəbul etməyərək bildirir ki, şəhzadə Həmzənin oğlu Heydərmirzəni danışıqlara göndərsin. Nəhayət ki, 1590-ci ildə İstambulda İranla Osmanlı türküyəsi arasında barışıq əhdnaməsi yazılıb imzalanır. Həmin müqavilənin şərtlərinə görə Şirvan, Qarbağ, Naxçıvan, Çuxur Səəd, Təbriz, Sarab və Marağa əraziləri Osmanlı türküyəsinə və Xalxal, Ərdəbil, Qaraca dağ və Talış-Muğan əraziləri isə İran səfəvi şahlığına verilir.

1590-cı ildə səfəvi şahı I Abbas Gilana 12 min nəfərlik qoşunla gedərək, Əhmədxanın hərəmini, (doğma bibisini) arvad alır və məmləkətin paytaxtını da Qəzvindən İsfahana köçürür. (Şah I Abbas vəziri Hatəmbəy Ordubadinin məsləhəti ilə İranda maliyyə islahatları aparmış)...

1595-ci ildə türk sultanı III Murad öldükdən sonra hakimiyyətə oğlu III Mehmet keçir.

1603-cü ildə Osmanlı türkləri İranla bağladıqları sazişi pozaraq qəflətən savaşa başlayırlar. Həmin ildə iranlılar türkləri Təbriz şəhərindən qovub çıxarırlar. Bir ildən sonra isə Naxçıvan uğrundakı şavaşlarda Məqsudsultan Kəngərli iranlılarla əlbir olub və türkləri ərazilərdən çıxarır. Şah I Abbasın fərmanı ilə Nyh yurdu Naxçıvana Məqsudsultan Kəngərli hakim təyin olunur.

1604-cü ilin 8 iyun tarixində Naxçıvanla Təbriz şəhərinin könüllüləri İrəvan qalası uğrunda türklərlə savaşa girirlər. Tezliklə İrəvan şəhəri də türklərdən azad olaraq, Şah I Abbasın fərmanı ilə şahın qohumu Əmirgünəxan Qacar İrəvan şəhərinə hakim təyin olunur. (Bu xəbər Azərbaycanın hər yerinə çaparlar vasitəsi ilə yayıldığından, Bakıda türklərə qarşı üsyan edilərək və 1607-ci ildə Bakı şəhəri, sultanlıqdan azad olunur).

1612-ci llin 17 oktyabr tarixində Osmanlı türküyəsi ilə İran şahlığı arasında yenidən Sərab sülh əhdnaməsi imzalanır... Həmin müqavilənin şərtlərinə görə Göyçə gölü əraziləri, Dilican açırımı, Vedi-Gorus-Qafan (Mehri)-Zəngəzur əyalətləri, Qarabağın dağlıq hissəsi, Naxçıvan və Çuxur Səəd əraziləri İran şahlığına tabe etdirilmiş.

XVII əsrdə Nuh yurdu Naxçıvanın kəndli və sənətkarları çətinliklərlə qarşılaşırlar. Yerli feodallar və hakim dairələr verdiləri artıraraq xalqı soyub-talayır və yoxsullara da olmazın işdəncələr verilir. Xalq bütün bu işlərdən bezərək, ayrı-ayrı yerlərdə hakim dairələrə qarşı üsyana qalxır. Çuxur Səəd mahalından olan gənc pəhləvan Rövşən Alı oğlu, (Koroğlu) hakimlər tərəfindən kor edilmiş ilxıçı atasının qisasını almaq üçün, başına dəstə toplayaraq feodal hakimlərə qarşı mübarizə aparır...

XVII əsrdə Azərbaycana xarici ölkələrdən səyyah və tacirlər gəlir. (Bax, Y.Mahmudov “Səyyahlar Azərbaycana gəlir”, Bakı-1977).

Akademik M.Arif deymişdir ki;-“...qədimlərdə Azərbaycana kimlər gəlməmişlər..., parfilalılar, romalılar, sasanilər, ərəblər, səlcuqlar, monqollar, osmanlılar, kürdlər, səfəvilər, ruslar..., nə bilim kimlər, kimlər və daha sonra kimlər gələcəklər...” (Bax, N.Kərimov “Odlar yurdunun səyyah və coğrafiyaşünasları”, Bakı-1986, səh4). Onların

arasında səyyah Oleri, Kemfer, Sarden, Nikitin, Polo, Çələbi, Yəqubi və başqaları da olmuşdur.

Nuh yurdu Naxçıvana Qərbi Avropa ölkələrindən, Rusiya, Misir və Hindistan tacirləri gələrək, gətirdikləri mallarını ipək (qənovuz) parçalara, xalı və toxunmalara, xörək duzuna və başqa mallara mübadilə yolu ilə alış-veriş edirlər. Azərbaycana (Şəki və Naxçıvana) ipək qurdu toxumlarını Çinin Kaşqar ölkəsindən Venetsiyalı səyyah Marko Polo (1254-1324) bambuk əl ağacının içərisində gətirmiş. Səyyahlar Azərbaycandan ətirli Qazılıq qızılgül kolu ilə zərif yunlu "Balbas" qoyun cinsini də Apeninlərə aparmışlar...

XVII əsrin ikinci yarısından Naxçıvandan keçən tarixi "İpək yolu", artıq öz əvvəlki şöhrətini itirir. Buna səbəb ərazidə tez-tez baş verən türk-iran müharibələri, digər tərəfdən də çaylar üzərindəki körpülərdə torpaq haqqının artırılması olmuşdur. Bütün bunların nəticəsində tacirlər yollarını dəyişərək, uzaq dəniz səfərlərinə çıxırlar.

XVII əsrin sonu və XVIII əsrin əvvəllərində Nuh yurdu Naxçıvan xalqı çətinliklərlə qarşılaşır. Belə ki, iranlı məmurlar tərəfindən kəndli və sənətkarlardan vergi rüsumlarını iki dəfə artırırlar.

XVIII əsrin əvvəllərində Azərbaycanla Rus carı arasında ticarət əlaqələri yaradılmış.

1722-ci ildə Rus çarı I Pyotr (1672-1725) siyasət işlədərək, Azərbaycanda türkcə "Bəyannamə"ni xalq arasında yaymışdır. Rusların məkirli məqsədləri əsasən bütün Qafqazı, Kiçik Asiyanı, Balkanları və İranı ələ keçirməklə qərbdən Aralıq dənizindən Atlantik və cənubdan isə Hind okeanlarına çıxmaq idi.

1723-cü ilin 12 sentyabr tarixində Ruslar İran şahı ilə danışıqlar apararaq Peterburqda razılaşma sənədini imzalayırlar. Həmin sənədə əsasən Azərbaycanın Xəzər sahili şəhərlərindən Dərbənd, Bakı, Səlyan, Lənkəran, Rəşt və Ənzəli limanları Rusiya impriyası öhtəsinə verilir. Qərbi Avropa dövlətləri Azərbaycanı ələ keçirmək niyyəti ilə, Osmanlı türküyəsini vasitə kimi ortalığa atırlar.

1723-cü ilin oktyabr ayında Osmanlı türk qoşunları Gəncə şəhərini mühasirəyə alır. Türklər həmin savaşda 5 mindən çox əsgərini itirərək, geri çəkilib Qarabağdan (Gorus yolu ilə) keçib və Naxçıvana gəlirlər. (Türklər Naxçıvanla Xoy şəhərindən Araz çayı boyunca şərqə tərəf hərəkət edirlər)...

1724-cü ilin 12 iyul tarixində Osmanlı türkləri ilə Rus çarı arasında Konstinapol sazişi yaradılır. Sazişin şərtlərinə görə Kür çayından şimaldakı Şirvan əraziləri, türklərin

müstəqil əyalətinə çevrilir. Həmin ildə Osmanlı türkləri Araz çayı boyunca şərq tərəfə hərəkət edərək, Naxçıvan, Culfa, Ordubad, Salmas şəhərlərini tutub sonra isə Təbrizi də ələ keçirirlər.

XVIII əsrin əvvəllərində Osmanlı Türkləri Nuh yurdu Naxşıvanda "Naxçıvan sancağının müfəssəl dəftəri" adlı siyahıyaalma sənədləri tərtib etmişlər. Həmin sənəddə göstərilir ki, Naxçıvan nahiyyəsindəki əhalinin illik gəlirləri 323.329 axça olmuş. Ərazidəki 12 məntəqənin illik gəlirinin xüsusi çəkisi 12,3%, vergi verənlərin sayı isə 779 nəfər olmuşdur. (Naxçıvan sancağında 9.788 nəfər yenidən vergilərə cəlb olaraq, onlar Osmanlı Türk xəzinəsinə ildə 2.629.059 axça ödəyirlər).

Naxçıvan sancağındakı 14 sayda nahiyyə aşağıdakı kimi olmuşdur;

Naxçıvan, Əlincə, Sair Məvazi, Dərə Şahbuz, Mülki-Arslan, Məvaziyi-Xatun, Qarabağ, Qışlağat, Dərəşam, Azadciran, Şorlut, Dərənürgüt, Sisyan və Dərələyəz.

1725-ci ildə Osmanlı türkləri Təbriz şəhərini tutmaq üçün savaşa başlayırlar. Həmin savaşlarda 30 mindən çox təbrizli və 120 minə yaxın isə türk əsgərləri məhv olmuş. Bir ildən sonra isə türklərin digər qoşun dəstəsi Gəncə şəhərində savaşa girərək, istədiklərinə nail olurlar. Həmin ərəfədə türklərin üçüncü qoşun dəstələri isə, Ərdəbildə savaşa girib və şəhəri tuturlar.

Ruslar Xəzər (Abeskun) dənizi ilə üzüb və Azərbaycanın Şahsevən, Muğan, Təngərud, Astara və Lənkəran bölgələrini ələ keçirirlər. Bütün bunları eşidənən 5 yaşlı səfəvi şahı II Təhmasib (1722-1732) qorxuya düşərək nə edəcəyini bilmir...

1727-ci ilin 12 dekabr tarixində Ruslar Azərbaycanın yeni əraziləri olan Cavad, Salyan, Şeşpara, Rustov, Quba və Təngəni də tuturlar. Türklər Azərbaycan əhalisini siyahıya alıb vergilərə cəlb edəndə, əhali narazılıq edərək etirazlarını bildirmiş. (1729-cu ildə Qarabağ, Naxçıvan, Təbriz, Xaçqala, Marağa, Həmrud, Ərdəbil, Xalxal və başqa məntəqələrdə türk vergi yığanlarının əleyhinə qiyamlar qalxmış)...

1730-cu ildə İran səfəvilərinin sonuncu hökmdarı II Təhmasibin sərkərdəsi Nadirqulu Əfşar (1688-1747), döyüşlərdə şöhrət qazanmışdır.

1732-ci ilin 16 yanvar tarixində səfəvillərlə osmanlılar arasında Kirmanşah barış müqaviləsi imzalanmış. Həmin müqaviləyə görə İrəvan, Naxçıvan, Qarabağ, Gəncə, Şamaxı və Şirvan bölgələri Osmanlı türklərində qalmış. Həmədan, Kirmanşah, Ərdəbil və Təbriz bölgələri isə İran şahlığına verilmişdir. (Azərbaycan əraziləri tarix boyu "əşya

kimi"yabançı dövlətlərə bağışlanmış). 1732-ci ilin 21 yanvar tarixində səfəvilərlə ruslar arasında Rəşt şəhərində müqavilə yaradılır. Həmin müqaviləyə görə Azərbaycanın Kür çayından cənub əraziləri İran şahlığına verilir.

1733-cü ildə Osmanlı türkləri Bağdad şəhəri yaxınlığında səfəvilərlə savaşa girirlər. Savaşlarda Kərküklər iranlıların tərəfində olduğundan türklər məğlub olaraq, Bağdad barış əhdnaməsinə razılıq verirlər. Həmin əhdnamənin şərtinə görə Osmanlı imperiyası 10 il müddətində Azərbaycan ərazilərinə qarşı savaş etməməlidir...

1734-cü ildə Nadirqulunun qoşunu Şamaxı şəhərini "murdar şəhər" adı ilə od vurub yandırır. (Nadiqulu İrana hakim olmaq niyyəti ilə, şah II Təhmasibi Xəzər qəsəbəsində sərxoş halda tutduraraq zindana saldırır). Daha sonra isə şahın çağası olan III Abbası "şah" edərək, şahın anasını da özünə arvad edir. Bununla da hiyləgər Nadqulu, Azərbaycanı əlinə keçirməyə müvəffəq olur. Elə həmin il Nadirqulunun qoşunları Şamaxıdan birbaşa Gəncə yolu ilə gedib Tiflisə yollanırlar. Onlar "gavurlar məskəni" Tiflis şəhərini yandıraraq və sonra isə birbaşa İrəvana gedirlər. Nadirqulunun qoşunları İrəvan şəhərini də odlayıb və Üçkilsədəki türk əsgərlərini qılıncdan keşirmişlər.

Üçkilsədə erməni könüllülərindən ibarət dəstə toplayan Nadirqulu, qoşunları ilə yenidən Gəncəyə dönür. Onlar qəflətən Gəncə şəhərinə girərək kişilərlə qadınları qılıncla doğrayıb və uşaqları da kor edirlər. (Nadirqulunun qoşunları Qarabağa tərəf gələrək, Şuşadakı Pənahəlibəy Sarcılını tayfası ilə bərabər tutdurub əsir edir). Nadirqulu özü ilə Üçkilsədən gətirdiyi ermənilər Qarbağda yerləşdirdikdən sonra, Pənahəlibəyin əsir tutulmuş adamlarını da at döşündə Xorasan çöllərinə sürgün edir. (Böyük qənimətlə Qarabağdan qayıdan Nadirqulu, Naxçıvan valisi Vəliqulu Kəngərli ilə görüşmədən Araz çayından tələsik keçib və Təbriz yolu ilə Xorasana qayıdır)...

1725-ci ildə Rus çarı I Pyotr öldükdən sonra arvadı I Yekaterina (1684-1727 hakimiyyətə keçsə də, ərinin Qafqazı tutmaq siyasətini unudur.

1735-ci il 21 mart tarixində Rus çariçası I Yekaterinanın fərmanı ilə rus qoşunları Azərbaycandan geri dönürlər. (1736-cı (hicri 1149) ilin 21 mart tarixində III Abbasın ölümündən sonra II Təhmasibi zindanbaşı Səbzəli öldürür). Muğandakı Suqovyşan kəndində Nadirqulu Əfşar, özünü İran və Azərbaycanın şahı elan edir. (Nadir Şah ilk fərmanı ilə dostu Səbzəlibəyi Naxçıvandakı Astaabad şəhərinə vali təyin edərək, Naxçıvandakı Kanqlı (Kəngərli) tayfasından olanları isə Xorasana sürgün edir).

1736-cı ildə Nadir şahın fərmanı ilə dövlətin paytaxtı İsfahandan Tus (Məşhəd) şəhərinə köçürülərək, orada "nadiri" qızıl və gümüş sikkələr də kəsdirilir. (Həmin illərdə

Azərbaycan əhalisinə kütləvi müsibət üz vermiş. Belə ki, aclıqdan Dərbənddə, Dəvəçidə, Şabranda, Bakıda, Qubada, Muğanda, Səlyanda, Şamaxıda, Gəncədə, Qazaxda, Naxçıvan və Təbrizdə çörək həsrəti ilə dilənçilər aclıqdan ölürlər). Qərbi Avropa səyyah və həkimi İ.Y.Lerx (1703-1780) gündəliklərində yazır ki;-"Azərbaycanda əhalinin yoxsullaşmasına əsas səbəb, Nadir şahın dəddarlığından olmuşdur". 1743-cü ildən başlayaraq ölkədə Nadir şaha qarşı üsyanlar törədilir...

1744-cü ilin 30iyul tarixində Nadir şahın qoşunları Təbrizlə Naxçıvana gələrək, əhalinin vergilərini iki dəfə artırıb və üsyançılara da divan tuturlar.

1747-ci (hicri 1760) ilin 19 iyun tarixində Xorasanın Qacaran əyalətində, Nadir şahın arvadı xaçpərəst Svetlananın xəyanəti ilə yatdığı yerdə, şahın qardaşı oğlu Əliqulumirzə tərəfindən öldürülür. (Bax, İ.Gaver "Xacə şah", (sənədli tarix), Bakı-1993, səh.12). Qəddar Nadir şahın ölümündən sonra Azərbaycan xalqı bir neçə il rahatlıq tapır... 1747-ci ildən 1827-ci ilədək Nuh yurdu Naxçıvanda Mərkəzi Asiyalı qədim Ustacların nəslindən olan feodal Kanqlı (Kəngərli) tayfa başçıları, öz əvvəlki toxunulmaz hüquqlarını saxlayaraq hakimiyyətlərini bərpa edirlər.

> *"Şübhəsiz ki, onların axır dönüşü Bizədir!"*
>
> **(Qaşiyə surəsi, 25)**

XVIII əsrin ikinci yarısında Azərbaycanda müstəqil və yarım müstəqil xanlıqlar yaranır. 1748-ci ildə Xorasana sürgün olunmuş Şuşalı Pənahəli xanla Naxçıvanlı Heydərqulu xan, qayıdaraq əvvəlki hakimiyyətlərini bərpa edirlər. (Tezliklə Azərbaycandakı xanlıqlar arasında torpaq üstündə çəkişmşlər başlayır).

1783-cü ilin 20 avqust tarixində Rus çarının hərbi işlər müşaviri Q.A.Potyomkin (1739-1791) tərəfindən Azərbaycan xanlıqlarına hərbi kömək məqsədi ilə müraciət edilmişdir. 1785-ci ildə Qubalı Fətəlixan rusların köməyindən istifadə edərək, bir neçə xanlığı "özündən asılı" salır. Bütün bunlardan xəbər tutan İrəvan və Naxçıvan xanları, kömək məqsədi ilə elçilərini Türk sultanlığına göndərirlər. Rusiya ilə Türküyə arasındakı müqaviləyə görə II Yekaterina (1729-1796), Qafqazdakı hərbi dəstələrin geri qayıtmalarına fərman verir. Quba hakimi Fətəli xan elçisi M.Fərhadbəyli ilə rus çarına göndərdiyi məktubunda yazır ki;-"...mən daima Rusiyanın dostları ilə dost, düşmənləri ilə də, düşmən olacağam". (Bax, M.Hüseyn, Ə.Məmmədxanlı "Fətəlixan", Bakı-1946).

1787-ci ildə Qarabağ hakimi İbrahimxəlil xan qoşun çəkərək Naxçıvanla İrəvan şəhərlərinə hücüm edir. Vəziyyətin çətinliyini görən hər iki xan, kömək məqsədi ilə Qubalı Fətəli xana qasid göndərirlər. Fətəli xan müttəfiqi gürcü II İrakli (1720-1798) ilə birlikdə Qarabağa qoşun göndərmək istəmiş. Lakin məsləhət üçün Bakı xanı Məlikməmməd xanın (yeznəsinin) yanında olanda, İran hakimi Kərimxan Zəndin (1704-1760) casusları tərəfindən öldürülür.

XVIII əsrin ikinci yarısında Nuh yurdu Naxçıvanda əhalinin yoxsul təbəqəsi olan kəndlilər, çörək qazanmaq üçün öz ağalarının təhkimçiliyində rəiyyət, rəncbər, elat və başqa qruplara ayılırlar.

Rəiyyət olanların azacıq da olsa torpaq sahələri olduğu halda, rəncbərlərin isə torpaqla əmək alətləri də olmur. Elatlar isə heyvandarlıqla məşğul olaraq, yayda yaylaqda qışda isə arana köçürlər. (Kəndlilərin hamısı sahibkar xan, bəy və qazilərdən asılı olmuş. Onların istehsal etdikləri məhsulların onda bir hissəsini bəhrə, bağbaşı, çorbaşı və başqa vergilərə cəlb etmişlər. Münbit torpaqlar əyanların şəxsi mülkiyyəti kimi, kəndli ailələri də onların itaətkar müti bəndələri olmuş. Azərbaycan xanlıqları inzibati ərazi sahədən mahallara bölünmüşdür ki onlara naiblər hakim olaraq, ixtiyarlarında yüzbaşılar, kəndxuda və darğaları var idi. Qazilər isə xanlıqlardan asılı dini şəxs kimi, xalqın mənəvi hüquqi icraçıları sayılırdı).

Nuh yurdu Naxçıvan xanlığında bazarlardakı alqı-satqı işlərində müxtəlif ölçü vahidləri mövcud idi. Onlar baqqal ticarətində işlədilən xalvar (1.000 kq), təkər (100 kq), batman (10 kq), çanaq (1 kq), misqal (100 qr) və sairə, parça ticarətində işlədilən kər (13 m.-ə bərabər) və ya arşın (103 sm.-ə bərabər) taxta ölçüdən istifadə olunurdu. Səyyar arşınmalçılar adətən qapı-qapı düşüb parçalarını arşınla ölçüb satardılar. Bundan başqa böyük torpaq sahələrinin ölçülməsində əsasən üçbucaq formalı ağac (tərəfləri 1m. 50 sm. uzunluğunda) alətdən istifadə olunurdu. Həcmləri böyük olan malların satılmasında yük (150 kq.) adlı çəkidən istifadə edirdilər. (Sonrakı yüz illikdə həmin çəki vahidi qapan (100 kq.) adlı tərəzi ilə əvəz olacaq).

Xanlıqlar dövründə bazarlardakı alış-veriş yerli sikkə ilə bərabər, ərəb dirhəmi, iran qranı, osmanlı lirəsi, rus kopeykası və başqa pul vahidləri ilə aparılırdı. Azərbaycanın Bakı, Şamaxı, Ouba, Gəncə, Pənahabad (Şuşa), Naxçıvan, Təbriz, Urmiyyə və başqa şəhərlərində zərbxanalar mövcud idi. Həmin sikkələr alqı-satqıda, saxta sikkələrə qarçı nəzarəti artırırdı. (Bazarlarda pul vahidləri müxtəlif adlarla qəpik (1qəp.), şahı (5 qəp.), abbası (20 qəp.), manat (100 qəp.), nəxçi (1000 qəp.), qran (0,5 qəp.), təngə (15 qəp.), pənavat (50 qəp.) və sairə adlanırdı).

XVIII əsrin axırlarında Nuh yurdu Naxçıvan xalqı yenidən qorxu və çətinliklərlə qarşılaşır. 1790-cı ildə Xorasan vilayətində hakimiyyətə gəlmiş Məmmədhəsən Qacar (1756-1799), Azərbaycanın cənub-şərq ərazilərini tutduqdan sonra, Cənubi Qafqaza tərəf hərbi yürüşə çıxır.

1794-cü ildə Qacar xan, 8 min nəfərlik nizami ordu ilə Təbrizi tutaraq Naxçıvana gəlir. Naxçıvanda ona qarşı durulmadığından, Gorus yolu ilə Qarbağa tərəf hərəkət edir. Həmin il Qarabağdakı Əskəran qalası savaşlarında məğlub olan qacarlar geri qayıtmalı olurlar. Bir ildən sonra Qacar xan 85 min nəfərlik çuğun top "zəmburək"lə və "kəlbçaxmaqlı tüfəng"lə silahlanmış ordu ilə yenidən Qarbağa basqın edir. 15 min nəfərlik Pənahabad (Şuşa) qalasının müdafiəçiləri, 33 gün vuruşaraq düşmənə təslim olmurlar. Qacar xan əsgərlərinin bir hissəsini qalanın mühasirəsində saxlayıb və qalan qüvvə ilə Gəncəyə tərəf gedir. Gəncədə Cavad xanla əhdləşən Qacar xan, birlikdə Tiflisə tərəf yürüş edirlər.

1795-ci ilin sentyabr ayında müttəfiq qoşun dəstələri gürcülərlə savaşaraq, Tiflisin 20 mindən çox əhalisini qırıb və şəhəri tuturlar. Payızda Qacar xanın 12 min nəfərlik qoşun dəstələri Şamaxını tutduqdan sonra Şəki (Nuxa) ilə Qubanı da ələ keçirə bilirlər.

1796-cı ilin əvvəllərində Rus çariçası II Yekaterinanın fərmanı ilə, general V.A.Zubovun başçılığı ilə 30 min nəfərlik qoşun hissələri, Azərbaycanın Dərbənd şəhəri yaxınlığına gəlir. Həmin ərəfədə İranda Qacar xan əleyhinə Təbrizdə qiyamlar qaldırılır. Qacar xanın dəstəsi gəldikləri yol ilə (Naxçıvandan keçərək) Təbrizə gedib və qiyamçıları tutub öldürürlər. Sonra isə Qacar Təbrizdə özünü şah elan edir... (Qacar şahın Təbrizdə olmasından istifadə edən general Zubov, qoşun hissələrini Dərbənddən Qubaya, oradan isə Bakı şəhərinə aparmış). Həmin il rus qoşun dəstələrinin bir hissəsi Şirvana gedərək (qorxudan Mustafa xan Qarbağa getdiyindən), onun yaxın qohumunu orada hakim edirlər. Ruslar dayanmadan qərbə tərəf hərəkət edərək, Gəncə şəhərini də tuturlar. (Bütün bunlardan sonra isə Qarabağ hakimi İbrahimxəlil xan, rus generalını sarayına qonaq çağırır. Ruslar Qarabağa gələndən sonra rus generalı Zubovu Naxçıvan, İrəvan və Təbriz xanları qonaq çağırsalar da dəvətlər cavabsız qalmışdır).

1797-ci ildə Rus çariçası II Yekaterina öləndən sonra oğlu I Pavelin (1754-1801) fərmanı ilə, rus hərbi hissələri Qafqazdan geri çağırılır. Həmin ilin yazında Şah Məhəmməd Qacarın qoşun dəstələri,Araz çayından keçərək Naxçıvana gəlirlər. Naxçıvan hakimi I Kalbalıxan (...?-1823) ruslardan kömək istədiyinə görə, gözləri çıxarılaraq Tehrana sürgün edilir. Bundan sonra Şahın fərmanı ilə Abbasqulu xan (1764-...?) Naxçıvana hakim təyin edilmiş. Qacar şah Gorus yolu ilə Qarabağa gedərək tezliklə Şuşa qalasını təslim

edir. 1797-ci ilin 4 iyul tarixində Şah Məhəmməd Qacar, Şuşada yatağında əyanları tərəfindən öldürülür. Qafqazda ictimai-siyasi vəziyyət kəskinləşərək, xanlıqlar arasında yenidən ziddiyyətlər yaranır.

1799-cu ildə general Lazarevin komandanlığı ilə Rus ordu hissələri, Tiflisə gəlirlər. (General Qafqaza Balkanlardan təbliğatla erməni icmalarını da özləri ilə gətirir). Bundan sonra isə Rus ordusunun generalı Sisiyanovun başçılığı ilə hərbi hissələr də Dağıstana gəlir. Hər iki general ordu hissələrini birləşdirərək Gəncəni tutmağa hazırlaşır...

> *"Sizdən əvvəl kimlər gəlib-gedibsə, onları da bilirik, sizdən sonra kimlər gələcəksə, onları da!"*
>
> (Quran)

XIX əsrin birinci yarısında rus-türk və rus-iran savaşlarında qalib çıxmış Rus imperiyası, Qafqazı bütövlükdə əlinə keçirir. 1803-cü ilin 2 noyabr tarixində Ruslar Gəncə şəhərini mühasirəyə alırlar.

1804-cü ilin 3 yanvar tarxində Gəncə hakimi Cavad xan qəhrəmanlıqla şəhid olur. (Bax, R.İsmayılov, M.Heydərov "Sənin baban kim olub", (1-ci kitab) Bakı-1991). Ruslar gəncəlilərdən 8.585 nəfər kişi və 8.639 nəfər də qadınlardan əsir tuturlar. Gəncə şəhəri uğrundakı döyüşlərdə 3.700 nəfər müdafiəçi qəhrəmanlıqla həlak olmuş. Nəhayət ki, ruslar Gəncə şəhərini tutaraq, adını Yelizavetapol qoyurlar. Rus imperatorunun fərmanı ilə Qafqazdakı xanlıqlar quberniya adı ilə əvəz olur. 1804-cü ilin 14 may tarixində Kür çayı sahillərində İbrahimxəlil xanla general Sisiyanov arasındakı danışıqlardan sonra Qarabağ, mahal kimi Rus imperiyasına tabe etdirilir. Bundan sonra ruslar Azərbaycanın cənub bölgələrinə də gələrək, Naxçıvan mahalını müqavimətsiz tuturlar.

1804-cü ilin 16 iyun tarixində Rus imperiyası İran şahlığı ilə savaşa başlayır. İran şahı Fətəli Qacarın oğlu (vəliəhdi) Abbas Mirzənin (1789-1833) dəstəsi Naxçıvanın "Ərikli gədiyi" aşırımından keçərək ruslarla qarşılaşmamaq üçün, qayıdanda Araz çayı sahilindəki Zəyəm kəndində yerləşmiş polkovnik Qaryagin tərəfindən gülləborana tutulur. (Araz çayından keşəndə yaralanan Abbas Mirzə atının boynunda sahlə çıxa bilmiş).

1804-cü ilin yayında knyaz Sisyanovun başçılığı ilə rus qoşunları, İrəvan xanlığını tutmaq istəmişlər. Ermənilər tərəfdən ərzaqla təmin olan rus soldatları, İrəvan şəhərini tutmağa can atırlar. İrəvan hakimi Hüseynqulu xan, Qəmərli və Üçkilsə (Dəvəli) kəndləri

arasındakı döyüşlərdə çətin vəziyyətə düşür. Bu xəbəri eşidən yaralı Abbas Mirzə, İrandan muzdlu qoşun toplayaraq İrəvan xanlığına köməyə gedir. Ruslar iranlıları Cavanbulaq çayı sahilində qarşılarına çıxmaqla onları geri qaytarırlar. Rus soldatları hərbi taktikadan məharətlə istifadə etsələr də, cəsur İrəvan xalqına qalib gələ bilmirlər. Ruslar İrəvan qalasını uçurub dağıtmaq üçün Qarbağdan topçu alayını gözləməli olurlar. (Abbas Mirzənin süvariləri, yenidən hücuma keçsələr də Üçkilsə yaxınlığında bir baha məğlub olurlar)... Ruslar Qarabağda olarkən bir vaxtlar Cavad xan tərəfindən hədiyyə edilmiş çuğun topları, Sərdərabad qalasından qənimət kimi götürmüşlər. Tezliklə həmin toplar İrəvana gətirilərək qala top atəşinə tutulur. (1804-cü ilin sentyabr ayında topların mərmiləri qurtardığından, ruslar dincəlmək üçün Üçkilsə (Dəvəli) tərəfə çəkilirlər)...

1805-ci ilin 21 may tarixində İrəvan savaşlarında ruslara yardım etməyən Qarabağla Şəki xanlığı, məcburiyyət üazündən Küçək çayı sahilində yenidən ittifaq müqaviləsinə imza edirlər. Həmin nüqavilədə göstərilir ki, Naxçıvan, Qarabağ, Gəncə, Şəki və başqa şəhərlərin hakimləri, əhalisi ilə birlikdə Rusiya imperiyasına "könüllü"daxil olduqlarından növcud hakimiyyət ləğv olmuşdur.

1805-ci ilin 12 avqust tarixində İrəvanda Hüseynqulu xan qardaşı Həsən xanla məsləhətləşərək Bakıya getməli olur. Knyaz Sisyanov da bir vaxtlar general Lazarev tərəfindən Qafqaza gətirilmiş erməni casuslarının məlumatı əsasında Hüseynqulu xanın ardınca Bakıya gedir. (1806-cı ilin 8 fevral tarixində Bakıda knyaz Sisyanov Hüseynqulu xanla təkbə-tək danışarkən, xanın qardaşı tərəfdən qəflətən öldürülür). Həmin ilin 22 iyun tarixində Bakıya rus generalı Bulqakovun qoşun dəstələri gəlir. (Bakı xanı general Sisyanovun ölümündən sonra ailəsini də götürüb və İrana qaçır. Tezliklə Azərbaycan ölkəsi Rus çar imperiyası tərəfindən tutulur)...

1806-cı ildə Firəng kralı Banopart Napaleon (1769-1821), siyasətlə Osmanlı türküyəsini Rus imperiyasına qarşı savaşa qızışdırır. Türklər Şərq və Qara dəniz cəbhələrində Ruslara məğlub olurlar. (1807-ci ilin 18 iyun tarixində Gümrü yaxınlığındakı savaşlarda türk əsgərləri xeyli itki vermişlər)...

1808-ci ildə Tehrandakı ingilis diplomatı H.Conson qızıl pul ilə şah məmurlarını ələ alaraq, şahlığı Rus imperiyasının üzərinə qaldırır. 1809-cu ilin may ayında İran şahının sərkərdəsi Abbas Mirzənin dəstəsi, Naxçıvanın Qarababa kəndi yaxınlığındakı savaşlarda rüsları məğlub edərək, hərbi qənimətlər ələ keçirmiş.

1812-ci ilin 16 may tarixində Osmanlı türkləri Rus imperiyasına məğlub olaraq, Buxarestdə sülh müqaviləsinə imza atırlar. Müqavilənin şərtlərinə görə, Cuxur Səəd

(İrəvan), Naxçıvan və Qarabağ torpaqları Rusiya imperiyasına verilir.

1805-1813-cü illərdə İranla Rusiya arasındakı savaşlar Naxçıvan xalqını yenidən çətinliklərə salmışdır. Nəhayət ki, 1813-cü ilin 12 oktyabr tarixində Qarabağın Gülüstan kəndində Rus-İran müharibəsi, başa çataraq barış müqaviləsi imzalanır. Müqavilənin şətlərinə görə Azərbaycanın Qarbağ, Gəncə, Şəki, Şamaxı, Quba, Bakı və Talış əraziləri, habelə Şərqi Gürcüstanla Dağıstan əraziləri də Rusiya imperiyasına verilir. Bununla belə Çuxur Səəd (İrəvan), Naxçıvan, Xoy, Salmas, Təbriz və başqa ərazilər isə İran şahlığında qalır. (Nuh yurdu Naxçıvan İranın tabeliyinə verildiyindən, fars hakim dairələri tərəfindən xalqa zülmlər edilmiş).

1826-cı iln 19 fevral tarixində ingilislərin təbliği ilə İranda Ali müsəlman Cəmiyyəti yaradılır. Cəmiyyətin üzvləri xalqı rus “gavurları”na qarşı cihada (savaşa) təhrik edirlər. Tezliklə tarixdə ikinci Rus-İran müharibəsi başlayır.

Şahın sərkərdəsi Abbas Mirzənin başçılığı ilə 60 min nəfərlik süvari dəstə Naxçıvandan keçərək Qarabağa hərbi yürüşə gedir. İranlılar 48 gün Şuşa qalasını mühasirədə saxlasalar da, axırda məğlub olurlar. (Abbas Mirzə vəziyyətin gərginliyini görərək, geriyə Naxçıvana tərəf qaçmalı olur).

1827-ci ilin 26 iyun tarixində Rus hərbi hissələri Gorus yolu ilə Qarbağdan Naxçıvana tərəf gəlirlər. Həmin ilin 5 iyul tarixində ruslarla iranlılar arasındakı Cavanbulaq çayı yanında döyüşlərdə, ruslar Abbasabad qalasını da ələ keçirirlər. 20 sentyabr tarixində isə ruslar Sərdarabad qalası da ələ keçirmişlər.

1827-ci ilin oktyabr ayında Rus imperiyası tərəfindən, İrəvan qalasının tutulması haqqında fərman verilir.

Bakıda knyaz Sisyanov öldürüldükdən sonra, İrəvan qalasını tutmaq üçün qraf Qudoviç göndərilir. Lakin qraf Qudoviç Naxçıvandan keçərək gedib İrəvan qalasını ala bilmədiyindən, Rus çarı onun yerinə general Tomsonu göndərmişdir. Hüseynqulu xanın “Çənlibel qalası”nın yanında pusquda dayanmış süvariləri, general Tomsonun soldatlarını geri çəkilməyə məcbur edir. (Rus çarı bu uğursuzluğa görə də onun yerinə general Yermakovu təyin etmiş. Lakin təzə ordu başçısının növbəti döyüşlərdə bəxti gətirmədiyindən o da geri qayıtmalı olmuşdur. Bütün bunlardan qəzəblənən Rus çarı, bu dəfə özünün şəxsi mühafizə qoşun dəstəsini onlara köməyə göndərir. Tezliklə general Paskeviçin başçılığı ilə köməyə gəlmiş seçmə qoşun dəstəsi, Zəngəzurun Qozulca çayı sahilində cadırlarını qururlar).

1827-ci ilin 20 oktyabr tarixində ruslar uzaq vuran çuğun toplarla hücuma keçib və İrəvan qalasının bürclərini dağıdırlar. Üç gün davam edən gərgin döyüşlərdə qalanın uçmuş yerlərindən soldatlar İrəvan şəhərinə girə bilmişlər. Tezliklə İrəvanı ələ keçirən ruslar, Araz çayı boyunca şərqə tərəf hərəkət edərək Naxçıvana gəlib çatırlar. Culfa körpüsündən ağır toplarını keçirən rus soldatları, Təbrizə tərəf gedirlər.

Ruslar uzaqvuran top mərmiləri ilə Təbriz şəhərinin qala divarlarını vurub dağıdırlar. (Rus qoşunlarının "ildırım sürətli "gəlişini eşidən İran şahı, vahiməyə düşərək Tehrandan qaşır). 1828-ci ilin yanvar ayında rus qoşunları, Urmiya şəhərini də tutaraq sonra isə Ərdəbil şəhərini təslim etmişlər. Həmin ilin 10 fevral tarixində Təbrizin cənub-qərbindəki Türkmənçay kəndində İngiltərənin İrandakı səfiri Makdonaldın iştirakı ilə Rusiya və İran dövlətləri arasında tarixi Türkmənçay sülh müqaviləsi imzalanmışdır.

**Həmin müqavilənin şərtlərinə görə Azərbaycan əraziləri, Araz çayı boyunca iki yerə bölünür.**

Bundan başqa İran şahlığı Rusiya imperiyasına 20 milyon rubl məbləğində gümüş pul ödəməklə, İranda yaşayan erməni icmalarını da, Zəngəzur və Göyçə mahalı ərazilərinə köçürülməsinə bəraət verilmiş.

1828-ci ildən Rus imperiyası tərəfindən Nuh yurdu Naxçıvanda güclənərək, xalqın tarixi mədəniyyət nümunələrini rusiyanın muzeylərinə aparılmış. Həmin dövrlərdə Əlincə qalası yaxınlığındakı Şeyx Nəiminin sərdabəsində saxlanılan sufi əlifbası ilə yazılmış nadir əlyazmalarla yanaşı tarixi əşyalar da Peterburqa göndərilmişdir. (Bax, A.Qriboyedov "Cənubi Qafqaz Şirkətinin yaradılması haqqında" (rusca), Leninqrad-1977).

1828-ci ilin mart ayında Rus çarı I Nikolay Romanovun (1796-1855) fərmanı ilə İrəvan, Naxçıvan və Qarabağ xanlıqlarını, "erməni vilayəti" adı ilə inzibati əyalətə çevirmək istəmişlər. (Ruslar Naxçıvanda olanda Türküyə ərazilərini də əllərinə keçirmək istəmişlər).

1828-ci ilin aprel ayında Rusiya imperiyasının fərmanı ilə rus qoşun hissələri Naxçıvandan Osmanlı türküyəsi ərazilərinə də daxil olmuşlar.

1829-cu ilin 2 sentyabr tarixində Türküyənin şərq bölgələrində ruslara qarşı savaşda yorulan Osmanlı sultanlığı, Ədirənə kəndində barış sazişi bağlamış. Həmin şazişin şərtlərinə görə Cənubi Qafqz əraziləri Rusiya imperiyasına verilir.

XVIII əsrdən etibarən erməni ailələri iran və türküyə ərazilərindən ruslar tərəfindən gətirilərək, Nuh yurdu Naxçıvan ərazilərində məskunlaşırlar. Buna əsas verən mənfur "Türkmənçay müqavıləsi"nin 15-ci bəndi olmuşdur. (Rus imperiyası Cənubi Qafqazda ozlərinə dayaq nöqtəsi kimi xaçpərəst ermənilərdən istifadə etmiş). Ruslar ermənıləri Çuxur Səəd ərazilərinə xüsusi ilə Dəvəliyə (Üçkilsə), sonradan isə Nuh yurdu Naxçıvana da gətirirlər. (Bax, Ş.Göyçayski "Əhali coğrafiyası", Bakı-1979, səh. 108-113).(1828-ci ilin 21 mart tarixində Rus imperiyası İrəvan xanlığına İrandan 40 min, Türküyədən 84 min və Balkan yarımadasından isə 200 min erməni ailəsini, Çuxur Səədlə Qarbağ ərazilərinə gətirmişlər).

1828-30-cu illərdə Nuh yurdu Naxçıvan ərazilərinə 2.511 erməni ailəsi gətirilmişdir. Təkcə Naxçıvan şəhərində İrandan 430 erməni ailəsi gətirilərək, onlar "Çuxur məhəlləsi" ərazilərində yerləşmişlər.

Rus imperiyası ermənıləri əsasən Cənubi Qafqazdakı karvan yolları üstündəki Kərki, Oğlanqala, Çalxanqala, Yezdabad, Astabad, Yəmxana, Tumbul, Çeşməbasar, Arınc, Almalı, Cuğa, Azad, Parağa, Əylis, Mehri, Nüvədi və başqa kəndlərdə yerləşdirmiş. (Nehrəm kəndində erməni ailələrinin yerləşdirilməsinə qarşı çıxan, mülkədar Hacı Məhəmməd Kərbəlayi Bağır oğlu (1850-1930) rəsmi şikayət edərək, qubernatorluq tərəfindən razılaşdırılmışdır). Ermənilərin Naxçıvan kəndlərində yerləşdirilməsi siyasəti əleyhinə olan kəndxuda, molla və sahibkarlar, Rus çarı I Nikolayın 1830-cu ilin 13 iyul tarixli fərmanı ilə soyuq Sibirə sürgün olunmuşlar.

1828-ci ildə Naxçıvan xanlığı, Naxçıvan və Ordubad dairələrinə ayrılıraraq aşağıdakı tərkibdə olur; Əlincə, Xok, Dərələyəz, Əylis, Dəstə, Çənnəb və Biləv.

1830-cu ilin arxiv sənədlərinə əsasən Naxçıvan dairəsinə İrandan köçürülən erməni ailələri aşağıdakı kimi yerləşmişlər; 1) Əlincə mahalındakı 400 azərbaycanlı ailəsi yaşayan 24 kənddə 120 erməni ailəsi yerləşmiş. 2) Dərələyəz mahalındakı 1.283 azərbaycanlı ailəsi yaşayan kəndlərdə 58 (731) erməni ailəsi yerləşmiş. 3) Naxçıvan mahalındakı 1.884 azərbaycanlı ailəsi yaşayan 59 kənddə 309 (1.207) erməni ailəsi yerləşmiş. 4) Xok mahalındakı 292 azərbaycanlı ailəsi yaşayan 9 kənddə 43 erməni ailəsi yerləşmiş. 5) Naxçıvan şəhərində 9.005 azərbaycanlı yaşayan 29 məhəllədə 150 (269) erməni ailəsi yerləşmiş. (Mötərizə içərisindəki rəqəmlər göstəricisi, 1830-cu ildən sonra əlavə gələn erməni ailələrinin sayını bildirir). (Bax, Azərbaycan Respublikası Milli Dövlət Arxiv İdarəsi, fond 379, iş № 5901, VV-1-4).

Nuh yurdu Naxçıvan ərazilərindəki məskunlaşan ermənilər çəkməçilik, dulusçuluq, qalayçılıq və başqa sənətkarlıqla məşğul olurlar. Onlar ərazidəki qədim Alban mənşəli məbədləri bərpa edərək, "erməni kilsələri"nə çevirmişlər. Bu cür tarixi tikililərin fasad divarlarındakı simvolik bərabərtərəfli xaç işarələrinin aşağa çıxıntısını uzatmaqla ermənileşdirmək istəmişlər. (Bax, A.Belov "Ateistin cib lüğəti", Bakı-1979, səh.104). (Qədim Albanlar məbədlərindəki bərabərtərəfli xaç simvolları ilə, təbiətdəki dörd ünsürün torpaq, su, külək və odu bildirən rəmzlərə işarə etmişlər).

Nuh yurdu Naxçıvanın Rusiya İmperiyasının tərkibinə keçirildikdən sonra ərazinin hakimi Ehsanxan Kəngərli (1812-1865), naib (nümayəndə) olur.

İnzibati torpaq mülküyyətinə sahib çıxan bəylərin vəkalətlərini, ərazinin naibi Ehsanxan İrəvandakı qubernatordan xahiş edərək əqrabaları arasında bölüşdürür.

Ehsanxan Kəngərli, Naxçıvandakı Şaxtaxtı kəndində mülkədar ailəsində doğularaq, Peterburqda hərbi-texniki təhsil almış, zabit kimi rus-yapon və rus-türk savaşlarının iştirakçısı kimi, general-mayor rütbəsini qazanmışdır. (Ehsanxan Rus imperiyasının sadiq hərbiçisi kimi fərqlənərək, qızıl hərflərlə adı Moskvadakı Kreml qalasının Georqi zalındakı "Fəxri lövhə"yə yazılmış)...

1837-ci ilin mart ayından Naxçıvan şəhərində ibtidai rus-tatar qəza məktəbi açılır.

1854-cü ldə Ordubadda, 1882-ci ildə isə Şəril-Yengicə kəndində də belə məktəblər açılmışdır. Üç ildən sonra isə Şəril qəzasının Baş Noraşen və Naxçınan qəzasının da Nehrəmlə Cəhri kəndlərində ibtidai məktəblər yaradılır.

1892-ci ildə Ordubadda maarifpərvər pedaqoq Məmmədtağı Sidqi (1854-1903), "Əxtər" (ulduz) adlı məktəbdə qız sinfi yaradır. M.Sidqi Naxçıvandakı "Məktəbi-tərbiyə" (rus-tatar) ibtidai məktəbində də müdir işləmişdir.O, əlavə olaraq şəhərdə "Qız pansionu"da açdıraraq, müsəlman qızlarının savadlanmasına şərait yaratmış. (1950-ci illərədək fəaliyyət göstərən pansionat, sonradan şəhərdə 2 № -li məktəbə çevrilmişdir). Qız pansionunun açılmasında şəhərdəki xeyriyyəçi zyalılardan Şaxtaxtinsklərin rolu çox olmuşdur.

1893-cü ildən Nehrəm kəndində müəllim işləmiş görkəmli yazıçı C.Məmmədquluzadə (1866-1932), məktəbdə 8 şagirdi olan qız sinfi də yaratmış. (Bax, İ.Həbibbəyli "Cəlil Məmmədquluzadə", Bakı-1987, səh. 61).

1880-cı ilin 18 fevral tarixli Rusiya Dövlət Şurasının "Cənubi Qafqaz ölkəsinin quberniyalarında kənd həkimi sahələrinin təşkil edilməsi haqqında"əsasnaməsi qəbul olunmuşdur. (Həmin əsasnaməyə görə hər qəzada 4 çarpayıdan ibarət həkim-müayinə otağı ilə əczaxana açılması nəzərdə tutulmuşdur).

XIX əsrin axırlarında Naxçıvanda ziyalı xeyriyyəçilər tərəfindən xalqın maariflənməsinə, sosial sahələrin inkişafına maddı-mənəvi qayğı ilə yanaşmışlar. Həmin illədə Naxşıvanda göllər, kəhrizlər, körpülər, buzxanalar, dəyirmanlar, hamamlar və sairə tikdirilmişdir. Xeyirxah işlərinə görə xalqın hörmətini qazanmış insanlar, Kərbəlayi Musa, Məşhədi Tahir, Adilağa, Hacı Tağı, Şahbazağa, Hacı Məhəmməd, Mirişağa və başqaları idi.

1883-cü ilin 15 may tarixində Naxçıvanda ziyalı Eynalıbəy Sultanovun təşəbbüsü ilə Hacı Nəcəfbəy Zeynalovun evində teatr yaradılmış. Hacının evində həmin gün M.F.Axundovun "Müsyö Jordan və dərviş Məstəli şah" tamaşası səhnələşdirilmişdir. Naxçıvan teatrının inkişafında xidmətləri olan ziyalılardan, Mirzə Qulubəyov, Mirzə Səbri, Paşa Sultanov, Sadıqbəy Xəlilov, Cəlil Məmmədquluzadə, Əliməmməd Xəlilov, Ələkbər Süleymanov, Əbdülqasım Sultanov, Əliqulu Qəmküsar və başqaları idi.

> *"Hər kəs öz əməlinin girovudur!"*
>
> (Quran)

1887-ci ildə Naxçıvan ziyalıları Zaviyə məscidində kitab toplayaraq vəqf (ümumxalq) əmlak kimi istifadyə vermişlər. Həmin illərdə Naxçıvandakı "rus-tatar"məktəbi nəzdində "Diyari-tarixi keçmişimiz" adlı ölkəşünaslıq muzeyi də yaradılır. Muzeyə Naxçıvandakı Duzdağ mağarasından tapılmış qədim insanların daşdan hazırlanmış qazma alətləri, üzərində sasani şahlarının əksi olan gümüş sikkələr və qədim məişət alətlərindən nümunələr qoyulur. (Həmin muzey eksponatları ilə birlikdə sonradan Naxçıvanlı mülkədar Bahadur Vəlibəyovun şəxsi evində yaradılmışdır). Həmin illərdə dünyəvi elmlərə həvəs yarandığından xarici ölkələrə oğlanlarla bərabər kübar ailələrdən qızlar da oxumağa gedirlər. Onlardan Parisdə oxuyan Məmmədağa və Leyla Şaxtaxtinskləri göstərmək olar. (Bax, "Molla Nəsrəddin" jurnalı, 1920-ci il, № 52).

XX əsrin əvvəllərində dünya siyasi xəritəsində dəyişikliklər baş verir. Əsasən bunlara torpaqlar üzrə gedən müharibələr səbəb olur.

1905-ci ilin 6-9 fevral tarixində ermənilər ərazilərdəki Azəri türklərinə qarşı soyqırımlar törədirlər. Həmin ilin 24 may tarixində ermənilər İrəvanda müsəlmanlara qarşı soyqırım törətmək istərkən, ifşa olurlar.Ermənilər sonradan Qacar kəndində də müsəlmanlarla savaşa girmək istərkən yenə də ifşa olmuş. 16-21 avqust tarixlərində ermənilər Şuşada müsəlmanlara qarşı olsalar da tezliklə əməllərindən geri çəkilirlər.

1906-07-ci illərdə Naxçıvanda Rus imperiyasına qarşı fəhlə-kəndli hərakatı düclənir. Bakıda olduğu kimi Naxçıvanda da gizli sosial-demokrat dərnəklər fəaliyyət göstərir.

Naxçıvan şəhərində Mirzalıbəy Bəktaşinin başçılığı ilə "Hümmət" siyasi dərnəyi yaradılır. (Dərnəyin Baş Noraşen, Culfa və Ordubad bölgələrində də özəkləri fəaliyyət göstərmişdir). Naxçıvanlı "hümmətçilər" Duz mədəni ilə Arpaçay filiz mədənlərinin sahibkarı Əsgərbəy Yüzbaşov, su hövzələri və dəyirmanların sahibkarı Qasımbəy Camalbəyov, buzxanalar və "Şirin şərbət" (limonad) kiçik müəssisəsinin sahibkarı Mirzalıbəy Bəktaşi, din xadimi Mirbağır Mirheydərzadə, maarif müdüri Məmmədsəid Ordubadi, "İpək" kiçik müəssisə sahibkarı Qurbanəlibəy Şərifzadə, "Ülfət" siyasi dərnək rəhbəri Mirzə Nəsrullabəy Bəktaşi, gömrükxana məmuru Əliqulubəy Qəmküsar və başqaları olmuşlar.

1914-cü ilin yayında Birinci Dünya müharibəsi başllayır. Bu müharibədə Osmanlı Türküyəsi də Qərbi Avropa İmperialist dövlətlərinin müttəfiqi kimi, məcburiyyət üzündən iştirak etməli olur. Türklər müharibənin ilk günlərindən savaşlarda məğlub olurlar. Bütün bunlara səbəb Osmanlı türk ordusunun daxilində xain xaçpərəst sərkərdələrin olması idi. Onlardan biri də türk süvari alayının komandanı general Andronik Ozanyan (1865-1927) olmuşdur.

General Andronik, türklərin ay-ulduzlu dövlət bayrağına "sadiq" olsa da hərbi sirrlərini məxfi surətdə düşmənə veməkdə tutularaq ifşa olur. (Səhra hərbi məhkəmsənin qərarı ilə, Andronikin hərbi rütbəsi sıraviliyə yendirilməklə qulağının da biri kəsilir)...

Ermənilər Türküyənin Şərq bölgələrində firəng siyasətçilərini havadarlığı ilə "Erməni komitəsi" adlı millətçi təşkilatda "Daşnaksütyun" siyasi partiyası yaradırlar. Həmin komitənin məqsədi Osmanlı türk sultanı II Əbdülhəmidə (1842-1914) qarşı sui-qəsd idi. (Planları baş tutmayan ermənilər, Suriya ərazilərinədəki qaçqın kürdlərlə birləşib və terrorçuluqla məşgul olurlar).

Andronik Türküyədən İrəvana gələrək, başına silahlı dəstə yuğıb və İrəvan quberniyasında Azəri türklərinə qarşı amansızlıqlar edir.

1915-ci ilin 15 yanvar tarixində Rus qoşunları Şərq cəbhəsi boyunca Türklərin dəstələrini məhv edirlər. Ruslar oradan şərqə tərəf dönərək, yanvarın 20-də gəlib Təbriz şəhərini tuturlar. Beləliklə Çuxur Səədlə Nuh yurdu Naxçıvan əraziləri yenidən Rusların işğalına məruz qalır.

1917-ci ilin 27 fevral tarixində Rusiyada fəhlə, əsgər və matrosların silahlı dəstəsi, Peterburqda çar II Nikolayı hakimiyyətdən salırlar. (Tezliklə çarın ailə üzvlərini Ural vilayətindəki meşədə güllələyirlər). Rus çarının ölüm xəbəri həmin ilin 6 mart tarixində Naxçıvanda da yayılır.

1917-ci ilin 25 oktyabr (7 noyabr) tarixində Rusiyada V.İ.Leninin (1870-1924) başçılığı ilə müvəqqəti hökumət devrilərək, Ümumrusiya xalq hakimiyyəti elan olunur.

Rusiyada Karenskinin müvəqqəti hökumətinin süqutundan sonra, Qərbi Avropa kapitalistlərinin havadarlıqları ilə Sovet Rusiyası ərazilərində Vətəndaş müharibəsi başlayır. Rusiyanın bütün bölgələrində "ağlar"la, "qırmızı"lar arasında silahlı toqquşmalar baş verir. Avropanın iri kapitalist ölkələri ilə Zaqafqaziyadakı menşevik qruplaşmaları, hərc-mərclikdən məharətlə istifadə edirlər. Ermənilər siyasi təbliğat apararaq Azərbaycanın torpaq ərazilərində "Böyük Ermənistan" dövləti yaratmaq istəyirlər.

1917-ci ilin 18 dekabr tarixli "Ərzincan sülh sazişi"nə görə rus qoşun hissələri Türküyə ərazilərindən cıxanda, hərbi sursatlarını ermənilərə bağışlayırlar.

1918-ci ilin əvvəlindən ingilis-amerikan və erməni birləşmələri, Araz çayı boyunca Naxçıvan qəzasına basqınlar edirlər. (Bax, Ə.Əliyev "Biz əzablı ömür yaşadıq", Bakı-1994, səh.54). Həmin ilin mart ayında erməni silahlıları A.Ozanyanın başçılığı ilə Göyçə gölü ətrafındakı Azəri türklərinə qarşı basqınlar edirlər. Silahlı süvarilər kəndlərdəki müsəlman evlərini yandıraraq, əhalisini də qılıncla doğrayırlar. Andranikin dəstəsi İrəvandan Göyçə mahalınadək azərbaycanlı əhalini məhv edəndə, Vedibasarlı Abbasqulubəy Şadlinskinin (1889-1926) özünümüdafiə silahlı dəstəsinə zor gələ bilmir... (Bax, "Sovet Ermənistanı" qəzeti, 1960-cı il, №90).

1918-ci ilin yayında Naxçıvan qəzası və ətraf kəndlərin əhalisinə ağır bəla üz verir.

Bir tərəfdən Aleksandropol (Leninakan) şəhərində təcavüzkar ingilis-amerikan hərbiçiləri, digər tərəfdən də erməni daşnakları Vedi-Naxçıvan və Dərələyəz-Zəngəzur ərazilərindəki Azərbaycan kəndlərini yandıraraq əhalisini də məhv etmişlər. Elə həmin ilin iyun ayında Andronikin silahlı quldur dəstəsi İran Culfasından Araz çayını keçərək

Naxçıvana tərəf atlarını sürür. Ermənilər Yaycı kəndindəki evləri yandır və əhalisini də Araz çayından keçəndə güllə atəşinə tuturlar.

Daşnak quldurlar Culfadan iki dəstəyə ayrılıb və "yapon" təxəllüslü H.Torosyanın dəstəsi Ordubad səmtinə, A.Ozanyanın dəstəsi isə Naxçıvana tərəf gedirlər.

Andranikin dəstəsi gəlib Əlincə cayının sahilindəki Camaldın kəndinin kövşənliyində düşərgə salıb dincəlir. Ertəsi günü erməni quldurları Camaldınla Ərəzin kəndlərindəki əhalini qılıncdan keçirərək evlərini də yandırırlar. Daha sonra onlar ərazidəki Güznüt, Çeşməbasar, Tumbul, Yəmxana və Qızılvəng (Təzəkənd) ermənilərini də dəstələrinə qoşub və Nehrəm kəndini mühasirəyə alırlar.

1918-ci ilin 17 iyun tarixində erməni silahlıları qəflətən Nehrəm kəndinə hücuma keçirlər. Qeyrətli Nehrəm camaatı igidliklə "gavurlarla" döyüşərək onları kəndə buraxmırlar. (Atışmalarda hər iki tərəfdən ölən və yaralananlar da olur. Üç günlük atışmalardan sonra, ermənilər Naxçıvan şəhərinə tərəf atlarını çapırlar).

Erməni quldurları şəhərin şimal hissəsindəki "Cananbəy kəhrizi" yaxınlığındakı təpəlikdə düşərgə salıb dincəlirlər.

1918-ci ilin 19 iyul tarixli Andronikin imzası ilə türkcə yazılmış təslimolma ultimatum məktubu, Əlixan məhəllə sakini, 13 yaşlı Pəpiş Şirəli oğlu ilə göndərilmiş. (P.İsmayılov (1909-1972), Naxçıvan şəhərindəki Lermontov küçəsi ev № 49-da yaşamış və həmin hadisələri, sağlığında söyləmişdir). Naxşıvan şəhərindəki Əlixan məhəllə məscidi könüllü müdafiəçilərin qərargahı idi. Qərərgahda Əlixan Kəngərlinin sözü ilə, gənc rəssam Bəhruz Şirəlibəy oğlu (1892-1922) tərəfindən məktubun arxasında tayqulaq ulaq rəsmi çəkilərək, yenidən həmin uşaq ilə ermənilərə göndərilir. (Andranik məktuba baxıb qeyzlənir və bıçaq ilə oğlanın bir gözünü çıxardarq qulaqlarını da kəsir)...

1918-ci ilin 1 iyul tarixində Naxçıvan hakimi Cəfərquluxan Cümə məscidinin axundu Mirişağa ilə məsləhətləşərək, əhalini "gavurlara" qarçı cihada çağırıb səfərbərliyə alırlar. Kalbalıxanla şəhərdəki fəaliyyət göstərən demokrat inqilabçılar da bərabər səfərbər olaraq, şəhəri ermənilərdən müdafiəyə qalxırlar. Əhali tezliklə şəhərə girən əsas yolarda qoryucu səngərlər qazırlar. Məscidlərdə qərərgahlar yaradılaraq, əli silah tutanlar təlimləndirilir. (Həmin ərəfədə şəhərdəki erməni ailələri qapılarını bağlayaraq, yaxın kəndlərdə gizlənirlər).

Andronik şəhərin təslim olmadığını gördükdə əmr edir ki, hücuma başlasınlar. İgid Naxçıvanlılar ermənilərdən qorxmayaraq, vuruşa-vuruşa onları şəhərə yaxın

burxmırlar. Həmin atışmalarda şəhərdəki Əlixan, Şahab, Qala və digər məhəllələrin könüllü döyüşçüləri fərqlənərək, ermənilərin qarşısını alırlar.

1918 ci ilin 3 iyul tarixində Osmanlı türküyəsinin IX-XI süvarı atıcı alayları Andronikin quldur dəstələrini izləyərək Naxçıvana tərəf gəlirlər. Türklər Duzdağın təpələrindən ermənilərin düşərgəsini top atəşinə tuturlar. Bundan qorxuya düşən Andronik dəstəsini götürərək Sirab kəndi istiqamətində qaçmalı olur.

Naxçıvanlılar şəhərin girəcəyində Türk ordusunun komandanı Kazım Qarbəkir Paşanın (1882-1948) Türk Azadlıq əsgərlərini sevinclə qarşılayırlar.

(Əhali ermənilərə qarşı döyüşlərdə şəhid olanların cənazələrini Nuh türbəsi yaxınlığındakı "İmamzadə məscidi" ətrafında dəfn etmişlər. XI Türk Qafqaz dviziyası komandanı Cavid Paşa (...?-...?) tərəfindən Naxçıvanla Nehrəm kənd döyüşçülərinə türk ordenləri verilir).

Andranikin dəstəsi Sirab kəndinə gedərək əhalini kənddəki məscidə yığaraq, diri-diri yandırır. (Quldurlar sonradan qonşu Qahab kəndinə gedərək evləri yandırmaqla əhalisini də ğılıncla doğramışlar).

Erməni gavurları müqəddəs Əshabi-Kəhf dağının yanından keçərkən, oradakı mağaraya kəşfiyyat məqsədli adamlar göndərir. Onlar mağaranın içərisində olanda divarlara güllə atırlar. Bu vaxt mağaranın divarları titrəyir və yuxarıdan böyük bir qaya parçası uçaraq gavurların yolunu kəsir. Zəlzələdən qoxan ermənilər durmadan yaxındakı Nuhəcir kəndinə tərəf gedirlər. (Onlar kənddəki "Cəviz ağacı çeşməsi"ni batıraraq Qazançı kəndi istiqamətində hərəkət edirlər)...

Erməni quldurları Əlincə çayı sahilindəki kəndləri yandıra-yandıra gedib və əhalisini də öldürürlər. Andronikin süvari dəstəsi tələsik şimal-qərb istiqamətində gedərək, Zəngəzurun "Eşşək meydanı" aşırımında (2862m.) "yapon"təxəllüslü Haçikin dəstəsi ilə görüşürlər.

"Yapon"un quldur dəstəsi Andranikin dəstəsindən ayrıldıqdan sonra, Aza kəndində qohumları ilə görüşüb dincəlirlər Ertəsi günü ermənilər Ordubadın kəndlərini yandırıb və əhalisini də əzabla öldürmüşlər. (1989-cu ilədək Naxçıvan və Aza kəndində H.Torosyanın yaxın qohumları qalıb yaşamış. Quldur dəstəsi Ordubad şəhərinə girmədən Arazın sahili ilə gedərək Mehri-Nüvədi ərazilərindəki kəndlərə basqın edib və əhalisini də Araz çayında güllələmişlər. Daha sonra onlar Androniklə sözləşdiyi yerə, Gorusa tərəf hərəkət edirlər)...

1918-ci ilin 4 sentyabr tarixində ermənilərin quldur dəstələri Gorusda görüşüb və S.Şamuyanın (1878-1918) Bakıdan çaparla göndərdiyi məxfi məktubla tanış olmuş. Andronik dəstəsini Xaçikə verib məktub əsasında yaxın adamları ilə əvvəl Tiflisə, ordan da tələsik Batum gəmi limanına gedərək, ömrünün qalanını da Parisdə mühacirətdə keçirməli olmuşdur. (Tiflisdə saxta pasport və qızıl zinətlərini əlinə keçirən, Şaumyan, gürcü menşevikləri tərəfindən öldürülür).

1918-ci ilin 18 oktyabr tarixində Naxçıvan şəhərində Türküyə Cümhuriyyəti nümayəndələrinin iştirakı ilə Naxçıvan Araz (türk) Cümhuriyyəti yardılır.

Cümhüriyyətin mərkəzi şəhəri Nuh yurdu Naxçıvan, Azərbaycan Demokratik Cümhuriyyəti tərkibində qalır. (Naxçıvan Araz (türk) Cümhuriyyətinin dövlət bayrağında Azərbaycan Cümhuriyyəti dövlət bayrağındakı rəmzlər təkrarlanaraq, sufi əlifba ilə “Araz Cümhuriyyəti” yazılmış).

Dövlətin torpaq əraziləri 16.000 km2 , əhalisi isə 1.000.000 nəfərə yaxın olmuşdur. Əhalinin milli tərkibi 96 %-i Azərbaycan türkləri, 4 %-i isə kürd, erməni və rusiyadan gətirilmiş malokanlardn ibarət idi.

Araz Cümhuriyyətinin inzibati ərazisində Naxçıvan, Şərur, Dərələyəz və Ordubad qəzaları habelə Sərdərabad, Uluxanlı, Vedibasar, Qəmərli, Mehri, Nüvədi mahalları, Zəngəzur dağ silsiləsi ilə Araz çayından şimal tərəfdəki torpaq sahələri olmuşdür.

Naxçıvan Araz (türk) Cümhuriyyəti Dövlət Sədri vəzifəsinə Kazım Qarabəkir Paşanın məsləhəti ilə əvvəllər İqdır vilayətinin valisi olmuş Mirzə Nəsrullahbəy Bəktaşi (...?-...?) seçilmişdir. Dövlətin Nazirlər Şurasının Sədri Əmirbəy Ələkbərzadə (...?-...?) ilə bərabər aşağıdakı tərkibdə nazirləri olmuşdur;

İbrahimbəy Cahangirzadə (hərbi nazir).

Əlibəy Bənəniyarlı (inzibati-ərazi naziri).

Həsənağa Səfərzadə (xarici işlər naziri).

Məhəmməd Bəyzadə (ədliyə naziri).

Mirzə Hüseyn Həsənzadə (fövqəladə işlər naziri).

Naxçıvan Araz (türk) Cümhuriyyətinin İrəvan şəhərindəki nümayəndəsi Məmməd Təkinski (...?-1920) olmuşdur.

1918-ci ilin 30 oktyabr tarixində “Mindros” sülh müqaviləsinin şərtlərinə görə, Türk əsgərləri Nuh yurdu Naxçıvandan gedəndə döyüş sursatlarını Araz Cümhuriyyətinin hərbi naziri İ.Cahangirzadənin iştirakı ilə “Cimən məhəlləsi”ndəki anbara yığmışlar. Döyüş-sursat anbarının mühafizəsini türk “fərari” əsgəri Xəlilbəyə tapşırılmış. (Türklərin Naxçıvandakı silah-sursat anbarı, 1968-ci ildə Vilayət həmkarlar Şurasına inzibati bina tikiləndə, həyət sahibi Rəsul Rəhimovun zirzəmisindən tapılmış. Təhlükəsizlik orqanlarının işçiləri tərəfindən həyət sahbini “evində məxfi silah anbarı saxlamaqla”məsuliyyətə cəlb etmişlər).

1918-ci ilin 7 dekabr tarixində M.Rəsulzadənin (1884-1955) sədrliyi ilə Bakıda Azərbaycan Demokratik Cumhuriyyətinin parlamenti, Naxçıvandakı Araz (türk) Cümhuriyyətinə bir tərəfli mövqe saxlamış...

1919-cu ilin 8 mart tarixində Naxçıvan Araz (türk) Cümhuriyyətinin nümayəndələrini Bakıya çağırırlar. Azərbaycan parlamentinin iclasında Naxçıvan nümayəndəsi Paşa Əliyev (...?-...?) çıxış edərək Naxçıvandakı mövcud siyasi vəziyyəti bildirir. (Azərbaycan parlamentinin iclasındakı stenoqrammasına P.Əliyevin çıxışı, nədənsə salınmamışdır).

1919-cu ilin əvvəlində Nuh yurdu Naxçıvana İngilis əsgərləri polkovnik Doluxanyanın başçılığı ilə gələrək və daşnaklardan qızıl almaqla əraziləri ermənilərə bağışlamaq istəmişlər. Həmin ilin ikinci yarısında (ingilislər gedəndən sonra) ABŞ dövlətinin İrandakı hərbi qüvvələrinin komandanı polkovnik B.Hasgel, silahlı dəstəsi ilə Naxçıvana gəlir. Amerikalılar Naxçıvana gəldiyi gündən özbaşınalıq edərək Araz (türk) Cümhuriyyətini tanımaq istəmirlər və “Təbriz meydanı” məhəlləsində özlərinə malikanə (qubernatorluq) tikdirirlər. Onlar Naxçıvanda “ABŞ dövlətinin qubernatorluğu”nu yaradaraq, binadan qara-qırmızı zolaqlı bayraqlarını asıb və qarşısında da dairəvi park salırlar. (Həmin “ağ ev”adlanan bina ilə dairəvi park, 1967-ci ilədək şəhərdə qalırdı)...

1919-cu ilin əvvəlindən Azərbaycan Maliyyə Naziri Əliağa Həsənovun (1871-1938) dekreti ilə, Bakı şəhərində Dövlət Bangı açılaraq Gəncə, Şamaxı, Naxçıvan və Lənkəran bölgələrində də şöbələri yaradılır. Nazirlər Şurasının sədri H.Yusifbəyli və Maliyyə naziri Ə.Həsənovun imzası ilə təsdiq olunmuş 5, 10, 100, 1.000 və 5.000, 10.000, 25.000, 50.000 manatlıq yeni kağız pullar tədavülə buraxılır. Bundan başqa 1.000.000 və 10.000.000 manat dəyərində “qızıl pul”əskinaslar da dövriyyə buraxılmışdır. Bakı şəhəri bələdiyyə idarəsi tərəfindən 500 manatlıq uduşlu istiqraz Bang biletləri də buraxılaraq bölgələrdə əhaliyə satılmış.

1920-ci ilin yanvar ayından ABŞ dövlətinin əsgərlərinə "gavur kimi" ərzaq satılmadığından, və xarici siyasətdə səhfə yol verdiklərindən Naxçıvanı tərk etməli olurlar.

(Vətən tarixində silinməz iz qoymuş Naxçıvan Araz (türk) Cümhuriyyəti, cəmisi iki il yaşasa da zamanın hökmü ilə bolşeviklər tərəfindən süquta çatdırılır)...

1920-ci ilin 30 mart tarixində Sovet Rusiyasının XI Qızıl Ordusu komandanı M.Levandovskinin başçılığı ilə zirehli hərbi qatar, Şimali Qafqazı ələ keçirdikdən sonra Dərbəndə gəlib çatır. Həmin tarixdə Azərbaycan müsavat hökumətinin Beşinci kabinə sədri Nəsibbəy Yusifbəyli (1888-1920), vəzifəsini buraxaraq istefaya çıxır.

1920-ci ilin 22 aprel tarixində Azərbaycan Cümhuriyyətinin parlament iclasında Məmmədhəsən Hacınskinin (1875-1931) rəhbərliyi ilə müsavat hökumətinin fəaliyyətinə son qoyulur. (Çox maraqlıdır ki, həmin sonuncu iclasda "Sosialist", "İttihat" və "Əhrar" siyasi partiya nümayəndələri, bolşeviklərin tərəfini saxlayırlar). Həmin gecə Bakının Sabunçu dəmir yolu vağzalına, Sovet Rusiyasının XI Ordusunun siyasi rəhbəri V. Pankratov və ordu komandiri M.Q.Yefremovun başçılığı ilı zirehli qatar gəlir.

Zirehli qatarda Azərbaycan bolşevikləri Q.Musabəyov, H.Cəbiyevlə bərabər Bakı kommunarlarından sağ qalmış Anastas Mikoyan (1895-1978) da gəlir. (Bax, M.Yaquboğlu "Məmmədəmin Rəsulzadə", Bakı-1991, səh. 149) M. Rəsulzadənin Bakıda yaratdığı Azərbaycan Demokratik Cumhuriyyəti 1920-ci ilin 22 aprel tarixində iki il müstəqillik əldə etdidən sonra süquta çatır.

Moskvadan V.Leninin göstərişi ilə Bakıda S.M.Kirov (1886-1934), Q.K.Orconikidze (1886-1934), M.N.Nərimanov (1870-1925) və A.Mikoyandan (1895-1978) ibarət yeni Azərbaycan Xalq Hökuməti nümayəndəliyi yaradılır.

**1920-ci ilin 28 aprel tarixində Bakıda yaradılmış Müvəqqəti İnqilab Komitəsi tərəfindən Azərbaycanda Sovet hakimiyyəti elan olmuş.**

1920-ci ilin iyul ayında əksiinqilabçı general Şolkovskinin komandanlığı ilə, erməni daşnaklarından ibarət silahlı dəstəsi "Ermənistan"da yaşayan 500 mindən çox Azəri türklərini yurd yerlərindən qovaraq və Şərur ərazilərinə qaçqın salır. Ermənilər qaçqınların arxasına düşərək Şərur kəndlərində yerli əhalini öldürürlər. Bunu görən əhali də qaçqınlara qoşularaq Şaxtaxtı körpüsündən İrana keçirlər. Vedibasarlı Abbasqulu Şadlinskinin (1886-1930) silahlı dəstəsi də Araz çayından keçərək Makuya tərəf gedirlər.

1920-ci ilin iyul ayının 5-8-də Rus hökumətinin siyasi rəhbəri M.Q.Yefromovun (1897-1942) başçılığı ilə "qırmızı əsgərlər" Zəngəzurun Sisyan, Gorus və Qafan ərazilərindəki daşnak H.Torosyanın silahlı dəstəsini dağıdırlar.

(Rus əsgərləri Gorus-Naxçıvan yolu ilə "Ərikli gədiyi" aşırımından keçərək gəlib Kolanı kəndinə çatırlar)...

1920-ci ilin 29 iyul tarixində Rus əsgərlərini Naxçıvanda sosial demokrat fəallarından Ə.Rüstəmov, M.Bəktaşi, G.Əsgərov, A.Qədimov, F.Mahmudov, Q.Babayev və başqaları qarşılamışlar.

Cəfərquluxan Naxçıvanski (1881-1939), "qırmızıların" Naxçıvana gəlməsindən xəbər tutaraq malikanəsindən bayıra çıxmır və onların nümayəndəsini də qəbul etmir.

Ertəsi günü xan şəhərdəki yaxın adamları ilə vidalaşanda uca səslə camaata belə demişdir:-"Məni halal edin. Sizləri Allaha tapşırıb gedirəm. Daha yorulmuşam, Vətəndən və bir-birinizdən qeyrətlə muğayat olun. Unutmayın ki, su gələn arxa bir də gələr..."

Bundan sonra Nuh yurdu Naxçıvanın sonuncu hakimi Çəfərquluxan, əzəmətli Mömineəxatun məqbərəsi ətrafına dolanaraq nikbinliklə malikanəsinə baxıb və faytonuna oturmuşdur... (1920-ci ildə həmin hadisələrin iştirakçısı A.Haçı Məhəmməd oğlunun (1888-1973) söyləmələrindən). Cəfərqulu xan Naxçıvandan Makuya getməmişdən bir ay öncə oğlu III Kərbəlayi Əlini (Kalbalını) (1888-1934), Təbriz şəhərinə Şeyx Məhəmməd Xiyabaninin (1879-1920) yanına göndərir ki, onu hərbi vəzifəyə götürsün. Elə həmin ilin son ayında Təbrizdə Miyanəli Şeyx Həsənəlinin evində gizlənmiş Xiyabani, (əksi inqilabçı osetin kazağı) Rus ordusunun süvari komandiri polkovnik Z.Biçeraxov tərəfindən qəddarlıqla qətlə yetirilmişdir. III Kalbalı bəy Naxçıvanski Təbrizdə Xalq ordusunun hərbi işlər üzrə müşaviri olsa da, tezliklə 1934-cü ildə erməni casusları tərəfindən öldürülür. Mərhumun məzarı Təbriz şəhərindəki Fədai qəbiristanlığındadır. (Bax, F.Bağırov "Ziyarətnamə", Bursa-1996).

1920-ci ilin sentyabr ayında Naxçıvanda yaradılmış Fövqəladə komissar Bahadur Qasım oğlu Vəlibəyovun 1894-1938) və hərbi işlər rəisi Studnevin rəhbərliyi ilə Nuh yurdu Naxçıvan Diyarı Xalq Respublikası elan olunur.

Naxçıvan Diyar Xalq Respublikasında bütün hakimiyyət sovetlərə verilərək, ərazidəki 12 dairə və 3 uyezd inzibati sahələr xalqın ixtiyarına verilir. Yeni hökumətin qərarı ilə İrana keçmiş Abbasqulubəyin özünümüdafiə dəstəsini Naxçıvana dəvət edirlər. Silahlı dəstə mütəşəkkil surətdə Culfa körpüsündən Naxçıvana keçəndə, "Qırmızı tabor" adı verilir.

Həmin ilin 30 sentyabr tarixində Azərbaycan torpaq ərazilərinin bir hissəsi Rusiyaya, Gürcüstana və Ermənistana verilərək Qafqazda müttəfiq respublikalar yaradılır. Eyni zamanda Naxçıvanın Zəngəzur əyalətini (Nüvədi, Mehri, Gorus, Dərələyəz, Vedibasar, Göycə və s.) də Azərbaycandan ayırmaqla Ermənistana bağışlayırlar. (Erməni daşnakları Zəngəzur mahalında Azəri türklərinə qarşı siyasi zorakılıqlarını davam etdirirlər)...

1920-ci ilin oktyabr ayında Naxçıvan Diyar Xalq Respublikası tərəfindən "qırmızı tabor"çulara ermənilərə qarşı döyüş tapşırıqları verilir. Onlar, Əznəbürt-Qarabağlar kəndləri səmtində irəliləyərək Bağırsaqdərə-Sədərək arasındakı mövqeləri tutub və Arazdəyən-Çanaxçı kəndlərindəki döyuşçulərlə birləşirlər. Həmin əməliyyat noyabr ayında uğurla nəticələnərək, döyüşlərdə daşnaklardan 1.200 nəfər əsir alınır. Bununlada Şərur qəzası bütünlükdə erməni quldurlarından təmizlənir. (Bax, Ə.Əliyev "Biz əzablı ömür yaşadıq", Bakı-1994 səh.54).

1920-ci ilin 29 noyabr tarixində Ermənistanda Sovet hakimiyyəti qurulduqdan sonra, Azərbaycan SSR Ədliyyə Komissarı Behbudağa Şaxtaxtinskinin (1881-1924) iştirakı ilə Ermənistan hökuməti tərəfindən Naxçıvan Diyarı, Azərbaycanın tabeliyində müstəqil Muxtar Respublika kimi tanınaraq və daşnakların iddiaları pislənilmişdir. (Bax, S.Sadıqov "Naxçıvan Muxtar Respublikası tarixindən", Bakı-1995, səh. 46).

1920-ci ilin 2 dekabr tarixində Türküyə ilə Ermənistan arasında Aleksandropol (Gümrü) tarixi müqaviləsi bağlanmışdır. Həmin müqavilənin şərtlərinə görə Türküyə ilə Ermənistan SSR arasındakı ərazi torpaq sərhədləri müəyyənləşdirilmiş və Naxçıvan Diyarı Azərbaycanın tərkibində qalaraq müstəqil dövlət kimi tanınmış. Bundan başqa Naxçıvan Diyarına hər hansı bir xarici dövlətin təcavüzü olduqda Türküyədən kömək istəməsi göstərilmişdir.

1921-ci ilin 13 fevral tarixində daşnaklar İrəvanda Xalq hakimiyyətini müvəqqəti olaraq ələ keçirirlər. Erməni quldurları Zəngəzurun Qarçevanla Mehri ərazilərini tutur və oradakı Azəri türklərini də öldürərək evlərini yandırır. Naxçıvan Diyar İnqilab Komitəsinin qərarı ilə Abbasqulubəyin silahlı dəstəsini Mehri ərazilərimə göndərirlər. Həmin əməliyyata Ordubad şəhərindən İbrahimxəlil Axundov (1897-1958) siyasi rəhbər kimi təyin olunur. "Qırmızı tabor"çular erməni quldurlarını təqib edərək, Zəngəzur mahalından uzaqlaşdırırlar.(Həmin döyüşlərdə hər iki tərəfdən ölənlər olmuş)...

1921-ci ilin 16 mart tarixində Moskvada RSFSR-lə Türküyə Respublikası arasında tarixi müqavilə imzalanmışdır. (Həmin müqaviləyə Vladimir Ulyanov və Mustafa Kamal Atatürk imza etmişlər).

İki dövlət arasındakı razılaşmada Naxçıvan Diyarından İbrahim Məhərrəm oğlu Əbilov (1881-1923) və Behbudağa Şaxtaxtinski (1881-1924) də iştirak etmişdir. Tarixi müqavilənin 3-cü bəndinə görə Naxçıvan Diyarı Azərbaycanın tərkibində qalmaqla, müstəqil Respublika kimi fəaliyyət göstərməlidir. Həmin tarixdən də Nuh yurdu-Naxçıvan Azərbaycan SSR-in tərkibində qalaraq, Naxçıvan Sovet Sosialist Respublikası adını qazanmışdır.

1921-ci ilin aprel ayında Naxçıvan hökumətinin fövqəladə iclası olur. İclasda Behbudağa Şaxtaxtinski, Naxçıvan SSR Xalq Komissarı Sovetinə birinci katib seçilmişdir. Bakıda isə N.Nərimanov tərəfindən İbrahim Məhərrəm oğlu Əbilov, Azərbaycanın Türküyədəki səfiri təyin olmuşdur.

İrəvanda erməni bolşevikləri tərəfindən Naxçıvan torpaqlarına sahib olmaq planları hazırlanıb Moskvaya göndərilir. Moskva müqaviləsinin şərtlərinə görə Türklərin şərq cəbhəsi Naxçıvana köməyə gəlir. Lakim Moskva hökumətinin təkidi ilə Türklər Naxçıvandan çıxarılır.

1921-ci ilin 13 oktyabr tarixində Türküyənin Qars şəhərində, Yenidən Naxçıvan xalqının əmin-amanlığını qorumaq üçün müqavilə imzalanır. Tarixi sənədin imzalanmasında Türküyə ilə Azərbaycan, Gürcüstan, Ermənistan, Rusiya və Naxçıvan hökuməti nümayəndələrinin iştirakı ilə, 1920-ci il 2 dekabr tarixli Gümrü və 1921-ci il 16 mart tarixli Moskva müqavilələrinin şərtləri təsdiq olunmuş. (Həmin müqavilədəki 20 maddə ilə 3 əlavədən ibarət bəndlər nəzərdən keçirilərək, razılıqla təsdiq olunmuşdur).

18 gün (26 sentyabr-13 oktyabr) davam edən razılaşmada Türküyə tərəfindən Kazım Qarabəkir, Vəlibəy, Muxtarbəy və moskvadakı səfir Məmbuh Şövkətbəy, Ermənistan tərəfdən Xarici İşlər Komissarı İ.Mravyan, Daxili İşlər Komissarı B.Makinzyan, Azərbaycan tərəfdən Xarici İşlər Komissarı Behbudağa Şaxtaxtinski, Türküyədəki səfir İbrahim Əbilov, Gürcüstan tərəfdən Müdafiə Komissarı Ş.Eliava, Daxili İşlər Komissarı A.Svanidze və Rusiya Federasiyasından da, Xaric İşlər Komissarı Y.Qanetski iştirak etmişlər.

Tarixi Qars müqaviləsinin 3-cü bəndi ilə Naxçıvan Respublikasının ərazi inzibati sərhədləri aşağıdakı kimi olmuşdur;

-Urmiya kəndi, sonra düz xətlə Arazdəyən dəmir yolu stansiyası, suayrıcı xətlə şərqi Daşburun dağı, Cəhənnəmdərə çayından keçməklə “Bulaq”dan cənubdakı Bağırsaqdərə dağının suayrıcı xətti ilə, keçmiş İrəvan, Şərur, Dərələyəz qəzalarının inzibati sərhəddindəki 6625 m. dağ yüksəkliyindən keçməklə Gömürlü (3000 m.) dağı və sonra

Sayat (3080 m.) dağı ilə gəlib Qurdqulağı kəndi, Həməsur (3022 m.) dağı, Kükü (3120 m.) dağı və keçmiş Naxçıvan dairəsinin (Şahbuz rayonu) şərq inzibati sərhəddinin zolağı və sairə.

Naxçıvan ərazisi Türküyə ilə sərhəd zolağının uzunluğu Araz çayı boyunca 11 km., İranla 176 km. və Ermənistanla isə 881 km. məsafədədir. Lakin ermənilər dəfələrlə Sovet rəhbərlərindən A.Mikoyan (1895-1978), N.Xruşşov (1894-1971), M.Qorbaçov (1931-....), K.Bağırov (1933-1997) və başqalarının laqeydliyi üzündən torpaq əraziləri "qayçılanaraq" əllərinə keçirmişlər. (Müqayisə üçün haliyyədə Ermənistanla Naxçıvanın sərhəd xəttinin uzunluğu 881 km.-dən azalaraq 224 km.-ə çatdırılmış və 655 km.-lik torpaq sahələrimiz isə, ermənilər tərəfindən tutulmuşdur).

Türküyə dövlətinin xəbəri olunca, tarixi Qars müqaviləsinin şərtləri kobudluqla pozularaq və müxtəlif illərdə Naxçıvan torpaq əraziləri ermənilərə pay verilmişdir. Bununla da Rus xaçpərəstləri üçün Cənubi Qafqazda Ermənistan adlı qondarma "dövlət" yaradılmış.

Sovet Rusiyası tərəfindən 1929-31, 1936-37 və 1949-cu illərdə Ermənistana pay verilmiş ərazilərimiz aşağıdakılar olmuş:

Şərur qəzasından Qurdqulağı, Xaçik və Horadiz kəndləri.

Naxçıvan qəzasından (Şahbuz nahiyyəsindən) Ağbinə, Ağxaq, Almalı, Dağalmalı, İtqıran və Sultanbəy kəndləri.

Ordubad qəzasından Qərçivan, Mehri, Buğkər, Kilid, Tastun, Çaykənd, Baharlı, Qacaran, Maralzəmi, Aldərə, Nüvədi və s. (1980-ci illərdə isə Ordubad rayonundakı Kotam, Yuxarı Kilit kəndləri də, Ermənistana bağışlanıb. Bundan sonra 1991-ci ildə isə Şərur (Sədərək) rayonundakı Kərki kəndi erməni silahlı dəstəsi tərəfindən tutulmuş)...

1921-ci dərs ilindən Azərbaycanda icbari təhsil sistemi, məktəblərdə ibtidai (I-IV illik), natamam (VII illik) və orta (X illik) olur. Həmin ilin 16 oktyabr tarixində Bakıda Azərbaycan SSR-in Dövlət Bandı istifadəyə verilmiş. Bangın xəzinəsindən Sovet dövlətinin 1, 3, 5, 10, 50, 100, 500 və 1.000 saylı kağız pulları ilə üzərində RSFSR yazılmış oraq-çəkic simvollu 1, 2, 3, 5, 10, 15, 20 və 25 saylı dəyirmi mis-molibden xəlitəli qəpiklər əhalinin istifadəsinə buraxılmışdır. Bundan sonra isə 10, 25, 50 və 100 manatlıq uduşlu istiqraz biletləri də əhaliyə satılmlş.

1922-ci ilin 25 yanvar tarixində Naxçıvan SSR-də Birinci Sovetlər Qurultayı çağrılmış və Naxçıvan İnqilab Komitəsinin adı dəyişilərək, Naxçıvan SSR Mərkəzi İcraiyyə Komitəsi olmuşdur. Qurultayda Əhməd Haşımov Naxçıvan Firqə Komitəsinə katib seçilmişdir. Həmin Qurultayda Azərbaycan SSR XK Şurasının katibi Həmid Sultanovla, MİK sədri Ə.Quliyev də iştirak etmişlər. Həmin ilin 12 mart tarixində Azərbaycan, Gürcüstan və Ermənistan MİK-in səlahiyyətli nümayəndələri, Tiflis şəhərində ZSFSR-in yaradılmasını təsdiq etmişlər.

1921-ci ilin 1 dekabr tarizdən Naxçıvanda rusca "Cavanların həyatı" və "Füqara səsi" adlı həftəlik qəzetlər çıxmış və 1922-ci ilin 1 aprel tarixindən isə həmin qəzetinlərin bazası əsasında "Şərq qapısı" adlı vilayət qəzeti nəşr olunmuşdur.

"Şərq qapısı" qəzeti 1930-cu ilədək ərəb, 1940-cı ilədək latın və 1941-ci ildən isə rus əlibbası ilə nəşr olmuşdur. Bundan başqa Naxçıvanda 1921-ci ildə rusca "Naxrespublika" və 1931-ci ildə isə "Ədəbiyyat" adlı qəzetlər də nəşr olmuşdur.

1922-ci ilin 22 dekabr tarixində SSRİ-in ilk dövlət Konstitusiyası (əsas qanunu) qəbul olunur.

1923-cü ilin 2 noyabr tarixdən Azərbaycan Tədqiq və Tətöbbö Cəmiyyətinin Naxçıvan şöbəsi yaradılaraq, Mirbağır Mirheydərzadə (1877-1956) elmi katib seçilmiş.

1924-cü ilin 9 fevral tarixdə Azərbaycan SSR MİK-in qərarı ilə Naxçıvan Diyarının adı dəyişilərək, Maxçıvan Muxtar Sovet Sosialist Respublikası (Nax.MSSR) olmuşdur. Həmin tarixdə Muxtar respublikanın qanunverici orqanı ilə bərabər Konstitusiyası (Əsas Qanunu) da yaradılmışdır. Naxçıvan MSSR-in dövlət atributları Azərbaycan SSR-in bayraq və gerbini təkrarlayaeaq, paytaxt şəhəri də Nuh yurdu Naxçıvan olur.

1924-cü ildə Rus şura hökumətinin banisi V.İ.Leninə qəsd edilərək öldürülür. Dövlətin başına qəddar gürcü İ.V.Stalin (1879-1953) keçir.

(Tezliklə ermənilər Bakıda və Naxçıvanda hökumət idarəçiliyindəki vəzifələrə soxulurlaraq torpaq iddiası edirlər. Onlar daşnakların vəhşiliklərini xalqın yaddaşından silmək üçün şəhid məzarlarını da ləğv edirlər).

"Beynəlmiləlçi" Sovet daxili siyasəti ilə Qafqazdakı əvvəllər sahibkar olmuş görkəmli adamlar Sibirə və Qazağıstanın çöllərinə sürgün olunurlar. Bundan başqa Azərbaycanın torpaq ərazilərindən kəsilərək, Rusiyaya, Gürcüstana və Ermənistana verilimiş. Belə ki,

Zəngəzurla Göyçə mahalı Ermənistana, Marneuli, Qardabani və Mirzəani əraziləri Gürcüstana və Qasımkəndlə Dərbənd isə Dağıstana (Rusiyaya) birləşdirilmişdir.

Nuh yurdu-Naxçıvanda tarixi abidələr xaçpərəsr alimlər tərəfindən tədqiq edilərək, tapılan əşyalar Rusiyadakı muzeylərə göndərilir. Həmin illərdə Naxçıvanda tarixi arxeoloji qazıntı işləri aparanlar O.Vartanyan, A.Xaçaturyan, K.Smirnov, V.Sısoyev, K.Nikitin, N.Xanıkov, İ.Meşşannikov, A.Miller və başqaları olmuşlar.

1925-ci ildə Naxçıvan ərazilərinin tarixi mədəniyyətini öyrənmək məqsədi ilə "Tədqiq və Tətöbbö Cəmiyyəti" yaradılır.

1926-cı ildə Azərbaycan XMK-ın dekreti ilə Naxçıvan şəhərində "Zikir" pedaqoji və Təsərrüfat məktəbləri açılır. (1939-cu ildə pedaqoji məktəbin məzunlarından XX əsrin sonlarında Müstəqil Azərbaycan dövlətinin Prezidenti H.Ə.Əliyev 1923-2003) olmuş).

Həmin ildə Naxçıvan MSSR-in İlk Konstitusiyası (Əsas qanun) təsdiq olmuşdur.

1926-ci ilin 6 yanvar tarixində Naxçıvan XKŞ-ın qərarı ilə ölkəşünaslıq muzeyi açılır.

> *"Ey iman gətirənlər! Bilə-bilə Allaha, Peyqəmbərə və aranızdakı əmanətlərə xəyanət etməyin!"*
>
> **(Ənfal surəsi, 27)**

1928-ci ilin axırlarında Azərbaycanda 287 kollektiv təsərrüfatlar yaradılmışdır. Kolxozlarla yanaşı 20 min hektar yararlı əkin sahələri 15 dövlət təsərrefatlarına (sovxozlara) verilmiş. Keçmiş torpaq sahibləri şəxsi təsərrüfat alətlərini kolxozlara vermədikdə "kulak" sinfi düşmən damğasi ilə güllələnirlər.

1929-cu dərs ilindən Bakıda kənd təsərrüfatı sahəsində ali təhsil kadrları hazırlayan AKTİ açılmış. Həmin ildə Azərbaycan Xalq Maarif Komissarlığının dekreti ilə ərəb yazısından latın qrafikalı əlifbaya keçirilmiş. 1930-cu ildən Muxtar respublikada yeni sənaye sahələri tikilərək işə salınmış. Naxçıvanda çörək sexi, Ordubadda meyvə-konserv, Noraşendə pambıqtəmizləmə və Şahbuzla Əbrəqunisdə isə şərab emalı zavodları işə düşmüşdür.

1934-ci ildə Naxçıvanda təsərrüfatlara texniki yardım məqsədi ilə Maşın-Traktor-Stansiyası (MTS) tikilərək istifadəyə verilmişdir.

Azərbaycanda olduğu kimi Nuh yurdu-Naxçıvanda da əhali arasında ateist təbliğatı gücləndirilir. Məscidlər bağlanaraq anbarlara çevrilir. Məktəblərdə uşaq və yeniyetmələr oktyabr, pioner və komsomol tərbiyəsi ilə təlim alır. Savadsızlığa qarşı mübarizə güclənərək, gündüz, axşam məktəblərində icbari dərslərlə yanaşı klub və istehsalat sahələrində də savad kursları açılır. Naxçıvan teatrında aktyorlar tərəfindən səhnələşdirilmiş obrazlarda İslam dini və ruhanilər tənqid atəşinə tutularaq məsxərəyə qoyulur.

Azərbaycan hökuməti şərq qadınlarına "azadlıq" verərək çadra örtməyi qadağan edir. Naxçıvanda fəaliyyət göstərən Qadınlar klubunda müxtəlif sərgilər açılır, dərnəklər fəaliyyət göstərir və qadın azadlığından kurslar yaradılır. Əhali məcburi surətdə müxtəlif işlərə cəlb edilir. Kəndlərdə kolxoz və sovxoz işlərində , şəhər və qəsəbələrdə isə fabrik-zavod, peşə və sənət kombinatlarında sutkanın 9-10 saatını işləyirlər. (Dövlət asayişi gücləndirilərək çar rusiyasındakı jandarma və qaradovoylar sovet milisi ilə əvəz olunur)...

1937-ci ilin 10 mart tarixində Azərbaycan SSR-in ikinci Konstitusiyası (Əsas qanunu) qəbul olunmuş. Həmin ildə də Naxçıvn MSSR-in Konstitusiyası (Əsas qanunu) təsdiq olmuşdur. Sovet dövlətinin əvəz olunmaz "xalq atası" adlandırılmış İ.V.Stalin, sosializm quruculuğu illərində qəddarlıq edərək xalqı qorxu altında saxlamışdır.

1936-37-ci illərdə Sovet İttifaqının hər yerində olduğu kimi Naxçıvan Muxtar respublikasında da Daxili İşlər üzrə Xalq Komissarlğının Təhlükəsizlik şöbəsi tərəfindən görkəmli ziyalı kadlar tutularaq nahaqdan öldürülür.

1938-ci ildə Naxçıvan şəhərində əhalinin sağlamlığını qorumaq məqsədi ilə iki aylıq tibb bacısı kyrsu açılır. Bir ildən sonra isə Naxçıvan MSSR Xalq Səhiyyə Komissarlığının qərarı ilə Tibb məktəbi açılır.

1939-cu ilin 11 iyul tarixindən Azərbaycan Xalq Maarif Komissarlığının qərarı ilə 1940-ci ilin əvvəlindən latın yazı hərfləri, rus (kiril) yazı əlifbası ilə dəyişdirilir. (Həmin tarixdən də ölkə daxilindəki bütün rəsmi sənədlər də dəyişdirilmiş)... 1940-cı ildə Naxçıvanda 3 orta ixtisas (təsərrüfat, tibb və pedaqoji) məktəbləri fəaliyyət göstrmişdir. Həmin illərdə Nuh yurdu-Naxçıvandan görkəmli ziyalılar olmuşdur ki, onlardan Ə.Şərifzadə(1895-1988), L.Hüseynzadə(1903-2008), M.Təhmasib(1907-1982), N.Məmmədov(1907-1982), M.Abutalıbov(1908-1984), M.Cəfərov(1909-1992), Ə.Əliyev(1905-1997), Y.Məmmədəliyev(1905-1961) və başqalarını göstərmək olar.

Faşist NDP partiyasının yaradıcısı Adolf Hitler (1909-1945) Berlində Almaniyanın rəhbəri olduqdan sonra, SSRİ-də sosialist sistemini dağıtmaq istəmişdir. 1939-cu ilin 1 sentyabr tarixdən hitlerçilər, müasir silahlarla silahlanaraq Polşa ərazilərini tuturlar. Almanlar 30 sentyabr tarixdən sonra isə Avropanın digər dövlətlərinə basqın edərək, İkinci Dünya müharibəsini başlayırlar.

1941-ci ilin 22 iyun tarixində faşist Almaniyası, Sovet dövləti ilə bağladığı sülh müqaviləsini pozaraq qəflətən SSRİ-nin qərb sərhədlərinə, 190 sayda mexanikləşdirilmiş qoşun dəstələri ilə hücuma keçir. Faşistlərin niyyəti "ildırım sürəti ilə" irəliləmək və Moskva şəhərini ələ keçirməkdən ibarət idi. Həmin ilin 30iyun tarixində Moskvada İ.Stalinin rəhbərliyi ilə Dövlət Müdafiə Komitəsi yaradılır. Avqust ayında isə Azərbaycandan könüllü 402-ci milli dviziya yaradılaraq Bakıdan Mozdoka göndərilir.

Müharibənin ilk günlərindən Azərbaycan rəhbəri M.Bağırov (1906-1956), dəfələrlə döyüş bölgələrində olaraq əsgərlərin qayğıları ilə maraqlanmış. 1941-ci ilin oktyabr ayında Azərbaycandan 223-cü milli dviziya yaradılaraq döyüş bölgəsinə göndərilir. Daha sonra isə Azərbaycandan 77, 227, 271 və 416-cı milli dviziyalar da yaradılaraq döyüş cəbhələrinə göndərilmişdir.

İkinci Dünya müharibəsidə ölkədə olduğu kimi Naxçıvan Muxtar respublikasında da könüllü müdafiə fondu yaranmış. Həmin fonda əhalidən 120.800 manat pul vəsaiti, o cmlədən də 1 milyon 727 min manatlıq istiqraz biletləri və 7 kq-dan şox zərgərlik məmulatları toplanmışdır. Dövlət tədarük məntəqələrinə 66 ton taxıl, 64 ton ət, 2.155 kq yun, 897 kq kərə yağı, 10,6 ton tərəvəz, 3.634 cüt yun corab, 1.461 cüt yun əlcək və sairə yığılaraq əsgərlərə göndərilmiş. (Bax, "Şərq qapısı" qəzeti, 22 oktyabr 1941- ci il).

Beş il müddətində faşizmə qarşı Sovet dövlətinin mübarizəsindən sonra, almanların şərq müttəfiqi olan Yapon imperialistləri də qəflətən SSRİ-nin şərq sərhədlərinə basqın edirlər. (Bax, M.Kolesnikov "Rixard Zorge" Bakı-1981).

1945-ci ilin 9 may tarixində Sovet dövlətinin Qələbə bayrağı Berlindəki Reyxstaq binasına çancılır. Həmin ilıin 9 sentyabr tarixində ABŞ-ın hərbi təyyarəçiləri tərəfindən Yaponiyanın Naqasaki və Xirosima şəhərlərinə Atom nüvə bombası salınmaqla, imperialist Yaponiyası da danışıqsız təslim olur.

İkinci Dünya müharibəsində Nuh yurdu-Naxçıvandan üç nəfər, Qəzənfər Əkbərov (1917-1941), Nəcəfqulu Rəfiyev (1912-1970) və Abbas Quliyev (1916-1997) Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüş. Naxçıvanlı döyüşçülərdən general-mayor A.Abbasov, polkovnik M.Mahmudov, leytenant R.Rəhimov, kiçik leytenantlar B.Bağırovla M.Əliyev

isə Şöhrət ordeni ilə mükafatlanmışlar. Müharibə illərində Naxçıvandan cəbhəyə 29.024 nəfər könüllü əsgər getmişdir ki,onlardan 15.329 nəfəri həlak olmuşdur. (İkinci dünya müharibəsindən sonra Naxçıvan xalqı sosializm uğrunda beşillik dövlət planlarını ödəməyə çalışırlar).

1949 cu ilin 28 may tarixində Muxtar respublikanın yaradılmasının 25-ci ildönümünü təntəntənəli şəraitdə keçirilmişdir. Həmin illərdə Nuh yurdu-Naxçıvanda yüzlərlə məktəb, müllimlər institutu, pedaqoji və musiqi məktəbləri, kənd təsərrüfatı ilə tibb texnikumları və Azərbaycan MEA-nın Naxçıvan Elm Bazası da fəaliyyət göstərmiş. (Bax, "Şərq qapısı" qəzeti, 1949-cu il, №61).

1949-50-ci illərdə Azərbaycan Səhiyyə nazirliyi tərəfindən Nuh yurdu-Naxçıvan ərazilərindəki mineral bulaqların kimyəvi tərkiblərini öyrənmək məqsədi ilə Bakıdan mütəxəssislər gəlir. Onlar 48 mineral su bulaqlarının təsnifatını öyrənərək, müalicəvi əhəmiyyətini də aşkar edirlər. Şahbuz rayonundakı "Badamlı" mineral süfrə suyu həmin ildən sənaye üsulu ilə istehsal olunr.

1953-cü ildə Sovet dövlətinin başçısı İ.Stalinin ölümündən sonra, tezliklə yüksək vəzifəyə N.S.Xryşşov (1922-1973) keçmiş. Sov.İKP-ın XX qurultayında Stalin hakimiyyətinin siyasi işləri tənqid olaraq, şəxsiyyətə pərəstiş adı ilə pislənilir. (Kommunist partiyasındakı "bolşevik"sözü silinmiş və nizamnamədə dəyişiklıklər edilmişdir).

N.Xruşşov Stalin dövründəki məhkumlara aministiya verərək "xalq düşməni" damğası ilə tutulanlara bəraət verərək bağışlamışdır. Bundan sonra Kommunist partiyası sıralarına məhkum olmuşların uşaqları da üzv olurlar.

1954-cü ildə Naxçıvan şəhərindəki yeni tikilib istifadəyə verilmiş 200 yerlik səsli kinoteatr, əhalinin xidmətinə verilir. Kino seanslarından əvvəl gənc ifaçıların özfəaliyyət yaradıcılığı da təşkil olunurdu.

Azərbaycanda kitab nəşri 1960-cı ilədək 10 milyon 250 min nüxsəyə çatdırılaraq, əhalinin xidmətində 2.600 kitabxana fəaliyyət göstərirdi.

1959-60-cı illərdə Sovet İttifaqında xarici siyasətdə səhvə yol verildiyindən, daxili siyasətə də təsir göstərmiş və nəticədə zəhmətkeş əhalinin güzəranı pisləşmişdir. Həmin illərdə Naxçıvanda hər gün adam başına 250 qr qara cörək düşdüyündən, əhali gecədən çörək dükanlarının qarşısında saatlarla növbə çəkməli olurdu. Azərbaycandakı istehsal olunan mallar yalnız Moskvaya göndərilirdi. Ölkədəki ərzaq qıtlığını nizama salmaq

üçün, SSRİ Nazirlər Soveti yanında Xalq Nəzarəti Komitəsi yaradılır. Daha sonra isə SSRİ Maliyyə Nazirliyində islahatlar aparılaraq, köhnə pullar yenisi ilə dəyişdirilir.

1961-ci ildə Sovet pulları dəyişdirilərək, əvvəlki 10 qəpik 1 qəpik dəyərində olmaqla 1, 2, 3, 5, 10, 15, 20, 50 və 1 manat qəpik və 1, 3, 5, 10, 25, 50, və 100 nanat kağız pullar banglardan tədavülə buraxılır. (Bundan başqa əmək əmanət kassalarından 2%-li daxili uduşlu istiqraz və yeni pul-şey lotereya biletləri də əhaliyə satılır)...

1963-cü ilin 15 mart tarixindən Naxçıvan şəhərində Tele-Radio Stansiyası işə salınaraq, gün ərzində iki saatdan artıq verilişlər efirə buraxılır. Həmin tarixdən də Naxçıvanda Dövlət Tele-Radio Verilişləri Komitəsi yaradılmış.

1964-cü ildə Nuh yurdu Naxçıvan xalqı, Muxtar respublikanın 40 illiyini təntənəli surətdə qeyd etmişlər. Həmin ilin sentyabr ayında Sovet dövlətinin başçısı L.İ.Brejnev (1906-1982) olur. Araz çayı üzərindən İran və Sovet dövlətləri arasında bənd çəkilərək, Su Elektrik Stansiyasının tikintisinə başlanılır.

Naxçıvan şəhərində tikintisi başa çatmış H.Cavid adına genişekranlı müasir texniki vasitələrlə təchiz olunmuş kinoteatr və C.Məmmədquluzadə adına Dövlət Musiqili Dram Teatr binalari da istifadəyə verilir. Naxçıvan zəhmətkeşləri xalq təsərrüfatının bütün sahələrində yüksək nailiyyətlər qazanırlar. Kənd təsərrüfatı sahəsində fəxri ad almış əmək adamlarından B.Talıbova, M.Eminov, L.Babayeva, A.Əliyeva, N.Quliyeva, R.Rüstəmova və başqaları olmuş. Xalq təsərrüfatının müxtəlif sahələrində fəxri ad alanlardan qaynaqçı F.Bayramov, qazmaçı S.Novruzov, quraşdırıcı V.Talıbov, poliqrafçı F.Bağırov, həkim C.Cəfərov, müəlimlərdən İ.Şükürov, F.Əliyeva, M.Tutayuq, R.Bəktaşi və başqaları olmuş. Naxçıvan MSSR qazandığı nailiyyətlərə görə SSRİ hökuməti tərəfindən “Lenin” və “Oktyabr bayrağı” ordenləri ilə təltif olunur.

1965-ci ilin 9 may tarixində SSRİ Ali Sovetinin qərarı ilə, faşizm üzərində Qələbənin 20 illiyi tədbirləri keçirilir. (Maliyyə Nazirliyinin qərarı ilə üzərində “Qələbə XX il” yazılı 1 manat qəpik pullar banglardan buraxılır).

1967-ci ildə Naxçıvanda Ədəbiyyat Muzeyi açılır. Həmin ildən “Araz” Mahnı və Rəqs Ansamblı yaradılaraq zəhmətkeşlərin mədəni xidmət səviyyəsi yüksəlir. 1967-ci dərs ilindən Naxçıvan şəhərində Azərbaycan Pedoqoji İnstitutunun filialı açılaraq ali təhsilli müəllim kadrları hazırlanır. (Həmin ildən Naxçıvan rayonundakı Sirab kəndində sənaye üsulu ilə “Sirab” mineral su zavodu da işə salınmış).

1969-cu ilin avqust ayından Azərbaycan KP MK-ın birinci katibi vəzifəsinə Heydər Əlirza oğlu Əliyev (1923-2003) seçilir.

1970-ci ildən Naxçıvanda Araz çayı üzərində tikilən SES-ın birinci bloku istifadəyə verilir. (Həmin ildən Noraşen rayonundakı Arpaçayı üzərində də "Dəvəölən" ərazisində su anbarı tikintisinə başlayırlar).

1974-cü ilin oktyabr ayında Muxtar respublikanın zəhmətkeşləri, Naxçıvan MSSR-in 50 illiyini qeyd edirlər. Bu münasibətlə Moskva hökuməti 3 oktyabr 1974-cü il tarixli fərmanı ilə Naxçıvan MSSR-ə "Oktyabr inqlabı" fəxri ordeni vermiş, SSRİ Ali Soveti, Nazirlər Soveti və Həmkarlar Şurasının "Keçici Qırmızı Bayrağı" ilə təltif olunmuş. Bu münasibət ilə Bakıdan Naxçıvana gələn Azərbaycan KP MK-ın birinci katibi H.Ə.Əliyev, Naxçıvan xalqını təbrik edərək, Mərkəzi meydandakı Leninin qranitdən yonulmuş 7 metrlik abidəsini də açmışdır. Əvvəllər filial kimi fəaliyyət göstərən pedaqoji institutut, akademik Y.Məmmədəliyevin adını daşıyaraq müstəqil ali məktəb olur.

Naxçıvan zəhmətkeşlərinin xidmətində yeni təyyarə limanı, rabitə evi, mehmanxana, sərgi pavilyonu və digər sənaye sahələri də tikilərək istifadəyə verilir. Naxçıvanlılar artıq televiziya ekranlarında Bakı ilə Moskvanın da verilişlərini izləyə bilirlər.

1974-cü ildə Nuh yurdu-Naxçıvanda elmi-texniki və mədəni-sosial sahələr əvvəlki illərə nisbətən sürətlənir. Muxtar respublikadakı 200-dən çox məktəblərdə 3.500-dən çox ali təhsilli müəllimlər çalışır. Bu illərdə 100 nəfər müəllimə "SSRİ Xalq müəllimi" fəxri adı verilmiş. Muxtar respublikada 174 sayda klub və mədəniyyət müəssisələri, 200-dən çox kitabxana, muzeylər , mahnı və rəqs ansamblı, teatrlar, park və bağlar xalqın xidmətində idi.

Muxtar respublikada 135 daimi kino qurğusu, 7 kinoteatr , ocümlədəndə, 6 yau zalı,11 səyyar kino maşını, qırmızı təşviqat çadırları, "Bilik" cəmiyyətinin səyyar kino maşını da xalqa mədəni xidmət göstərmişdir. Naxçıvan Muxtar respublikasında 6 kino mexanik nümunəvi xidmətlərinə görə "SSRİ əlaçı kinomexaniki" döş nişanı almış, qazandıqları yüksək mədəni xidmətə görə SSRİ Həmkarlar İttifaqı tərəfindən "Keçici Qırmızı bayraq" və "ZİL"markalı səyyar kinoteatrla mükafatlanmış.

Naxçıvanda ən təmiz havası olan Batabat yaylasında ("Biçənək meşəsi"ndə) yeni tikilmiş, Astrofizika elm-istehsalat Rəsədxanası işə salınır.

> *Orada ayı bir nur, günəşi də çıraq etdi."*
>
> **(Nuh surəsi, 16)**

1974-cü ildə Naxçıvanda Azərbaycan rəssamlarının müstəqil təşkilatı yaradılır. Naxçıvanlı rəssamlardan C.İbadullayev, Y.Məmmədov, B.Abuzərli, A.Qardaşbəyov, S.Qədimov, R.Ağayev, M.İsmayılov və başqaları təşkilatın fəal üzvləri olmuşlar.

1975-ci ildən SSRİ vətəndaşlarına yeni tünd qırmızı rəngli vətəndaşlıq pasportları verilir. Həmin ildən Naxçıvan mətbəəsində yeni "Rotasiya" poliqrafiya avadanlıqları quraşdırılaraq, "Şərq qapısı" qəzeti iki rəngdə çıxarılır. Rayonlarda kiçik ölçülü İliç (Şərur) şəhərində "İşıqlı yol", Şahbuz qəsəbəsində "Yüksəliş", Culfa şəhərində "Zəfər" və Ordubad şəhərində isə "Yeni Ordubad" qəzetləri də nəşr olunur. Həmin illərdə yüksək siyasi təşkilatçılığına görə Azərbaycn KP MK-ın birinci katibi H.Ə.Əliyevə, İttifaq hökuməti tərəfindən "Sosialist əməyi Qəhrəmanı" fəxri adı verilərək, "Lenin" və "Qızıl ulduz" ordenləri ilə təltif olunur.

1976-cı ildən Azərbaycan Dəmir yolu İdarəsinin Qaradonlu şöbəsi, İmişli rayonundan Naxçıvan şəhərinə (rəisi A.Y.Hacıyev idi) köçürülür. Naxçıvan dəmir yolu stansiyasından hər gün "Araz" (Bakı-Noraşen) və "Dostluq" (Bakı-İrəvan), həftədə bir gün Super-vaqon qoşulmuş "Naxçıvan" (Naxçıvan-Moskva) qatarları yola düşür.

1977-ci ildə ölkədə Oktyabrın 60 illiyini qeyd edirlər Bu münasibətlə Naxçıvanda Uşaq Parkı, Uşaq Dəmir yolu Stansiyası, Pioner və məktəblilər Sarayı, Arpaçayı üzərindən uzunluğu 120 paqonmetr olan körpü və başqa mədəni-sosial tikililər də istifadəyə verilmişdir.

> *"İman gətirib yaxşı işlər görənləri Nəim cənnəti gözləyir."*
>
> **(Loğman surəsi, 8)**

1978-ci ildə Azərbaycan SSR və Naxçıvan MSSR-də Dövlət Konstitusiyası (Əsas Qanun) qəbul olmuşdur.

Həmin ildə Naxçıvan Kənd Təsərrüfatı Texnikumu N.Rəfiyev adına Sovxoz-texnikum olaraq, Şıxmahmud kəndinə köçrülür. Texnikumun kolektivinə Ümumittifaq Sosializm

yarışının qalibi kimi, SSRİ Kənd Təsərrüfatı Nazirliyinin “Keçici Qırmızı bayrağı” verilmişdir.

1979-cu ildə Naxçıvan rayonu Babək adı ilə əvəz olaraq, inzibbati əraziyə daxil olmuş Yəmxana ilə Təzəkənd (Astaabad) əhalisi, Pürcüvar düzündəki yeni tilimiş Babək rayon mərkəzinə köçürülür. Həmin ildə Babək rayonundakı əkin sahələrini suvarmaq məqsədi ilə Naxçıvan çayı üzərindəki (Vayxır kəndi yaxınlığında) “Qızılboğaz” sahəsində bənd tikilir.

1970-79-cu illərdə Nuh yurdu Naxçıvan inkişaf edərək sosializm qələbəsindən sonra kommuzizmə doğru start götürmüşdür. Qoca şərqin qapısı olan Naxçıvan diyarı çiçəklənən ölkəyə çevrilir.Azərbaycan SSR KP MK-in birinci katibi H.Ə.Əliyev 10 il ardıcıl olaraq, Respublikada Dövlət plan və tapşırıqlarının yerinə yetirilməsində və siyasi quruculuq işlərinin inkişafındakı nailiyyətlərinə görə ikinci dəfə ölkənin ən yüksək mükafatına layiq görülmüş. H.Ə.Əliyevə ikinci dəfə “Lenin” və “Qızıl ulduz” ordenləri verilərək, Sosialist Əməyi Qəhrəmanı fəxri adını alır.

Sovet xalqlarının beynəlminəlçi mehriban ailəsində özünəməxsus şərəfli zəhmət yolunu tutan Naxçıvan xalqı, bütün bu illərdə böyük nailiyyətlər qazanaraq şərəfli yol ilə getmişlər. (Bax, “ASE” (10 cilddə), 7-ci cild. Bakı-1983, səh. 170).

1980-ci ildə Bakı şəhərində “Naxçıvan MSSR Madəniyyət və İncəsənət günləri” keçirilmişdir. Mart ayının 28-dən 30-dək Naxçıvanlı nümayəndələr Bakı şəhər zəhmətkeşləri qarşısında mədəniyyət, ədəbiyyat və incəsənətimizi nümayiş etdirmişlər.

1981-ci ilin 26 dekabr tarixində Naxçıvanda mətbuat, nəşriyyat və poliqrqafiya işçilərinin peşə bayramı keçirilmiş. Uzun illər qəzet mətbəəsində çapçı işləyən F.A.Bağırov “Azərbaycan SSR-in əməkdar poliqrafçısı” fəxri adını almışdır. Həmin ildən “Şərq qapısı” qəzeti rus və azərbaycan dillərində “Sovet Naxçıvanı”adı ilə nəşr olunur.

Muxtar respublikanın zəhmətkeşləri siyasi, iqtisadi və sosial-mədəni sahələrdə nailiyyətlər qazanmışlar. Belə ki, şəhər və rayon mərkəzləri abadlaşmış, yeni binalar tikilmiş və Şərur qəsəbəsi İliç şəhəri statusunu almışdır.

1982-ci ildə İliç şəhəri ilə Babək qəsəbəsində yeni ölkəşünaslıq muzeyi ilə Naxçıvan şəhərində isə sərkərdə Cəmşid Naxçıvanskinin (1895-1938) ev muzeyi açılır. (Muzey 1918-20-ci illərdə Naxçıvan Araz (türk) Cümhuriyyətinin keçmiş inzibati binasında yaradılmış). Həmin ildə Azərbaycan xalqı şair və dramaturq H.Cavidin 100 illiyini qeyd

etmiş. 3 noyabr tarixində H.Cavidin cəsəd qalıqları Rusiyanın İrkutsk vilayətindən Naxçıvana gətirilərək, mərhumun vətənində dəfn edilmişdir.

1982-ci ilin 10 noyabr tarixində Sovet İttifaqının rəhbəri L.İ.Brejnev, uzun sürən xəstəlikdən sonra Moskvada vəfat etdir. Brejnevin ölüm xəbərini eşidən bütün Sovet xalqı, 3 gün matəm saxlamış. (Bax, "Bakinskiy raboçiy" qəzeti, 12 noyabr 1982-ci il №261).

Sovet İttifaqı KP MK-in birinci katibi vəzifəsinə Y.V.Andropov (1914-1984) seçilir.

1982-ci ilin dekabr ayından H.Ə.Əliyev SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə irəli çəkilərək, Mərkəzi Komitənin Siyasi Bürosuna üzv olmuşdur. Ölkənin hər yerində olduğu kimi Naxçıvanda da Xalq nəzarəti Komitəsi səlahiyyətləri artırılır.

1983-cü ildə Bakıdan Naxçıvan MSSR ərazilərinə (Qarabağdan keçməklə) qaz kəməri çəkilir. İlk dəfə olaraq Naxçıvan şəhərindəki Respublika Məktəblilər Sarayının qarşısındakı "Məşəl" abidəsində təntənəli surətdə mavi alov yandırılmış.

> *"Kim zərrə qədər yaxşı iş görmüşdürsə, onun xeyrini də görəcəkdir."*
>
> (Quran)

1984-cü ildə müəmmalı şəkildə Y.V.Andropov vəfat edərək, onun yerinə astma xəstəliyinə tutulmuş K.U.Çernenko (1916-1985) seçilir.

Çernenko əvvəllər pedaqoq olduğundan müəllim əməyini yüksək tutaraq, Kommunist partiyasının XXVI qurultayında sovet təhsil sistemində islahatlar aparır. Bütün bu illərdə Muxtar respublikada 6.500 nəfərdən artıq müəllim çalışaraq, onların 170 nəfəri "Əməkdar müəllim" fəxri ada layiq görülmüşlər.Naxçıvan MSSR-də təhsil müəssisələrində işləyən 52 nəfər "Baş müəllim", 25 nəfər isə "Metodist müəllim" fəxri adlarına layiq görülür. Bundan başqa yüzlərcə müəllim "Əlaçı maarif işçisi" döş nişanı ilə təltif olunmuş. Onlardan iki nəfəri SSRİ və Azərbaycan Ali Sovetinə, iki nəfəri isə Naxçıvan Ali Sovetinə deputat seçilmiş. Didivar kənd orta məktəbinin müəllimi İ.Şükürov, "SRRİ-nin Xalq müəllimi" fəxri adına layiq görülmüşdür. (Bax, "Şərq qapısı" qəzeti, 1984-cü il, №266).

1984-cü ildə Naxçıvan MSSR Xalq Maarif Nazirliyi tabeliyindəki məktəbdən kənar uşaq müəssisələrində də əsaslı dəyişiliklər olmuşdur. Həmin illərdə Muxtar respublikada mədəniyyət sahəsində də inkişaf olmuş. Belə ki, Naxçıvandakı Xalq yaradıcılığı Evi

bazasında yaradılmış Mədəniyyət üzrə Elmi-Metodik Mərkəz, bədii özfəaliyyət kolektivləri arasında baxış müsabiqələrini keçirərək, yeni istedadları aşkara çıxarmış, müxtəlif məzmunlu elmi metodiki tədbirlər keçirir. Mədəniyyət işçiləri Bakı, Moskva, Leninqrad və başqa şəhərlərdəki kurslarında peşəkarlıq qabiliyyətlərini də təkmilləşdirmişlər

1984-cü ilin 17 noyabr tarixində Naxçıvan xalqı Muxtar respublikanın 60 illik yubiley şənliklərini keçirir. Kənd əməkçiləri dövlətə plandan əlavə 147 min ton (210%) üzüm, 7,6 min ton (174%) meyvə, 7,3 min ton (118%) tərəvəz və 1.702 ton (122%) bostan bitkiləri yetişdirmişdir. (1984- cü ilin Nax.MSSR Mərkəzi Statistika İdarəsinin məlumatı)..

Naxşıvan zəhmətkeşləri ildə bir dəfə sosialist ənənələrindən olan "Məhsul bayramı"nı keçirməyə başlamış. Ənənvi "1 may" və "Oktyabr inqilabı" bayramları ilə bərabər payız aylarında keçirilən "Məhsul bayramı"nda, istehsalat qabaqcıllarına dövlət tərəfindən "QAZ-24" markalı minik avtomobili və digər qiymətli hədiyyələr verilir. Həmin ildə Naxçıvan şəhərində 13 mərtəbəli "Təbriz" mehmanxanası, Mədəniyyət Sarayı, Uşaq istirahət Parkı və başqa sosial mədəni sahələr də tikilərək istifadəyə verilmişdir.

1984-cü ildə SSRİ Ali Sovetinin qərarı ilə, Naxçıvan şəhərində iki dəfə Sosialist əməyi Qəhrəmanı H.Ə.Əliyevin tuncdan tökülmüş büstü qoyulmuşdur..

> *"Hər kəsə öz əməlinə görə əvəz veriləcəkdir. Allah onların nə etdiklərini ən yaxşı biləndir."*
>
> **(Zümər surəsi, 70)**

1985-ci ildə Sovet ittifaqının rəhbəri K.U.Çernenko səhhətinə görə vəfat edir. Həmin vəzifəyə SSRİ Nazirlər Sovetinin birinci müavini H.Ə.Əliyevin gəlməsinə ehtimal olsa belə, ermənipərəst M.S.Qorbaçovu (1931-....) irəli çəkirlər...

M.Qorbaçov yeni vəzifəyə keçməklə Sovet dövləti tənəzzülə yğrayır. O,iclaslar çağıraraq Sovet xalqını "yenidənqurma və demokratiya" şüarı ilə aldadaraq boş-boş vədlər verir. İnsanların rifahının yaxşılaşması üçün və ölkənin inkişafı naminə heç bir əməli işlər görə bilməyən Mikayıl, Sovet rəhbərlərini (N.S.Xruşşovdan başqa) tənqid edir.

"Aşkarlıq və demokratiya" şüarını əzbərləmiş Sovet rəhbəri, milli ədavətin yerlərdə (müttəfiq respublikalarda) "toxumlarının səpilməsinə" şərait yaradır. Bu siyasi çaşqınlıqdan məharətlə istifadə edən Avropanın qərb kapitalist dövlətləri, Sovet

dövlətinin vətəndaşları arasında gizli yollarla sosializm sistemi əleyhinə təbliğat vasitələrindən istifadə edirlər. Xarici dövlətlərin ələ keçirdikləri muzdlu vətəndaşlar, yerlərdə Sovet dövləti əleyhinə təbliğat aparır. Gənclərin estetik tərbiyəsinə mənfi təsir edən "boz" videofilmlər kütləvi surətdə nümayiş olunur. Ölkədə təxribat işləri güclənir, ayrı-ayrı hərbi obyetlər, zavodlar, təyyarələr, qatarlar, sualtı gəmilər və şaxtalar partladılır. (Ukraynadakı Çernobıl AES-ı təxribat nəticəsində partladılaraq, Ukrayna ilə Belorusiyaya zərər dəymişdir).

Qərbi Avropa dövlətinin "təkidi ilə" Avropadakı Sovet qoşun hissələri ləğv olunur. Nəticədə ölkədə kütləvi surətdə işsizlik yaranır, anarxiya meydana gəlir, milli hərəkatlar güclənir və vətəndaşların beynəlmiləlçi hüquqları pozulur. Xalqın və millətin "tərəfini saxlayan" şovinist adamlar "göbələk kimi yrdən çıxır"lar. Həmin illərdə Sovet dövlətinin güc nazirlikləri nədənsə bu kimi mənfi amillərin qarşısını almaq istəmir. Ən qorxulusu isə ölkə daxilindəki milli münaqişələrin güclənməsi səbəbindən xalqın narazılığına gətirib çıxarır. (Belə milli münaqişələrdən Orta Asiyadakı (Qazağıstanda) Mesxeti türkdilli vətəndaşlara divan tutulması, Krım vilayətindəki Qaqauz türklərinə qarşı haqsızlıqların olmasıdır. Bundan başqa Şimali Qafqazda (Çeçenistanda), Gürcüstanda, Baltikyanı ölkələrdə və nəhayət ki, Ermənistandan və Azərbaycanın Qarbağ ərazilərindən qovulmuş Azəri türklərini göstərmək olar. Qəribədir ki, Sovet xalqlarını bir-biri ilə düşmən edən və ölkədəki gərginliklərin yaradılmasına səbəb olan M.Qorbaçova, ABŞ və Qərbi Avropa dövlət rəhbərlərinin məsləhəti ilə "Nobel sülh mükafatı" verirlir)...

"Olmasaydı cahanda sarsaqlar, ac qalardı yəqin ki, yaltaqlar." (Bax, İ.A.Krılov (1769-1844) "Təmsillər" (rusca), Moskva-1959).

(Moskvada H.Əliyev milli ədavətlərə son qoymaq üçün M.Qorbaçova öz narazılığını bildirir. Sovet rəhbəri əvvəl bəhanə ilə H.Əliyevi, sonra isə Moskva Beynəlxalq Münasibətlər İnstitutunda müəllim işləyən İlham Heydər oğlu Əliyevi də işindən çıxardır. Haqsızlıqlara dözə bilməyən H.Əliyevin həyat yoldaşı, tibb elmləri namizədi Zərifə Əziz ğızı Əliyeva (1923-1985), Moskvada vaxtsız vəfat edir).

1987-ci ilin sentyabr ayında Naxçıvan Dövlət Dram Teatrının 100 illiyi yubiley tədbirləri keçirilmişdir. Yubiley tədbirinə İrəvan Azərbaycan Dram Teatrının baş rejissoru Baxşı Qələndərli (1903-1982) də gələrək kollektivi təbrik etmişdir.

1988-ci ilin oktyabr ayında Naxçıvan şəhərindəki mərkəzi meydanda, mitinq keçirilərək dövlət rəhbərlərinin ünvanına kəskin sözlər deyilir. (Küçə və meydan mitinqlərinin

keçirilməsinə Moskva hökuməti şərait yaratmışdır).

Pəncərədən seyr edən Azərbaycan KP Naxçıvan Vilayət Komitəsinin birinci katibi Nurəddin Mustafayev, Naxçıvan qarnizonunun silahlı əsgərləri ilə hərbi texnikasını meydandakı adamların üzərinə göndərir. (Meydandan qorxub qaçan adamların üzərinə hərbiçilər tərəfindən amansızlıq edilərək, bir neçə adam xəsarət alır. Xalqın qəzəbindən qorxan katib, binanın arxa qapısından çıxaraq qaçmışdır)...

1988-ci ilin oktyabr ayından Azərbaycan KP MK-in birinci katibi vəzifəsinə əvvəllər SSRİ-in Pakistandakı səfiri olmuş diplomat Ə.X.Vəzirov (1930-....) və Naxçıvan vilayət komitəsinin birinci katibi vəzifəsinə isə, Afiyəddin Cəlil oğlu Cəlilov (1946-1994) seçilir. Həmin ilin ikinci yarısında millətçi ermənilər İrəvandakı Azəri türklərinə qarşı siyasi mitinqlər keçirirlər. Onlar "Böyük Ermənistan" yaratmaq niyyəti ilə Z.Balayanın "Ocaq" kitabını təbliğ edərək, Azərbaycanın qədim torpaq ərazilərinə sahib çıxmaq istəyirlər. (Həmin ildən Ermənistandan Naxçıvan ərazilərinə ilk qaçqınlar gəlməyə başlayır).

Naxçıvan məscidlərində möminlər namaz qılıb müsəlləyə çıxıraq, Allahdan kömək istəyyirlər. Tezliklə ermənilərə Allahdan bəla gələrək, Spitak şəhərində zəlzələ olur. (Zəlzələdən minlərlə erməni vətəndaşı məhv olaraq zərər çəkir). Qəlblərində mərhəmət olan Azəri müsəlmanları, könüllü surətdə təyyarə ilə Bakıdan kömək məqsədi ilə İrəvana uçurlar. Lakin mülki təyyarə Ermənistan sərhəddində möcüzəvi surətdə göydə partlayır. (Həmin təyyarə qəzasından yalnız bir nəfər Sumqayıt vətəndaşı şikəst olaraq salamat qalır. Təyyarədəki qəzanın səbəbini bildirən "qara qutu"da qeyb olur)...

> *"Həqiqətən, Allah insanlara zərrəcə zülm etməz, lakin insanlar özləri özlərinə zülm edərlər!"*
>
> **(Quran)**

FƏSİL 3

# Tarixi epiloq

Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Nuh yurdu-Naxçıvan əraziləri, erməni millətçilərinin böhtanlarına məruz qalır. Belə ki, 70 ildən sonra mənfur "daşnaksütyun" partiyası Parisdəki Andronikin qəbirindən "xortlayır".

Sovet dövlətinin başçısı M.Qorbaçovun Fransaya səfərindən sonra mənfur siyasi partiya, Moskvaya ayaq açaraq, orada təlimatlanır və Qafqaza gəlir. 1988-ci ildə ermənilər Ermənistan ərazilərində yaşayan Azəri türklərini yurd yerlərindən qovaraq qaçqın salırlar. Bundan sonra Sumqayıtda, Bakıda, Stepanakertdə (Xankəndində) və İrəvanda milli toqquşmalar baş verir. (Artıq bu zaman SSRİ-in müttəfiq Respublikalarında da milli münaqişələr yaranmışdır).

Bakıda olduğu kimi Nuh yurdu-Naxçıvanda da torpaq ərazilərini müdafiə edən "Azərbaycan Xalq Cəbhəsi" Partiyası adlı siyasi təşkilat yaradılır.

1988-ci ilin noyabr ayının 17-də Ə.Vəzirov Naxçıvana gələrək, sərhəd qarnizonu əsgərləri ilə görüşür. O, şəhərdəki hökumət rəhbərlərinə qarşı yönəldilmiş mitinq iştirakçılarından qorxuya düşərək, Vilayət Partiya Komitəsinin birinci katibi ilə görüşmədən Bakıya qayıdır. Həmin gündən başlayaraq 4 dekabr tarixədək davam edən Bakı və Naxçıvan şəhərlərində mitinqlər keçirilir. (Sonrakı illərdə 17 noyabr tarixi-"Milli dirçəliş günü" kimi elan olacaq).

Azərbaycan Xalq Cəbhəsi partiyasına tezliklə yeni üzvlər qəbul olur. Tezliklə Nuh yurdu Naxşıvanın bütün rayonlarında yeni siyasi təşkilatın özəkləri də yaradılır.

Mitinqdəki çıxiş edən "liderlər" tez-tez deyirlər ki;-"Əgər Azərbaycan xalqı müstəqil istehsal sahələrinə sahib çıxarsa, onda adamların güzəranı yaxşılaşar və camaat qızıl döşənmiş yollarda gəzər." (Nə qədər ki, cəmiyyətdə bərabər hüquqlu insanlar yoxdursa, onda əzən və əzilən, hakim və məhkumlar, aqil və cahillər olcaq və Allahın ədaləti aradn götürüləcəkdir).

> *"Biz hər bir insanın əməlini öz boynundan asar və qiyamət günü açıq kitab kimi qarşısına qoyarıq."*
>
> (Quran)

Nuh yurdu Naxçıvanda xalq cəbhəsinin fəaliyyəti gün-gündən artaraq xalq hərəkatı güclənir. Tezliklə "cəbhəçilər" Vilayət Kommunist və Komsomol Komitələrinə, Həmkarlar ittifaqları Şurası ilə hüquq-mühafizə orqanlarına, hücum çəkirlər. Tezliklə hər yerdə istehsal sahələri dayandırılır. Camaat "qara bazar"lardakı açıq-aşkar alverlə məşğul olur. Adamlar İrandan gətirdikləri saqqız və müxtəlif ərzaq mallarını, qiymətli Sovet mallarına dəyişərək alverə qurşanırlar. (Dövlətin güc nazirliklərindəki SƏDM şöbələri ləğv olunduğundan bazarlarda alverçilər həddi aşırlar).

1989-cu ildən Ə.Vəzirovun çarəsizliyi üzündən, Azərbaycan Xalq Cəbhəsi Partiyası (AXCP)-nın təşkilatı dövlət qeydiyyatından keçirilir. Həmin ilin 16 iyun tarixində Bakıda AXCP-ın ilk təsis konfransı keçirilərək, Ordubalı filoloji elmlər namizədi Ə.Q.Əliyev (Elçibəy) 1938-2000) partiyanın sədri seçilir. (Həmin ilin 31 dekabr tarixində Naxçıvanda AXCP-ın könüllü dəstələri tərəfindən Araz çayı sahilindəki sərhəd məftilləri sökülür. Sonrakı illərdə 31 dekabr tarixi, "Dünya Azərbaycanlılarının həmrəyliyi günü" kimi elan edilmiş).

1990-cı ilin əvvəli Azəri türkləri üçün əzab-əziyyətli olmuşdur. Ermənilər Qarabağ ərazilərindəki müsəlmanları, yurd yerlərindən qovaraq, əsir düşənləri vəhşiliklə bürun-qulaqlarını kəsib öldürürlər. (Xalqın belə əzablarına Bakı hökuməti başçılarından Ə.Vəzirov, E.Qafarova, A.Mütəllibov, və Moskva rəhbərləri əhəmiyyət vermirlər).

Bakıda və Naxçıvanda Sovet dövləti əleyhinə mitinqlər keçirilərək, sosialist sisteminin dağılmasını istəyirlər. Həmin illərdə Azərbaycan radio-televiziya xəbərləri dövlət senzurunun icazəsi ilə efirə buraxılırdı. (Naxçıvan kütləvi təbliğat vasitələri müxbirləri isə, xalqa gündəlik real hadisələrin xəbərlərini çatdırırdılar).

1990-cı ilin 19 yanvar tarixində Bakı şəhərində axşamdan başlanan mitinqlərdə çıxış edənlər Moskva və Azərbaycan hökumət rəhbərlərinin istefasını tələb edirlər. Sovet secmə qoşun hissələri ilə tırtıllı tanklar, şəhərin mərkəzi küçələrində görünməyə başlayır. Soldatlar qadağan olunmuş güllələrlə avtomat silahlardan atəş açmağa başlayırlar. Ağır tanklar küçədəki xaotik qaçışan adamların üzərinə yeriyir. Tezliklə günahsız insanlar tankların altında əzilərək məhv olurlar. (Ağır tanklar küçədəki dayanmış minik avtomobillərini, xiyabandakı yaşıllığı əzərək, nümayişə çıxanlara yaylım atəşləri də açırlar)...

70 ildən sonra Bakı küçələrində yenidən kütləvi qırğınlar baş verməklə, günahsız insanlar şəhid olur. Xalq bu hadisədən hiddətlənərək, Sovet dövlətinin rəhbərlərinə lənət edir. 20 yanvar tarixindən şəhərdə axşamlar komendat saatı tətbiq olunur.

1990-cı ilin 20 yanvar tarixində rus və erməni silahlıları Nuh yurdu Naxçıvan torpaq ərazilərinə də basqın etmişlər. Müasir silahlarla silahlanmış ermənilər əvvəl Kərki kəndini ələ keçirib və əsas mövqelərdən "Alazan" tipli raketlərlə Sədərək kəndini də atəşə tuturlar. Kənddəki mülki evlər, xəstəxana, şərab emalı zavodu, məktəb və başqa tikililər dağıdılır. (Sədərəklə Kərki camaatı yurd yerlərindən qaçqın düşərək müvəqqəti Şərur rayonunun kəndlərində məskunlaşırlar). Həmin günü atışmalarda soydaşlarımızdan 9 nəfər şəhid olaraq və 30 nəfər isə ağır yaralanır. (Bax, "Şərq qapısı" qəzeti, 1990-cı il 20 yanvar № 1).

Azərbaycan xalqı ermənilərin bu vəhşiliklərinə lənət deyərək, üç gün matəm saxlayırlar. Məscidlərdə möminlər şəhidlərin ruhuna dualar oxuyararaq, xalqımıza Allahdan nicat istəyirlər. Ermənilr Kərki kəndini tutduqdan sonra, sərhəd kəndlərindən Havuş, Cağazir, Yuxarı Yaycı, Şada, Kərməçataq, Kükü, Biçənək, Keçili, Ərəfsə və digər kəndlərə də aramsız basqınlar edir. Örüşdəki otlayan heyvanları apararaq çobanları da girov götürürlər.

Bütün bu işlərə görə Ermənistan silahlı dəstələri, Naxçıvan torpaq ərazilərinə təcavüzü nəticəsində Naxçıvan hökuməti Bakı ilə Moskvaya bildirsə də əhəmmiyyət verilmir. Əksinə Moskva televiziyasının xəbərlər proqramında Naxçıvan xalqının Ermənistana basqınçılığı bildirilmişdir. Bütün bu işlərə görə Naxçıvan xalqı hiddətələnərək, Sovet rəhbələrinə nifrət etmiş.

Naxçıvan MSSR Ali Soveti sədri S.Əliyeva (1925-....)və katib X.Xəlilov (1921-1999) tərəfindən, keçmiş Qars müqaviləsinin şərtlərinə görə, Naxçıvanın ərazi bütövlüyü və suvernliyi qorunmadığından və müqavilə şərtləri pozulduğundan, Naxçıvan hökuməti SSRİ hökuməti tərkibindən çıxmağa qərar verir. Həmin qərar canlı surətdə Naxçıvan radio və televiziysı ilə efirə buraxılaraq və yerli qəzetlərdə də dərc olunur. (Bax, "Şərq qapısı" qəzeti, 1990-cı il 20 yanvar № 1).Daha sonra isə dünya dövlətlərinə ermənilərin çirkin əməlləri bəyanatla da bildirilmişdir. Bəyanatda qonşu İran və Türküyə dövlətlərindən kömək və yardım istənilmiş. (Naxçıvan hökumətinin bu qərarı müttəfiq respublikalara da təsirini göstərmişdir).

Sovet Rusiyası tərkibindən çıxan Nuh yurdu-Naxçıvan xalqı, müstəqil olaraq Azərbaycanın tərkibində Muxtar Prspublika ststusunda qalır.

1990-cı ilin 21 may tarixində Azərbaycan SSR Ali Sovetinin qərarı ilə, hər ilin 28 may tarixi- Azərbaycan Respublikası günü elan olunur.

1990-cı ilin Bakı və Naxçıvan hadisələrindən xəbər tutan Nuh yurdu-Naxçıvanın qəhrəman oğlu H.Ə.Əliyev, Moskvadakı Azərbaycan nümayəndəliyində olaraq Qorbaçov rəhbərliyinə etiraz bəyanatı vermiş. H.Əliyev avqust ayında təyyarə ilə Bakıya gələrək şəhidlər məzarlığını ziyarət edib və xalqla görüşüb məsləhətləşmək istəmişdir. Lakin Azərbaycan rəhbərləri onun gəlişindən heç də razı qalmırlar. Elə həmin günü H.Əliyev Bakıdan təyyarə ilə vətəni Naxçıvana dönür. Naxçıvan xalqı Nuh yurdunun mətin insanı Heydər Əlirza oğlunu Naxçıvan hava limanında səmimi qarşılayır.

1990-cı ilin 17 noyabr tarixində H.Əliyevin sədirliyi ilə keçirilən Naxçıvan MR Ali Məclisinin birinci sessiyasında, Vilayətin adı dəyişilərək Azərbaycanın tərkibində qalmaqla Naxçıvan Muxtar Respublikası olmuşdur. (Həmin gün sesiyada 70 il öncə üçrəngli Azərbaycan bayrağı H.Əliyev tərəfdən yenidən qaldırılmış).

Azərbaycan tarixində 17 noyabr -Dirçəliş günü kimi yadaşlara yazılmışdır. H.Əliyev Naxçıvana gəldiyi gündən xalqın arzu və təklifləri ilə maraqlanaraq, lazımi işləri görür. Belə ki o, ermənistan tərəfdən kəsilmiş qazla elektrik rabitəsini bərpa etmək üçün, xalqın səbirli olmasını istəyir.

H.Əliyev qonşu İran dövləti ilə işgüzar münasibətlərin yaranmasına nail olaraq, elektrik enerjisi ilə ərzaq təminatını normaya salır. (Həmin illərdə Qarbağda Moskvanın göstərişi ilə xüsusi idarəetmə komitəsi yaradılır. Komitə daima ermənilərin tərəfini saxlayaraq, xeyirsiz işlərlə məşğul olur. Buna görə də hər yerdə Sovet dövlətinə qarşı etiraz mitinqləri keçirilir ki, rus ordu hissələri Azərbaycan ərazilərindən çıxarılsın).

1990-cı ilin payızında Naxçıvandakı hərbi qarnizonun qərərgahında H.Əliyevin iştirakı ilə rus ordu birləşmələri silah-sursatlarını yeni yaradılmış Azərbaycan milli ordusuna təhvil verirlər. (Həmin mərasimdə Müdafiə naziri R.Qazıyev və Daxili işlər naziri İ.Həmidov da iştirak etmişlər).

1990-cı ilin 31 gekabr tarixində Moskvada Sovet dövlətinin rəhbəri M.Qorbaçov, mərkəzi radio və televiziya kanalında əlindəki kommunist biletini yandıraraq və SSRİ dövlətinin ləğv olunmasını elan edir... (400 il bundan əvvəl Fransız baxıcısı M.Nostradamus demişdir ki; -"Rusiyadakı bərabər hüquqlu cəmiyyəti, sonradan başı xallı Mikayıl pozacaqdır..."

> *"Sizə üz verən hər bir müsibət öz əlinizlə qazandığınız günahların ucbatındandır..."*
>
> **(Şura surəsi, 30)**

1991-ci ilin 4 sentyabr tarixindən A.Cəlilov Azərbaycan Ali Sovetinin sədr müavini təyin edildiyindən H.Ə.Əliyev də Maxçıvan MR Ali məclisinin sədri olur. Həmin ilin 8 sentyabr tarixində Azərbaycanda ilk Prezident seçkiləri keçirilmiş (Bakıda prezidentliyə yeganə namizəd olan A.Mütəllibov Azərbaycanın prezidenti "seçilir").

1991-ci ilin 14 sentyabr tarixində Azərbaycan Kommunist Partiyasının 33-cü fövqəladə qurultayı çağrılır. Qurultayın qərarı ilə ölkədə kommunist partiyasının fəaliyyəti müvəqqəti dayandırılır. Həmin ilin 9 dekabr tarixində Azərbaycan Respublikası "Ümumdünya İslam Təşkilatı"na üzv olmuş. 1991-ci ilin 16 dekabr tarixində Naxçıvanda "Dünya Azərbaycanlılarının həmrəyliyi"ni təntənəli şəkidə qeyd edilmiş. Bundan sonra hər ilin 31 dekabr tarixi, Azərbaycanın həmrəyliyi günü kimi elan olmur.

1991-ci ilin 29 dekabr tarixində "Azərbaycan Respublikası dövlət müstəqilliyi haqqında" Konstitusiya aktı qəbul edilərək, kapitalist sistemə keçirilir.

> *"Əgər Allah bəndələrinə bol ruzi versəydi onlar yer üzündə həddi aşardılar..."*
>
> **(Şura surəsi, 27)**

1992-ci ilin 25 fevral tarixində ermənilər Şuşa, Kəlbəcər və Xocalı şəhərlərini ələ keçirirlər. Xocalı faciəsində tarixdə görünməyən qəddarlıqlar olmuşdur. Belə ki, dinc Azəri türklərindən 613 nəfər şəhid olmuş, 1.275 nəfər isə əsir düşmüş. 7 ailə tamamilə məhv edimiş, 230 ailə başsız qalmış, 200 nəfər şikəst olmuş və körpələrin başı kəsilərək ürəkləri yırtılmışdır. Həmin ilin 6 mart tarixində Azərbaycan rəhbərləri A.Mütəllibovla E.Qafarova vəzifələrindən istefaya çıxaraq Moskvaya gedirlər. Bundan sonra bütün səlahiyyətləri müvəqqəti Ali Sovetin sədr müavini Yaqub Məmmədov icra edir. (24 aprel tarixdən isə ermənilər Mehri rayonu ərazisindən keçən dəmir yolunu bağlayırlar).

1992-ci ilin 28 may tarixində Türküyənin 9-cu prezidenti Süleyman Dəmirəl (1924-....), Naxçıvana gələrək H.Əliyevlə görüşür. Həmin ilin aprel ayından Xalq Maarif Nazirliyinin adı dəyişdirilərək, Təhsil Nazirliyi olur. Azərbaycan Nazirlər Soveti, Nazirlər Kabineti və Ali Sovetin də adı dəyişdirilərək, Milli Məclis adlanır. (Nazirlər Kabinetinin 23 aprel tarixli 228 №-li qərarı ilə Respublika təhsil işçilərinə imtiyazlar verilərək taksidən başqa bütün nəqliyyat vasitələri pulsuz edilr).

1992-ci ilin 7 iyun tarixində Azərbaycan Respublikasında Prezident seçkiləri keçirilir. Seçkilərdə yeganə namizəd Əbülfəz Qədirqulu oğlu Əliyev (Elçibəy) (1938-2000), Azərbaycanın Prezidenti olur. Həmin ilin 10 iyul tarixində Azərbaycan Avropa

Təhlükəsizlik və Əməktaşlıq Birliyinə qoşularaq, Helinskdə Avropa Təhlükəsizlik Əlaqələri Məsələləri (ATƏM) təşkilatına üzv olmuş.

1992-ci ilin 15 avqust tarixinədək Azərbaycan ərazilərində Sovet pul vahidləri işlənsə də, yeni milli pullar çıxaraq keçmiş 10 rubl yeni 1 manat dəyərinə endirilir. Banglardan yeni buraxılmış 1, 5, 10, 50. 250, 500 və 1.000 manatlıq kağız pullar tədavüldə olur. (500 manatın üzərində N.Gəncəvinin və 1.000 manatın isə üzərində M.Rəsulzadənin şəkilləri olmuşdur).

Milli məclisinin qərarı ilə Azərbaycan yazı əlifbası dəyişdirilərək, rus (kiril) əlifbasından latın əlifbasına keçirilir.(Yeni latın qrafikalı əlifbada apastrof (,) ilə nömrə (№) işarəsi ləğv olaraq, bir neçə hərf də dəyişdirilir). Azərbaycan Respublikasının dövlət atributları olan bayrağı, gerbi və himni dəyişdirilərək, 1918-ci ildəki kimi olur. Azərbaycanda yaşayan bütün vətəndaşların dini, azadlığı və milli hüquqlarının qorunmasına qərar verilir. (Azərbaycan Respublikası Milli Məclis tərəfindən çox partiyalı, bir palatalı, Prezidenti, Milli Məclisi, Nazirlər Kabineti və Ali Məhkəmədən ibarət hüquqi. suveren kapitalist dövlət qurumunu qəbul etmişdir. Dövlətin yeni Konstitusiya layihəsi 1992-ci ilin 24 avqust tarixdən Milli Məclis tərəfindən təsdiq olunmuş).

1992-ci ilin sentyabr ayının 26-da Araz çayı üzərində uzunluğu 286 paqonmetrlik “Ümüd körpüsü” tikilib istifadəyə verilir. Tezliklə sosializm prinsipləri pozulduğundan əhali arasında sinfi təbəqələşmə yaranır. Naxçıvandakı fabrik və zavodların işlək avadanlıqları sökülərək imkanlı adamlar tərəfindən aparılıb İran və Türküyədə qara metal kimi satılır. Naxçıvan şəhərindəki “Uşaq parkı”ndakı qatar və lokomotivlər habelə relslər də sökülərək “yararsız dəmir” kimi imkanlı adamlar tərəfindən xarici ölkələrə satılır. (Həmin illərdə Azərbaycan banglarından faizli (sələm) pullar vətəndaşlara buraxılaraq, yoxsul adamlar daha da çətinliyə düşür. Dövlət mağazaları ləğv olunduğundan bazar qiymətləri qaldırılır. Belə ki, Sovetlər dövründəki 50 kg.-lıq buğda ununun çuvalı 14-15 manat olmuş, indi isə həmin mal 20.000-25.000 manata qaldırılmış. Sovetlər dövründəki ən aşağa məvacib 60-70 manat olmuş, indi bu fərq 20.000-25.000 manata qalxsa da bir adamın aylıq dolanışığı yalnız çörək puluna çatır).

Prezident Elçibəyin hakimiyyəti dövründə gündəlik tələbat mallarının qiymətləri on dəfə qaldırılaraq az təninatlı ailələr çətinliyə düşürlər. Bundan başqa Rusiya və keçmiş müttəfiq respublikalarla, o cümlədən qonşu İranla iqtisadi əlaqələr pozulur. Yalnız Türküyə dövləti Azərbaycana iqtisadi və mədəni əlaqələri saxlayaraq xalqa qayğı göstərir.

1992-ci ilin 21 noyabr tarixində Naxçıvanda H.Əliyevin sədrliyi ilə "Yeni Azərbaycan Partiyası" (YAP) yaradılır Digər partiyaların qruplaşmaları, təxribat xarakterli siyasətə əl ataraq, Azərbaycanı "xanlıqlara" bölmək istəyirlər. Güc nazirliklərində kadrlar sərişdəsiz adamlarla əvəz olunur. Hərbi hissələrdə anarxiya nəticəsində silah ambarları nəzarətsiz buraxıldığından partladılır və silah-sursat qara bazarlarda satılır. Bakıda Milli Məclisin iclasları anarxiya mövqeyi tutaraq, deputatlar iclas zalında siqaret çəkib və məntiqsiz çıxışları ilə günlərini keçirirlər.

1993-cü ilin 4 iyun tarixində Azərbaycan Milli Qəhramanı adını almış S.Hüseynovun başçılıq etdiyi silahlı dəstə, Prezident Elçibəyə qarşı qiyam qaldırır. Bunu görən Elçibəy qorxuya düşərək, Bakıdan Naxçıvana gəlib Ordubadın Kələki kəndində oturur. Həmin ilin 9 iyun tarixində Naxçıvan Ali Məclisinin sədri H.Əliyev, təyyarə ilə gəncəyə gedib və S.Hüseynovla görüşür. Bundan sonra H.Əliyev 15 iyun tarixində Naxçıvan Ali Məsclisində sədr vəzifəsinə Namiq Həsənovu (1947-....) təyin edərək Bakıya gedir. Tezliklə Bakıda H.Əliyevi Azərbaycan Milli Məclisinə sədr seçirlər. H.Ə.Əliyev ölkə prezidenti səlahiyyətlərini icra edir. (1997-ci ilin 15 iyun tarixində Azərbaycan Milli Məclisinin qərarı ilə, hər ilin 15 iyun tarixi "Qurtuluş günü" kimi elan olunmuşdur).

1993-cü ilin avqust-sentyabr aylarında Naxçıvanda AXC Partiyasının "bəyləri" tərəfindən yerli hökumət əleyhinə qiyam qaldırılır. Qiyamçılar Qaraxanbəyli kənd sakini Siyavuş Mustafayevin silahlı dəstələri, güc nazirliklərini, rabitə evini, radio-televiziya komitəsini, hərbi hissələri, Duzdağdakı tele-radio ötürücü stansiyasını, təyyarə limanını, dəmir yolu vağzalını, avtovağzalı və əsas yollarla çaylar üzərindəki körpüləri ələ keçirirlər. Onlar tezliklə rayonlardakı mövqeləri də ələ keçirirlər. Belə ki, Şərur rayonunda Ş.Cəfərov, Ordubad rayonunda F.Quliyev, Culfa rayonunda R.Kərimov, Babək rayonunda isə B.Qənbərov silahlı dstələrlə H.Əliyevə qarşı təbliğat aparırlar. Onlar Nuh yurdu Naxçıvanı Azərbaycandan ayrı salmaq istəyirlər. ("Cəbhəşi bəylər" Naxçıvan şəhərindəki H.Əliyevin büstünü partlatmağa cəhd etmişlər. Qiyamçılar Naxçıvan Respublika Arxix idarəsində bir həftədən artıq axtarış aparirlar ki, Araz (türk) Respublikasını bərpa etsinlər. Lakin aydın olur ki, 1920-ci ildə Naxçıvandakı dövlət idarəçiliyi sənədləri Türküyəyə aparılmışdır).

Azərbaycanda H.Əliyevə qarşı xarici ölkələrin dəstəyi ilə "cəbhəçi bəylərə" maddi vəsait buraxılsa da məkirli niyyətləri baş tutmur. ("Sürünmək üçün yarananlar, göydə uça bilməzlər." M.Qorki (1868-1936).

H.Əliyev Bakıya gedəndən sonra Naxçıvanda sabitlik pozulmuş, xalqın güzəranı pisləşmişdir. H.Əliyev dərhal Rusiya ilə və keçmiş müttəfiq respublikalarla, xüsusə

qonşu İran dövləti ilə mədəni və iqtisadi əlaqələri bərpa edir. Bundan başqa H.Əliyev ABŞ, İngiltərə, Fransa, Danimarka, Belçika, Çin, Səudiyyə Ərəbistanı, İsrail və Pakistanla da mədəni əlaqələr yaradır. O, Ermənistan dövlət başçısı ilə ayrı-ayrı ölkələrdə sülh danışıqları aparmış. Qaçqın ailələri ilə görüşərək onlara lazımi maddi köməkliklər etmişdir.

1993-cü ilin 3 oktyabr tarixində Azərbaycan Respublikasında növbəti Prezident seçkiləri keçirilir. Seçkilərdə 5 nəfər namizəddən yalnız ümumxalq səsverməsində Heydər Əlirzaoğlu Əliyev (1923-2003) qələbə qazanır. (Həmin ilin payızında Lənkəranda hərbiçi Ə.Hümbətov hökumət əleyhinə çıxmaq istərkən yerliləri tərəfindən ifşa olunmuş).

1994-cü ildə Bakıda mənzilinin qarşısında Nuh yurdu-Naxçıvanın Əsil insanı Afiyəddin Cəlilov vəhşiliklə qətlə yetirilir.

> *"Biz kafir olanlara mütləq şiddətli bir əzab dadıracaq, etdikləri əməllərin ən şiddətli cəzasını verəcəyik!"*
>
> **(Fussillət surəsi, 27)**

(Həmin ilin payızında Bakıda Daxili İşlər Nazirliyinin zabitlləri Cavadov qardaşları tərəfindən üsyan yaradılsa da qıssa atışmalardan sonra tutularaq ifşa olmuşlar).

1995-ci ilin yanvar ayından Azərbaycan Maliyyə nazirliyi tərəfindən banglardan 50.000 manat kağız pullar tədavülə buraxılır. Bundan başqa bütün vətəndaşlara dörd vərəqlik pay səhmləri də paylanılır. Həmin ilin 30 yanvar tarixindən azərbaycan Prezidenti H.Əliyev İsveçrənin Davoş şəhərindəki ümumdünya iqtisadi forumuna dəvət edilir.

1995-ci ilin iyul ayında Azərbaycan Prezidenti H.Əliyev müsəlmanların müqəddəs Məkkə şəhərindəki Həcc ziyarətində olmuşdur.Həmin ilin dekabr ayının 16-da Naxçıvan MR Ali Məclisinə V.Y.Talıbov )1970-....) sədr seçilir.

1996-cı ilin 30 oktyabr tarixində H.Əliyevin təşəbüsü ilə Naxçıvan şəhərində şair - dramaturq H.Cavidin məzarı üzərində məqbərə tikdirilir. Tikinti başa çatanda mərhumun məzarı yanına oğlu Ərtoğrul və arvadı Müşkünazın da sümük qalıqları gətiilərək basdırılmış.

(10 metr hündürlüyündəki məqbərənin müəllifləri Rasim Əliyevlə Ömər Eldarov idi).

> *‘Ey iman gətirənlər! ... Siz doğru yolda olsanız , azğınlar sizə heç bir zərər verə bilməzlər. Hamınızın axır dönüşü Allahadır...”*
>
> **(Maidə surəsi, 105)**

1996-cı ilin 1-3 dekabr tarixində Portagizin Lissabon şəhərində Avropa Təhlükəsizliyi Əlaqələri Təşkilatının (ATƏT) “Zirvə toplantısı”-na Azərbaycan Prezidenti H.Ə.Əliyev də dəvət olunur. Zirvə toplantısında H.Əliyev ermənilərin qəsbkarlıqlarını dünya dövlətləri nümayəndələrinə bildirmiş. Toplantıda 53 dövlətin nümayəndələri ermənilərin təcavüzkarlığını pisləyərək, Azərbaycan Prezidenti H.Əliyevin haqq səsinə səs vermişlər.

Həmin toplantıda Azərbaycanın suverenliyi tanınmış, tərkibindəki Dağlıq Qarabağ ərazilərinə Muxtariyyət verilməsi statusu məsələsinə razılıqlarını bildirmişlər.

(Belə bir tarixi sənədin qəbul olunmasına bütün Azərbaycan xalqı kimi Nuh yurdu-Naxçıvan zəhmətkeşləri də sevinmişdir).

**Azərbaycanda sülhün və əmin-amanlığın bərqərar olmasına Ulu Tanrı kömək olsun! Amin!**

16 dekabr 1996-cı il, Naxşıvan şəhəri.

FƏSİL 9

# Ədəbiyyat siyahısı

"Quran." (Azərbaycanca), Bakı-1990.

A.Ə.Axundzadə "Müqəddəs peyqəmbərlər tarixi." Bakı-1993.

"Peyqəmbərə 40 sual." Bakı-1993.

F.Bağırov "Ziyarətnamə." Bursa-1996.

Q.İ.Mendel "İrsiyyət qanunları."(rusca), Moskva-1965.

R.H.Sultanov "Nuhun tufanı haqqında həqiqət." Bakı-1971.

S.Babayev "Qədim diyarın təbiəti." Bakı-1970.

"Bibliya" (rusca), Stokholm-1990.

Plutarx "İsgəndər Zülqərneyn." Bakı-1993.

Y.Mahmudov "Səyyahlar Azərbaycana gəlir." Bakı-1977.

N.Kərimov "Odlar yurdunun səyyah və coğrafiuaşünasları." Bakı-1986.

İ.Gaver "Xacə şah." Bakı-1993.

M.Hüseyn, Ə.Məmmədxanlı "Fətəli xan." Bakı-1946.

R.İsmayılov, M.Heydərov "Sənin baban kim olub." (I kitab), Bakı-1991.

A.Qriboyedov "Cənubi Qafqaz Şirkətinin yaradılması haqqında." (rusca),

Leninqrad-1977.

Ş.Göyçayski "Əhali coğrafiyası." Bakı-1979.

A.Belov "Ateistin cib lüğəti." Bakı-1979.

İ.Həbibbəyli "Cəlil Məmmədquluzadə." Bakı-1987.

Ə.Əliyev "Biz əzablı ömür yaşadıq." Bakı-1994.

M.Yaquboğlu "Məmmədəmin Rəsulzadə." Bakı-1991.

S.Sadıqov “Naxçıvan Muxtar Respublikası tarixindən.” Bakı-1995.

İ.A.Krılov “Təmsillər.” (rusca), Moskva-1959,

“Molla Nəsrəddin” jurnalı,1920-ci il, № 52.

“Nuh yurdu” qəzeti, 1996-cı il, № 1.

“Şərq qapısı” qəzeti, 1984-cü il, № 266, 1990-cı il, № 1.

“Sovet Ermənistanı” qəzeti, 1960-cı il, № 90.

“Bakinskiy raboçiy” qəzeti, 1982-ci il, № 261.

.

ALBOM

# Xəritə və şəkillər




Heydər Əliyev Naxçıvanda (1982)



**Kazım Qarabəkir paşa**




**Memar Əcəmi Naxçıvaninin abidəsi - 1989**



**Naxçıvan Came məscidi**



**Naxçıvan İmamzadəsi**



Qarabağlar Qutixanın türbəsi




**Türk Azadlıq Ordusunun Naxçıvan mahalına gəlməsi**